# Payız gəldi

**Şəhid Əhməd Yusifinin həyat yoldaşı Fəxrüssadat Musəvinin xatirələri**

**Gülüstan Cəfərian**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...............................................Payız gəldi**
**Qələmə alan:..................................Gülüstan Cəfərian**
**Tərcümə edən:.......................................İbrahim Əlili**
**Çap tarixi:.........................................................2023**
**Çap növbəsi:...................................................Birinci**
**Tiraj:...............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 55-40-024519-49

# Giriş

Eşq əfsanələri belə yaranır; bəla dövründə, sıxıntı, hətta aclıq dönəmində... Bu əfsanələr uzun illər sonra da danışılır: yaxında deyil, uzaqda yaranan eşq macəraları, vüsal həsrətilə günləri saymaq. Aşiqin sədaqət üçün yara çox ehtiyacı var. Özü olmayıb yeri görünən yar mövcud olanda necə əzizdisə, indi də o qədər əzizdir. Bəs yar olmayanda eşqə necə sadiq qalmaq mümkündür?..

Qarşınızdakı kitab yarın yoxluğunda eşqinə sadiq qalan bir aşiqin hekayətidir.

Şəhid Əhməd Yusifinin həyat yoldaşı xanım Fəxrüssadat Musəvi ilə müsahibələr 2017-ci ilin əvvəllərində başlandı. Yaxşı xatırlayıram, güclü qar yağmışdı, qatardan enəndən sonra vaqonların altından çıxan qatı buxarı gördüm. Günəş çıxmışdı, mavi səma altında hər şey şən və təmiz görünürdü.

"Payız gəldi" kitabı dörd il ərzində Zəncana ən azı iyirmi səfərin və otuzsaatlıq müsahibələrin nəticəsidir. Xanım Musəvi bütün görüşlərdə ağlayırdı. Hər dəfə

düşünürdüm ki, gələn dəfə yüngülləşər, ağlamaz; amma yenə ağlayırdı.

Çəkdiyi əziyyətlərə görə üç nəfərə çox təşəkkür etmək istəyirəm: Bu iş üçün böyük əmək sərf etmiş Əkbər Kiyanfərə, əməkdaşlığına və iş boyu çox dəqiqliyinə görə şəhidin oğlu Əli Yusifiyə, sonsuz səbri və həvəsləndirməsi ilə məndə güclü stimul yaradan Mürtəza Sərhəngiyə.

Gülüstan Cəfərian
Payız 2020

# Birinci fəsil

Bu evi sevirdim. Böyük həyətində dörd qədim tut ağacı, ətrafında qısa kanal olan mavi kafelli hovuz vardı. Ləya mama içində bir neçə qırmızı balıq üzən bu hovuzu həmişə təmiz və dolu saxlayırdı. Hovuzun bir tərəfində taxtadan böyük bir taxt vardı, üzərinə çox da təzə olmayan tünd göy rəngli təmiz, güllü və balaca xalçalar sərilmişdi. Bellik, ədyal, kömür samovarı və qəlyan da vardı.

Ləya mama hərdən qəlyan çəkirdi, Xansar tənbəkili qəlyan. Kömür yandıranda, aldığı kiçik stəkan-nəlbəkidə uşaq çayı içim və balaca samovarımla oynayım deyə bir parçasını mənim samovarıma salırdı. Qəlyanın büllur şüşəsinin dar boğazından suya bir neçə rəngarəng süni gül atırdı, hər qullabda su pıqqıldayır, güllər qalxıb-enirdi. Ləya mamanın yanında, bu dəm-dəsgahın önündə uzanıb əllərimi çənəmin altına qoyur, süni güllərə tamaşa edə-edə suyun pıqqıltısını dinləyirdim. Bəzən uşaq xəyallarıma o qədər dalırdım ki, elə bilirdim, özüm də şüşənin içindəyəm və güllərlə birlikdə atılıb-düşürəm.

Ləya mama həyəcanlandığımı görüb gülür, yanağımı dartıb məni əzizləyirdi. Lakin birdən külək əsib ağacdan üst-başımıza tut tökür, Ləya mamanı hirsləndirirdi. Mən tutları xalçanın üstündən götürüb tez-tez yeməyə çalışır, anamsa əlimdən alır, bağçaya atıb, "yemə, çirklidir" deyirdi. Ancaq məncə, əsla çirkli deyildi. Sonra o, qəlyanı kənara qoyub süpürgə və xəkəndaz gətirməyə gedirdi. Bir tutu da gözdən qaçırmadan taxtın ətrafını və həyəti gəzir, nə qədər tut görürdüsə, süpürürdü. Arabir dodaqaltı deyinirdi də: "Bu yapışqan tutlardan nə vaxt xilas olacağıq?!" O, gündə iki-üç dəfə həyəti yuyurdu, tutların ayaq altda tapdanmasını sevmirdi.

Əyləncəm pozulduğuna görə qalxıb küçəyə qaçırdım. Ləya mama deyirdi:

– Hara gedirsən, Fəxri?

– Əli ağanın dükanına.

Əli ağanın dükanı mənim sirli dünyamdı. Qaça-qaça gedib qapının önündəki dördayaqlının üstündə otururdum. Əli ağanın səyyar qaz ocağının metal korpusu üzərinə vurduğu çəkiclərinin səsi kəsilirdi, başını qaldırıb: "Nadinc Fəxri gəldi" – deyirdi, mən də gülürdüm.

Dükanın qapı və divarları qaraydı, hər yerindən bir alət asılmışdı. Orada bir boş nöqtə də tapa bilməzdin. Bütün o iri və xırda alətlərə baxmaq mənə maraqlı və əyləncəli gəlirdi.

Məhəllədə lampadüzəldən Əli kimi məşhurlaşmış Əli ağa bir qədər sonra deyirdi: "Vəziyyət necədir, bala? Tutlar hazırdır, gəlib aparım?" Deyirdim: "Bəli, bu gün mən də bacılarıma kömək etdim, çadırın bir tərəfindən tutdum. Ləya mama budaqları silkələdi, bütün tutları ləyənə yığdıq".

Əli ağa qalxıb əlimdən tuturdu, evə gedirdik. Mömin, qoca kişi idi. Tut dolu ləyəni həyətimizdən gətirir, istədiyi qədər özünə götürür, sonra tutların üstünə bağçadan dərdiyimiz iki qızılgül budağını, yanlarına da bir fincan qoyub dükana gələnlərə deyirdi: "Buyurun, təzə tut yeyin; ehsandır". Onlar da fincanla tutdan götürür, salavat deyirdilər.

Dörd bacı, bir qardaş idik. Birinci uşaq Zəhra-sadat, ikincisi Əşrəf-sadat, üçüncüsü Ələddin, dördüncüsü mən, yəni Fəxrüssadat, beşincisi isə bizim Arzu çağırdığımız Məryəm-sadat idi.

Atam orduda xidmət edirdi. Biz tez-tez bir şəhərdən digərinə köçməyə məcbur olurduq. Ləya mama deyirdi ki, mən altıaylıq olanda Məşhədə köçüb bu böyük həyət evini kirayə ediblər.

Beş uşağın ən ərköyünü mən idim. Atam deyirdi ki, anama bənzəyirsən. Bəlkə də, elə buna görə mənə daha çox qayğı göstərib. Atam evdə olanda yerdə və ya stulda oturmazdım, ancaq onun dizi üstə otururdum. Bu adət hətta on yeddi yaşıma qədər davam etdi. Atamı çox sevirdim. O, evə gələndə qaçıb qarşısında dizi üstə oturur, çəkmələrinin bağını açırdım. Hər dəfə də mehriban şəkildə başımı tumarlayıb deyirdi: "Əllərin bulanar, qızım!"

Bəlkə də inanmayacaqsınız, mən atamın mazlanmış çəkmələrinin iyini çox sevirdim. O, parıltılı çəkmələrini çıxaranda götürüb iyləyirdim. Ləya mama yaylığının ucu ilə ağız-burnunu tutub başını çevirirdi, amma mənə heç nə demirdi; bilirdi ki, xeyri yoxdur. Atam paltarlarını çıxarıb asılqandan asanda ona baxırdım. Çiynində və ciblərinin üstündəki parıltılı poqon və nişanlar mənə maraqlı gəlirdi. Hər dəfə soruşurdum: "Ata, mən də böyüyəndə zabit ola bilərəmmi?" Atam gülümsəyir, cavab vermirdi.

Bir qədər böyüyəndən sonra bildim ki, o, hərbçilik peşəsini sevmir, qızının hərbçi olmasını, hətta hərbçi ilə ailə qurmasını istəmir. Hərçənd, böyük bacım Zəhra tibb bacısı olub Quru Qoşunlarda işlədi və bir növ hərbçi oldu.

Ata-anam kiçik Zəncan şəhərindən olsalar, yüksək təhsilləri olmasa da, sakit, mehriban və elastik insanlar idilər. Onların yeniyetməlik və gənclik çağlarında baş vermiş hadisələr düşüncə tərzlərini bir qədər dəyişdirmişdi.

Atam şah ordusunda xidmət edirdi, amma xanlara və saray adamlarına yaxşı baxmırdı. O, gənclikdə Zəncan xanlarından və Azərbaycan Demokrat Firqəsi işğalçılarından mənəvi yara almışdı.

Anamın hicabı adi idi. Məqbərəyə gedəndə mənim çox sevdiyim rəngli çadralarından birini başına atır, bəzən saçı bayırda qalırdı. Hər ikisi namaz qılır, ramazan ayında oruc tuturdu.

Evimizdə qızların çadra örtməsinə, hicab bağlamasına dair məcburiyyət yox idi. Atam yalnız bunu deyirdi: "Biz seyidik; çalışın elə geyinin, elə davranın ki, o biri dünyada cəddimizin yanında xəcalət çəkməyək". İnsanlar onda da seyidlərə xüsusi hörmət edirdilər. Mən balaca olsam da, bunu anlayırdım.

Altı-yeddi yaşım olanda Ləya mamaya dedim ki, mənə çadra tiksin, namaz qılım. Bir müddət qiblə yerinə üzü atama doğru namaz qıldım. Atam stulda oturub xörək yeyəndə gedib onunla üz-üzə dayanır, namaz qılırdım. Axırda Ləya mama bunu bilib dedi: "Bu nə hoqqadır?! Niyə belə namaz qılırsan? Gərək üzüqibləyə dayanasan, atana doğru yox. Bizdən çox-çox öncə həzrət İbrahim bir ev tikib. Ora Allahın evidir. Allah müsəlmanlara deyib ki, namaz qılanda üzünüzü oraya tutun".

Mən yenə də razılaşmırdım, üzüqibləyə namaz qılmağı ürəyim qəbul etmirdi. Atam mənim təsəvvürümdə böyük və əzəmətli insan idi. Ona pərəstiş edir, yalnız ona doğru namaz qılmaq istəyirdim.

Əlimdən tutub məni İmam Rzanın (ə) məqbərəsinə aparanda bəzi hərəkətləri mənə qəribə gəlirdi; məsələn, əyilib bəzi məzar daşlarını öpürdü. Soruşurdum ki, ata, bu daşı niyə öpürsən? Deyirdi: "Bu, böyük bir insanın məzar daşıdır. O, böyük alim olub". Bunu deyən kimi mən də əyilib öpürdüm.

Cümə axşamı və cümə günləri anam xörək bişirirdi, məqbərəyə gedirdik. O zaman məqbərəyə palaz, xörək və digər əşyalar aparmağa icazə verirdilər. Məqbərənin böyük həyəti, kənarındakı rəngarəng və əyləncəli bazarlar atılıb-düşmək və yaşıdlarımla oynamaq üçün çox əlverişli yerlər idi.

Atam bazardan təzə və şirin qaq çörəyi, qara qurut və xoruz konfeti alırdı. Onlar mənim üçün yer üzünün ən dadlı qidaları idi. Sonra məni çağırıb deyirdi: "Fəxri, tez ol, mən ziyarətə gedirəm".

Mən əlimi məzarın ətrafındakı metal barmaqlığa vurmağı, onu öpməyi sevirdim. Atam məni boynunda oturdub barmaqlığın başına fırladırdı. Onda barmaqlıq ayrılmamışdı, kişi və qadınlar ədəb-ərkanla birlikdə onun başına fırlanırdılar.

Atam cəddini çox sevirdi. Rövzədə İmam Musa ibn Cəfərin adını eşidən kimi gözlərindən yaş axırdı. Ləya mama da bəzən barmaqlıqla üz-üzə dayanıb atamdan öyrəndiyi türkcə rövzələri zümzümə edirdi.

Bəzən cümə axşamı günləri zabitlər klubuna gedirdik. Digər şəhərlərdən gəlib Məşhəddə xidmət edən hərbçilərin

ailələri arabir oraya toplaşırdılar. Orada müxtəlif xörəklər və yeyinti məhsulları verilir, musiqi ifa edilirdi.

Yadımdadır, bir dəfə böyük bir zalda stullar düzülmüşdü. Ön tərəfdə səhnə vardı, musiqi qrupu ifa edirdi. Aparıcı qızları bir-bir səhnəyə çıxarırdı, onlar da rəqs edirdilər. Atam əlini mənim əlimin üstünə qoymuşdu. Bir qədər sonra aparıcı saçını keçi formasında yığmış, ağ gipürlü gözəl qırmızı kofta geymiş bir qızı səhnəyə dəvət etdi. O qız, əlbəttə, mən idim. Atam yavaşca mənim əlimi sıxdı. Bildim ki, getməməliyəm. Başımı aşağı salıb utancaq qızları yamsıladım. Aparıcı da gülüb dedi: "Eybi yox, bizim keçi xanım səhnədə oynamağa utanır!" Bu zaman atam mənim əlimi öpdü.

Tədbirin sonunda qalxıb zaldan çıxdıq. Mən anamla atamın zabitlər klubunda rahat olmadıqlarını hiss edib soruşdum: "Ləya mama, biz niyə bura gəlirik?" Anam dedi: "Bura zabitlər klubudur. Atan da zabitdir. Onun işinə görə arabir buraya gəlməyə məcburuq".

Bir neçə il ötdü, nəhayət, Ləya mama yapışqan tutlardan, böyük həyətimizi və evimizi təmizləməkdən qurtuldu. Çox vasvası olduğuna görə həyətli evdən Sərdadvər xiyabanına bina evinə köçdük. Sakit bir xiyaban idi, sıx yaşıl ağacları vardı. Xiyabanın bir tərəfində, Nur məscidinin arxasında ordunun binaları yerləşirdi, tikanlı məftillərlə hərbi hissədən ayrılırdı. Anam oraya köçdüyümüzə görə çox sevinirdi; həm işi azalmışdı, həm də Xorasan diviziyasının başqa şəhərlərdən gəlmiş hərbçi ailələrinə qonşu olmuşduq.

Evimizdə üç yataq və bir böyük qonaq otağı vardı. Mətbəx mebeli yığılmamışdı. Əlüzyuyanın yanında iki taxça vardı, altına və üstünə mətbəx əşyaları qoyulurdu. Üç yataq otağından biri qonaq otağı oldu, Ləya mama

mavi rəngli dəmir stul və stolları – o zaman bunlar divan-kreslonu əvəz edirdi – qonaq otağına yerləşdirdi. Digər iki otağın biri uşaqların oldu, biri də özüylə atamın.

Hər gün sübh çağı böyük bacılarım Zəri ilə Əşrəf naxış alətlərini hazırlayırdılar. Onların ətrafı naxışla bəzənmiş yastıqcıqlarla, parça, ütü və bu kimi əşyalarla dolu olurdu. Evi süni payızgülü və qladiolus gülləri ilə bəzəyirdilər. Ləya mama da kiçik balkonu şamdangülü dibçəkləri ilə doldurmuşdu. Qonşular belə zövqlü bir ailənin haradan gəldiyi ilə maraqlanır, xoşgəldin bəhanəsi ilə evimizə gəlirdilər.

Bu ev mənimçün də həyəcanlı idi. Küçəmiz balaca uşaqlarla dolu olurdu. İlk dəfə idi özümlə yaşıd dostlar tapmışdım. Fatiməni, Şəhini və Əfsanəni heç vaxt yadımdan çıxarmaram. Onlar da mənim kimi dəcəl idilər. Çox vaxt klas-klas oynayırdıq. Bəzən də oğlanlar kimi hərbi hissənin tikanlı məftillərindən keçib bizə maraqlı gələn bir neçə tanka və zirehli maşına yaxınlaşmaq fikrinə düşürdük.

Gəlişimizdən bir neçə ay ötməmiş ətraf xiyabanlarda qeyri-adi hərəkətlilik başlandı. Biz uşaqlar cərgəylə düzülüb təəccüblə baxırdıq. Diviziya dördyolunda və məqbərəyə gedən xiyabanlarda üzərləri ayna ilə işlənmiş böyük zəfər tağları qururdular. Onlardan rəngli şüşə və lampalar da asılırdı. Altından keçəndə sanki əfsanəvi bir darvazadan keçirdin. Xiyabanların ortasında yerləşən, qısa və uzun fəvvarələri olan hovuzlar da hamının diqqətini cəlb edirdi. Xiyabanlardan dəstələr keçirdi; rəngli parça və güllərlə bəzədilmiş üstüaçıq avtobuslarda heyvan görüntülü paltarlar geymiş insanlar qəribə musiqilərlə rəqs edir, mayallaq aşır, oyun çıxarırdılar. Onların hərəkətləri biz uşaqları güldürürdü.

Axşamlar göyə fişəng atırdılar. Fişənglər səmada açılanda maraqlı forma və rənglərə düşürdü. Mən o vaxta qədər belə şey görməmişdim, nə baş verdiyini, bu bayramın nə üçün olduğunu bilmirdim. Sonra atamın sözlərindən anladım ki, bu şənlik şahın tac qoymasına görədir və bunları Avropa ölkələrindən gətiriblər. Atam deyirdi: "Məşhəd əhalisi dindardır, camaatın çoxu çətinliklə dolanır. Bu qədər bahalı və təntənəli bayramlar onlar üçün başadüşülən deyil". Hər halda, biz uşaqlar üçün hər şey əfsanəvi idi və nağıla bənzəyirdi.

Varlı ailə deyildik, amma Ləya mamanın zövqü və idarəçiliyi sayəsində yaxşı yaşayırdıq. Mən az pulla necə şən yaşamağı Ləya mamadan öyrənmişəm. O, şıq geyinirdi, özünə baxırdı, saçını Koleston boyası ilə rəngləyirdi. Onun gündüz geydiyi paltarla yatağına getdiyini heç vaxt görməmişəm. Rəngarəng və gözəl naxışlı yataq paltarları vardı. Mən onları sevirdim. Bizi də çox yaxşı geyindirirdi. Hesab-kitabında dəqiq idi, maddi baxımdan bir qədər müstəqil hərəkət edirdi. O, qadınların maddi baxımdan kişilərdən asılı olmamasının tərəfdarı idi. Buna görə bacılarımı həvəsləndirirdi ki, dərs oxuyub işləsinlər.

Atam anamı çox sevirdi. Bunu onun baxışında və rəftarında görürdüm. Hər hansı məsələdə fikir ayrılıqları olanda adətən atam dinmirdi ki, anam sözlərini deyib sakitləşsin.

Bir dəfə Ləya mama xəstələnib bir ay xəstəxanada yatdı. Atam bütün bir ayı onun yanında qaldı. Bacılarım nə qədər israr etsələr də, evə gəlib istirahət etmədi. Səhərdən günortaya qədər hərbi hissəyə gedir, günorta oradan birbaş xəstəxanaya yollanır və səhərədək orada

qalırdı. Anamdan sonra atam xəstələndi. Onda ürək revmatizmi vardı.

Ələddinin on altı yaşı vardı. O, çox kitab oxuyurdu və bu, mənə çox təsir edirdi. Məndən təxminən altı yaş böyük idi. Mən ibtidai siniflərdə oxuyanda mənim üçün "Uşaq keyhanı" jurnalını, "Yaxşı uşaqlar üçün yaxşı nağıllar" kimi kitabları gətirirdi. O, Cami və Gövhəri kitabxanalarına üzv olmuşdu. Üç ay yay tətili başlayanda bir torba kitab gətirib önümə qoyurdu. Boş-boşuna vaxt öldürəndə məni bir kənara çəkib zaman, həyat, uşaqlıq və yeniyetməlik yaşlarında düzgün inkişaf etməli olan şəxsiyyət barədə ən azı bir saat danışırdı. Bu barədə o qədər danışmışdı ki, oturub Ləya mamanın parça üzərində düzəltdiyi naxışlara baxanda da vicdan əzabı çəkirdim, düşünürdüm ki, hər bir boş vaxtımdan istifadə edim və dərslərim bitdikdə bədii kitab oxuyum.

Mənim yaraşıqlı və ciddi Ələddin dadaşım bir neçə ay xəstəxanada yatdı. O, evə buraxılandan sonra atamın fikirli olduğunu hiss edib ondan soruşdum:

– Ata, fikirlisən; nə düşünürsən?

Güldü, yanağımdan öpüb:

– Hardan bildin? – dedi.

– Bəllidir.

– Hə, qardaşının xəstəliyinə görə. O ən azı beş-altı ay vaxtının çoxunu evdə keçirməlidir. Bütün bu müddətdə kitab oxuya bilməz. Gərək onun üçün bir məşğuliyyət tapaq.

Beləliklə, 1972-ci ildə evimizə televizor gəldi. Cəmi bircə kanal vardı, axşamüstü saat 5-dən axşam saat 10-11-ə qədər verilişlər olurdu. Bizim üçün qəribə və maraqlı aləm idi.

Ələddinin dostları həftədə bir-iki gün ona dərs bülletenləri gətirirdilər. O, Məşhədin İbn Yəmin liseyində təhsil alırdı. Məşhur lisey idi, doktor Şəriəti[1] kimi şəxsiyyətlər orada təhsil almışdılar. O, xəstəlik dönəmində dərs oxuyub qiyabi imtahan verdi, sinif yoldaşlarından geri qalmadı. Kitab da oxuyur, istirahət zamanında televizora baxırdı. Qızdırma, oynaq ağrısı və nəfəs darlığı ilə mübarizə aparırdı, rənginin sarılığı və həddən artıq arıqlaması xəstəliyin necə güclü olduğundan xəbər verirdi. Lakin mən onun ah-ufla özünü və ailəsini yorub depressiyaya saldığını görmədim. Yaxşı yadımdadır, həmin il anamın xəstəliyi və dözümlülüyü, sonra da qardaşımın xəstəliyi mənim əzab qarşısında səbir və dözümə hədsiz dəyər tanımama səbəb oldu. Yeniyetmə çağımın idealist dünyasında onlar kimi güclü və möhkəm olmağı, ağır şəraitdə soyuqqanlılığımı qorumağı arzulayırdım.

Yanılmasam, mən beşinci sinifdə oxuyanda ordunun Xüsusi idarəsinin əmri ilə atam Zəncana göndərildi. O, bəzi Məşhəd ruhanilərinin gizli iclaslarında iştirak edirdi. Bir dəfə də özündən yüksək rütbəli iki sərxoş zabitlə dalaşmışdı. Ləya mama deyirdi: "Onu köçürmədilər, sürgün etdilər. Atan bayramlarda iştirak etmədi, zabitlər klubuna getmədi, şahı və hökuməti tərifləmədi, axırda bizi bu kiçik şəhərə göndərdilər".

Məşhəd bizim üçün hər şey idi. Oranı tərk etməyə məcbur olduğumuza inana bilmirdik. Mindiyimiz qatar hərəkətə başlayanda kupenin pəncərəsindən məqbərənin günbəz və minarələrini gördük. Ləya mama əli sinəsində

---

[1] Doktor Əli Şəriəti 1933-cü ildə Məşhəddə dünyaya gəlmişdi. Sosioloq, din tədqiqatçısı və inqilabdan öncəki dövrün dini-siyasi fəallarından olan Şəriəti 1978-ci ildə vəfat etdi.

dayanıb türkcə rövzə oxudu, hamımız ağlamağa başladıq. Taleyin bizi haraya apardığını bilmirdik.

Zəncan şəhərinə çatanda heyrət içindəydim. Böyüdüyüm şəhərlə müqayisəolunası deyildi. Mən o vaxta qədər Zəncanı görməmişdim. Bir neçə sakit xiyabandan və palçıq evlərdən ibarət balaca bir şəhər idi. Xiyabanlarda bir-birindən aralıda yerləşən köhnə dükanlar görünürdü. Yollardan arabir bir-iki taksi və ya mülki avtomobil keçirdi. Şəhərdaxili avtobus yox idi. Qadınların hamısı hicablı idi, barmaqsayı hicabsız vardı. Həyəcanlı idim. Bilmirdim ki, bu şəhərdə yaşaya biləcəyik, ya yox.

Şəhərə çatandan sonra tanınmış ruhanilərdən olan hacı əminin evinə getdik. O, atamla anamın əmisi idi. Çox mehriban və ürəyiyumşaq adam idi. Evə girəndə atamla anamı yaşlı gözlərlə qucaqlayıb dedi: "Allaha şükür ki, ölmədim, Ləya ilə Mirziyanı bir də gördüm". Biz uşaqları da öpüb əzizləyirdi.

Böyük ev idi, həyətdə yeddi-səkkiz otaq və bir tövlə vardı. Evə çoxlu qonaq gəlib-gedir, atlarını tövləyə bağlayırdı. Otaqlarda kürsü sobası vardı, həyətin ortasındakı böyük hovuzun yanında kömür manqalları qatar kimi düzülmüşdü. Yalnız bir otaqda odun sobası vardı. Odunu həyətdə qırıb sobanın yanına yığırdılar. Bir otaq yalnız yorğan-döşək üçündü. Ora üst-üstə, bəlkə də, yetmiş dəstdən çox yorğan-döşək yığılmışdı. İki mətbəx vardı: biri qonaqlara xörək bişirmək üçün həyətə yaxın böyük mətbəx idi, biri də əminin öz ailəsinin içəridə yerləşən kiçik mətbəxi.

Bu evin hər şeyi mənə qəribə gəlirdi. Əslində, biz də zəncanlılara qəribə görünürdük: farsca danışırdıq, hətta məndə Məşhəd ləhcəsi vardı. Yeməkdən öncə əllərimi yumaq üçün su və sabun axtarırdım. Kalqotkamla dəst

olan ütülü paltarlar geyirdim. Bacılarım orduda və bilik korpusunda işləyirdilər.

Bir gün Ləya mamanın ağlaya-ağlaya atama belə dediyini eşitdim: "Əgər hökumətlə bir qədər yola getsəydin, dikbaşlıqdan əl çəksəydin, Zəncana sürgün edilməzdik. Dünən təsadüfən eşitdim, deyirdilər ki, yazıq Musəvinin pulu yoxdur, qızları işləyir!"

Qızla oğlan arasında bu qədər fərq mənə qəribə gəlirdi. Əminin oğlanları təhsil almışdılar, işləyirdilər. Böyük oğlu Tehran universitetində fizika oxumuşdu, deyirdi ki, bir vasitə ilə Eynşteynin tələbəsi sayılır.[1] Qızlarsa hicablı idilər, böyüyər-böyüməz tez ərə getməli və ana olmalı idilər.

Atam Ləya mamanın narahatlığını görüb bir həftə çəkmədən Sədi xiyabanında ev kirayələdi. O ev də mənim üçün sirli idi. Böyük həyəti, iri ağacları, dörd bağçası və beş otağı vardı. Hər otaqda gözəl taxçalar və böyük şkaflar düzəldilmişdi.

Bizim yerləşməmizdən bir müddət sonra qardaşım Ələddin Tehran universitetinin əkinçilik mühəndisliyi fakültəsinə daxil olub getdi. Ailənin yeganə oğlunun uzaqlaşması Ləya mamaya Zəncan həyatını daha da çətinləşdirdi. Ələddinin gedişindən bir həftə sonra qapı döyüldü. Ləya mama ildırım kimi yerindən qalxdı. Rəngi ağappaq ağardı, az qala özündən gedəcəkdi. Mən qaçıb qapını açdım. Atam idi. Ləya mama ağlamağa başlayıb dedi ki, bu şəhərdən, bu evdən, bülbül səsli zəngin yerinə adi cəftəli taxta qapıdan yorulub və Məşhədə getmək istəyir. O deyirdi: "Sən bizi buraya gətirməməli idin. Gərək mən uşaqlarımla Məşhəddə qalaydım, özün

[1] O, professor Hesabinin tələbəsi idi.

gələydin, təqaüdə çıxandan sonra da Məşhədə qayıdaydın".

Atam yarım saat sakit qaldı, sonra anamın başını tumarlayıb dedi: "Əmiqızı, sakitləş. Biz bir ailəyik, bir-birimizdən ayrı qalmamalıyıq. Yavaş-yavaş alışacaqsan".

Ləya mama razılaşmır, ürəkdən sızlayıb deyirdi: "Mən heç vaxt buraya alışmayacam. Məşhəd üçün darıxıram".

Bir neçə gündən sonra atam Tehrana qatar bileti aldı, orada da Məşhəd qatarına minib getdik. Qatarların oturacaqları taxtadan idi, uzun yolu daha da çətinləşdirirdi.

İki həftə Məşhəddə qaldıq. Atam məqbərənin yaxınlığında əşyalı kiçik bir ev kirələdi ki, Ləya mama rahat olsun və bir qədər sakitləşsin. İlk bir ildə işimiz bundan ibarət oldu: Ləya mamada sinir narahatlığı yaranır, o tez-tez ağlayırdı. Atam da tez bilet alırdı, bir-iki həftə Məşhəddə məqbərənin yaxınlığında qalıb, Ləya mama bir qədər sakitləşəndən sonra Zəncana qayıdırdıq.

Nəhayət, bir ildən sonra Ləya mamanın halı yaxşılaşdı, tez-tez Məşhədə getməkdən əl çəkdi. Biz də get-gedə Zəncan həyatına öyrəşsək də, onun qışına və iliyə işləyən soyuğuna alışa bilmirdik.

Bəlkə də, on beş yaşım olardı. Yaxşı yadımdadır, payızın sonlarında soyuq bir səhər idi, Ləya mamanın toxuduğu yaşıl rəngli qəşəng yun jaketimi geydim, güzgünün önündə dayanıb sağa-sola çevrildim. Uzun qara saçım jaketin üstündə yellənirdi, güzgüdə özümə baxıb gülürdüm.

Birdən yandakı otaqdan Ləya mamanın ağlamaq səsi gəldi. Əlimdəki kitabı yerə qoyub onun yanına qaçdım.

– Niyə ağlayırsan? – dedim.

– Niyə ağlamayım?! Canımın parçasından xəbərim yoxdur. Ələddin bilir ki, ondan ötrü narahatam, ondan

nigaran qalıram. Həftəsonu Zəncana gəlməyəndə zəng vurub xəbər verirdi. İndi isə bir aydır ki, nə zəng vurub, nə də gəlib.

Zəhra səhərdən axşama qədər ordunun xəstəxanasında işləyirdi. Əşrəf də Mahnişan adlı uzaq bir kənddə müəllim idi, ayda cəmi bir dəfə evə gəlirdi. Anamın yanında yalnız Arzu ilə mən qalmışdım, evin sakitliyi onu kövrək etmişdi. Həmin gecə atam söz verdi ki, ertəsi gün işdən gələn kimi Ələddindən xəbər öyrənməyə getsinlər.

Ertəsi gün günortadan sonra, atamla anam Tehrana getməzdən öncə qapı döyüldü. Ələddin idi. Mən təəccübümdən salam da vermədim. Ləya mama ikiəlli başına vurub dedi:

– Nə olub, oğlum? Niyə bu hala düşmüsən?

Atam Ələddini öpüb:

– Niyə bu qədər arıqlayıb saralmısan? Xəstəliyin qayıdıb? – deyə soruşdu.

Ələddin suallardan yayınmağa çalışdı, tez otağa girib dedi:

– Yox, bir şey yoxdur. Bir neçə gün idi soyuqlamışdım, qızdırmaya görə arıqlamışam. Bir qədər istirahət edib Ləya mamanın xörəklərindən yesəm, yaxşılaşacağam.

Ələddinin hərəkətləri qəribə olmuşdu. Evdən bayıra çıxmır, atama deyirdi ki, məni soruşan olsa, qayıtdığımı söyləmə.

Məsələnin nə yerdə olduğunu öyrənmək istəyirdim. Hara gedirdisə, ona göz qoyurdum. Bir gün otağında əynini dəyişdirirdi. Mən pəncərədən yavaşca baxıb gördüm ki, bütün sinəsi və kürəyi yaradır. Məncə, qamçı yarası idi. Qorxdum, dərhal otağa qaçıb dedim:

– Dadaş, nə olub? Başına nə gəlib?

Əli ilə ağzımı tutub:

– Sus! – dedi, sonra otağın qapısını bağlayıb əlavə etdi: – Bu barədə heç kimə bir söz deməyəsən! Bu bir ayda xəstə deyildim, Tehranda həbsdə idim. SAVAK məni tutub universitetdən bir neçə nəfərlə birlikdə İğtişaş Əleyhinə Müştərək Komitəyə aparmışdı.

– Nə üçün? Məgər sən iğtişaşçısan?

– Onlara görə, hə. Biz şah rejimini istəmirik. Biz Ayətullah Xomeyninin tərəfdarıyıq, gərək onun İrana qayıtması üçün bir iş görək. Fəxri can, məbada Ləya mamaya bir söz deyəsən ha! Bilirsən ki, necə həssasdır; çox narahat olar.

Ələddin həyəcanlı idi. Əlini tutub dedim:

– Arxayın ol, dadaş can. Nə qədər ki sağam, ona bir söz demərəm. Elə bilirsən ki, sənin qamçılandığını, işgəncə olunduğunu bilsə, qüssədən huşunu itirəcəyini bilmirəm?!

– Afərin, ağıllı qız! – əlimi sıxıb dedi. Arxayın oldum.

Çantasını götürüb içindən bir neçə kitab və broşür çıxardı, otağın yerinə töküb mənə dedi:

– Gəl, bunlara bax.

Həm kitab idi, həm də surəti çıxarılmış bülleten və bəyanatlar. Gözümə dəyən başlıqlar bunlar idi: "Hə, beləydi, qardaş”, doktor Əli Şəriəti; “İslam əhatəsində”, Seyid Qütb; “Ziyalıların xidmət və xəyanəti”, Cəlal Ali-Əhməd və s. Onların bir neçəsini ayırıb mənə verdi:

– Bunları oxu, – dedi, – inandığın adamlara da ver, oxusunlar. Amma ehtiyatlı ol, bəzi adamlar asanlıqla xəbərçilik edirlər.

Həmin gün mənim üçün qəribə gün oldu. Ayətullah Xomeyninin şəklini ilk dəfə onda gördüm. Qardaşımın kürəyində qamçı izlərini görəndə özümü səhrada susuzluqdan can verən adam kimi hiss edirdim. Bilmək

istəyirdim ki, hökumət nə üçün yaxşı, vicdanlı və istedadlı bir insanı qamçılamışdır.

Kitab və bülletenləri ən əziz adamım kimi qucaqlayıb kiçik kitab şkafımın altında gizlətdim. O zaman "Kəpənək qalstuk"[1] kitabını yeni bitirmiş, kitabxanadan "Ovod"[2] romanını götürmüşdüm. Elə həmin gün onu aparıb kitabxanaya təhvil verdim. Əlimdə dəyərli qənimət vardı, tezliklə oxuyub öyrənməli idim: İslam dininin ictimai-siyasi prinsipləri.

---

[1] Fransız yazıçısı Henri Şariyer tərəfindən yazılmış roman.
[2] İrlandiyalı yazıçı Etel Lilian Voyniçin romanı.

# İkinci fəsil

Dadaş Ələddinin macərasından sonra mən əvvəlki Fəxri deyildim. Ürəyimə qəm-kədər çökmüş, həyatın mənası dəyişmişdi. Hiss edirdim ki, özüm və gecə-gündüzüm üçün uca bir məqsəd seçməliyəm.

Həmin dönəmdə bir gün məktəbdən evə gələndə Ləya mama xoş xəbər verəcəkmiş kimi təbəssümlə yanımda oturdu.

– Nə olub, ana? – dedim.

– Fəxri, sən böyük və gözəl qız olmusan, gərək özünə daha yaxşı baxasan. Amma görkəminə fikir vermirsən. Sənə bu qədər qəşəng paltar alıram, amma həmişə manto və yaylıq geyirsən.

– Vay, Ləya mama, yenə başlama. Mən belə rahatam. İnşallah, vaxtı gələndə aldığın paltarları da geyərəm.

– Vaxtı nə zaman gələcək? Səhərdən axşama qədər başın bu kitabların içindədir. Ələddinlə sən axırda başınıza bir bəla açacaqsınız.

Qalxıb getmək istəyəndə əlimdən tutub qoluma bir qızıl qolbaq taxdı. Təəccübdən yerimdə qurudum. Tez qolbağı çıxarıb taxçanın üstünə qoydum.

– Nə edirsən? - Ləya mama soruşdu.

– Qolbağı neyləyirəm?!

– Qızın qızılı olmalıdır. Sən ata evində qızıl taxmalısan ki, sabah ər evində başın uca olsun.

Onun nə dediyini, həqiqətən, başa düşmürdüm. Narahat halda dedim:

– Axı bu nə sözdür?! Belə bir zərurət yoxdur. Qızıl üstünlük gətirmir.

Ləya mamanın gözləri doldu. Həssas idi; sözünə baxmayanda tez ağlayırdı. Dedi:

– Niyə gətirmir?! Sən belə şeyləri anlamırsan. Mənim günahımdır, səni özbaşına buraxmışam. Qorxuram ki, bu xarakterlə ailə qurandan sonra problem yaşayasan.

Qarşısında oturub əlindən öpdüm.

– Hələ mənim ailə qurmama çox var. Zəri təzə evlənib. Mənim növbəmə hələ qalıb, narahat olma! – dedim.

***

Din müəllimənmiz xanım Muxtarzadə sinifdəki sual-cavablardan kitab oxuduğumu bilirdi. Bir gün dərsdən sonra məni çağırıb dedi:

– Bilirəm ki, vaxt tapanda kitab oxuyursan. Bu yaşda görəcəyin ən yaxşı işdir. Biz birlikdə daha çox söhbətləşə bilərik.

– Din müəllimimin məni özünə həmsöhbət hesab etməsi mənim üçün çox dəyərlidir, – deyə təşəkkür etdim.

Həqiqətən də, elə idi. O zaman müəllimlər şagirdləri üçün güc, uğur və bilik nümunəsi idilər. Şagird tənəffüs zamanı bir müəllimlə addımlayıb söhbətləşəndə özünü digərlərindən bir pillə üstün bilirdi.

Xanım Muxtarzadə dedi ki, fəlsəfə ixtisası üzrə təhsil alıb.

– Nə barədə mütaliə edirsən? – deyə məndən soruşdu.

– Mən yeddi-səkkiz yaşımdan kitab oxumuşam; daha çox bədii ədəbiyyat. İndi isə bir müddətdir İslam fəlsəfəsi, ictimai və siyasi mövzulara marağım artıb.

– Afərin! – xanım Muxtarzadə dedi. – Sən ömrünün bahar çağını hədər etməyən, seçimli və düşüncəli insan olmaq istəyən adamlardansan.

Ürəkdən güldüm. Başa düşülməyin həzzi ruhuma təravət bəxş etdi. Dedim:

– Tamamilə doğru deyirsiniz. Siz insanları necə də yaxşı tanıyırsız! Həqiqətən, düşünürəm ki, indi on beş yaşımdayam, düşüncələrimi və həyat tərzimi seçməyə ən əlverişli zamandır. Siz bunu hardan bildiniz?

– Bu, çox sadədir; çünki səndə özümü gördüm. Mən də sənin kimi idim. Elə buna görə universitetdə fəlsəfə ixtisasını seçmişdim.

Oxuduqlarım barədə söhbət etməyi çox istəyən xanım Muxtarzadə ilə dostluq mənimçün bir imkan idi. Mən yeniyetməlik illərində yaranan bütün şübhələrin, nihilist düşüncələrin cavablarını İslam maarifində və fəlsəfəsində tapmışdım, İslamı çox təəssübkeşliklə müdafiə edirdim.

Xanım Muxtarzadə dedi:

– Yolunu tapdığını və İslam fəlsəfəsinin suallarına cavab verdiyini hiss etmən yaxşıdır. Lakin sabah kimsə qarşında dayanıb: "Kant belə deyir; Ekzistensializm məktəbini oxumamısan; Marksizm dinə qarşı bu fikirdədir" desə, nə cavab verəcəksən? O zaman hətta belə bir adamdan uzaqlaşsan da, daxilində bunları bilmədiyinə görə zəiflik hiss edəcəksən.

– Nə təklif edirsiniz? – Haqlı olduğunu görüb soruşdum.

– Mən arabir universitet bülletenlərimi gətirərəm, oxuyub Qərb fəlsəfəsi ilə tanış olarsan. Harada qaranlıq yaransa da, birlikdə müzakirə edərik.

O günlərdə sevindiyimdən yerə-göyə sığmırdım. Dadaş Ələddinə deyirdim ki, bilmirəm, nə yaxşı iş görmüşəmsə, Allah həyat yolumu tanımaq üçün qarşıma belə insanlar çıxarır.

Dadaş Ələddin təhlükəsizlik qurumundakı qara qovluğuna baxmayaraq, universitetin əlaçı tələbələrindən olduğuna görə 1977-ci ildə universiteti bitirib tütün zavodunda işə başladı, ixtisas və bacarığına görə qısa müddətdə şirkətin tütün və tənbəki mexanizasiyasına rəhbərlik etdi. Vəzifəsi və maaşı yüksək idi. Lakin bir il ötmədən yenə şah rejiminə qarşı fəaliyyətinə görə həbs olunub işini itirdi. Yavaş-yavaş Ləya mama da Ələddinin inqilabi fəaliyyətlərin içində olduğunu bildi. Əlbəttə, Tehranda və Kərəcdə nə etdiyini çox da bilmirdik, tələbə hərəkatları yaratmaqda aktiv rolunu sonralar öyrəndik.

1978-ci ilin ilk aylarında ölkənin müxtəlif bölgələrində şah sisteminə qarşı ümumxalq etirazları başlandı. Qum və Təbrizdə aksiyalar oldu, sonra bu etirazlar digər şəhərlərə, o cümlədən Zəncana keçdi. Ruhanilər məktəblərdə çıxışlar edirdilər.

Mən o zaman təsirli bir yuxu gördüm: Çox gözəl bir bağın içində bir məscid vardı, amma məsciddən və bağdan kənarda biyabanlıqdan başqa bir şey görünmürdü. Mən məscidin içinə girdim. Əzəmətli məscid idi. Nə qədər irəliləyirdimsə, axırına çatmırdım. Uzaqdan Quran oxuyan gözəl bir səs eşitdim. Səsə doğru getdim. Əlində Quran olan nurani, yaraşıqlı və ucaboy bir kişi gördüm. Yuxuda

hiss etdim ki, o, həzrət İbrahim (ə) peyğəmbərdir. Məscidin bir küncündə həzrət Zəhranın (ə) və iki oğlu İmam Həsənlə İmam Hüseynin (ə) cənazələrini gördüm, yan-yana uzatmışdılar. Qana bələşmiş minlərlə insan bu müqəddəs cəsədləri dövrəyə almışdı. Nizə başında gülümsəyən başları da gördüm. Yuxudan oyananda bütün vücudum titrəyirdi, üz-başımda soyuq tər vardı. Yuxumu dadaş Ələddinə danışanda fikrə getdi, sonra dedi: "Mənim əziz bacım, məlumdur ki, bütün vücudun Allaha və Allahın dininə eşqlə doludur ki, belə bir yuxu görmüsən. Bütqıran İbrahim - bütqıran Xomeynidir, amma o biriləri bilmirəm. Allah xeyrə calasın!"

1978-ci il sentyabrın əvvəlləri idi. Yaxşı xatırlayıram ki, doktor Əli Şəriətinin "Ümmət və imamət" kitabını oxuyurdum. Atamla anam həyətdəydilər. Bu zaman bir neçə nəfər həyət qapısını təpiklə döyməyə başladı. Birdən qapılar taybatay açıldı və şah qvardiyasından bir neçə nəfər içəri girdi. Atam onlara yaxınlaşıb etiraz edəndə yumruqla sinəsindən vurub evə girdilər. Tez kitabı xalçanın altına qoyub üstündə oturdum. Ayağa qalxıb başıma çadra atmağa belə macal tapmadım.

Hərbçilər çəkmə ilə xalçaların üstündə gəzib bütün evi bir-birinə vurdular. Atam tez-tez etiraz edib deyirdi: "Mən özüm hərbçiyəm, məhkəmə qərarı olmadan sizin evimə girməyə haqqınız yoxdur".

Ucaboy bir zabit atamın önündə dayanıb dedi: "Bəs sən necə hərbçisən ki, öz əllərinlə ilan böyütmüsən?! De görək, oğlun hardadır?" Atam dedi ki, bilmirəm.

Xoşbəxtlikdən, nə qədər axtardılarsa, bir şey tapmadılar. Ələddin kitab və bülletenləri həyətdəki quyuda gizlətmişdi. Onlar etirazla və hay-küylə getdilər, dedilər ki, yenə gələcəyik.

Atam hərbçilərin sındırdığı qapını iplə bağladı, həyətdə oturub ağlayan anama təskinlik verməyə başladı.

Bu hadisədən iki saat ötməmiş qardaşım gəldi. Həyəcanlı idi, tələsirdi. Ləya mamaya dedi: "Hazır yeməyin var?"

Ləya mama onun üz-başını tumarlaya-tumarlaya: "Sən nə işlərlə məşğulsan?" – dedi və boşqabına bir neçə kotlet çəkdi. Atam qorxu və təşvişlə dilləndi: "Niyə bura gəldin? Qvardiya səni axtarır".

Ləya mama ağlaya-ağlaya çantasına iki dəst paltar, dəsmal, badam və püstə qoyub Ələddinə verdi. Atam nərdivanı gətirib onu damdan qaçırtdı.

Ələddin atamla anamın tək oğlu, gözlərinin işığı idi. İstədiyini edə bildiyinə görə hərdən ona qibtə edirdim. O hətta Ləya mamanın qəm-qüssə çəkməsindən də narahat olmurdu. Ata-anam ondan nigaran qalırdılar, amma yolunu dəyişdirməli olduğunu söyləmirdilər. Atam həmişə həyəcanlı idi, deyirdi ki, Ələddinin ordunun əks-kəşfiyyat idarəsi tərəfindən axtarıldığını bilirəm. Həmin günlərdə evlərdə böyük həyəcan vardı, bizdə isə daha çox.

Ondan sonra Ələddin bir müddət evə gəlmədi. Onu məscidlərdə və ara-sıra şəhərdə baş tutan yürüşlərdə görüb anama deyirdim ki, narahat olma, yaxşıdır, azadlıqdadır.

Hər şeyin dəyişməkdə olduğunu hiss edirdim: fikirlərim, arzularım, yuxum, yeməyim və geyimim. Mənim geyimim bir cüt kətan ayaqqabıdan, bir sadə manto-şalvardan və çənəmin altında düyünlədiyim krem rəngli uzun bir yaylıqdan ibarət idi. Daha əvvəlki şıq və rəngbərəng paltarlardan, Ləya mamanın mənə aldığı və sevə-sevə geydiyim çanta və dikdaban ayaqqabı dəstindən əsər-əlamət yox idi. Qaça-qaça bir məsciddən o birinə, bir çıxışdan o birinə gedən qız olmuşdum. Bu yolda bələdçim

qardaşım Ələddin idi. O, çıxış, toplantı və yürüşləri planlaşdıran və icra edən adamlardan idi. Adətən işin ən təhlükəli hissəsini, yəni tribuna arxasına keçib şüar söyləməyi və bəyanat oxumağı özü icra edirdi. Hara gedirdisə, mən də iştirak edirdim. Bəzi inqilabi şeir və şüarları özü yazırdı. Gözəl ağ şeirlər yazırdı, mən hamısını əzbərləyib bəzi məclislərdə oxuyurdum.

Həmin günlərdə Ləya mamanın rahatlığı yox idi, mənə və qardaşım Ələddinə görə narahat idi. O deyirdi: "O biri üç qızdan arxayınam: Zəri ordudadır, başqa cür hərəkət edə bilməz. Əşrəf kənddə müəllimədir, ayda bir dəfə şəhərə ya gələ, ya gəlməyə. Arzu da hələ uşaqdır. Amma siz iki nəfər məni həyəcandan öldürəcəksiniz!"

Yaxşı xatırlayıram, bir dəfə Seyid İbrahim imamzadəsinin yaxınlığında yürüş iştirakçıları ilə qvardiya arasında toqquşma baş verdi. Atəş açıldı, gözyaşardıcı qazlar gözlərimi o qədər yandırdı ki, heç bir yeri görmürdüm. Çətinliklə özümü poçt idarəsinin sürahilərinə yetirib oradan içəri hoppandım. Binanın qapıları açıq idi. Digərləri ilə birlikdə tez zirzəmiyə girib gizləndik. Bir kişi gözlərimin vəziyyətini görüb cibindən siqaret çıxardı, yandırıb mənə sarı tutdu. Təəccübləndim. Dedi: "Xanım qız, siqareti sor, tüstüsünü gözlərinə doğru üfür ki, yandırmasın". Ləya mama evdə qəlyan çəksə də, mən o vaxta qədər dodağıma belə bir şey vurmamışdım. Siqareti aldım, ilk qullabda tüstü boğazıma getdi, o qədər öskürdüm ki, kişi siqareti məndən aldı.

Bir saatdan sonra vəziyyət nisbətən sakitləşdi. Qardaşım Ələddinə görə narahat idim. Axırıncı dəfə onu mikroavtobusun üstündə şüar deyəndə görmüşdüm, ondan sonra da atəş açılmışdı.

Bir-bir zirzəmidən çıxdıq. Mənim növbəm çatanda xiyabana baxdım. Hələ yaxşı görmürdüm. Birdən bir qaraltının qarşıdan mənə doğru gəldiyini hiss etdim. Diqqətlə baxanda gördüm ki, qvardiya hərbçilərindəndir. Fəsahəti küçəsi ilə qaçmağa başladım. Kətan Çin ayaqqabıları ilə və xırda cüssəmlə elə qaçırdım ki, mənə çatmırdı. Növbəti küçəyə burulub dərhal özümü qapısı açıq olan bir həyətə atdım və qapını bağladım. Pilləkəndə bir qarı oturmuşdu, mat-məəttəl gözlərini mənə zilləyib baxırdı. Ürəyim bərk döyünürdü. Küçədən hərbçinin ayaqlarının səsi gəlirdi. Qarı məsələnin nə yerdə olduğunu bilib dedi: "Qızım, sən niyə bu işlərə qoşulursan? Sən indi evdə ananın yanında olmalısan. Gəl içəri, bunlar gedəndən sonra çıxarsan".

Xülasə, yarım saatdan sonra qarı küçəyə boylanıb məni yola saldı. Ara küçələrlə özümü evə yetirdim. Ləya mama həyətdə var-gəl edirdi. Məni görən kimi əlini göyə qaldırıb Allaha şükür etdi, titrək səslə soruşdu: "Qardaşından xəbərin varmı?" Yaxınlaşıb yavaşca üzündən öpdüm, dedim ki, inşallah, gələcək.

Günbatan çağı Ələddin gəldi. Əlində bir çanta vardı.

– Bu nədir? – deyə soruşdum.

– Slayd aparatı.

– Bununla nə edəcəksən?

– Bunu Əmirəlmöminin məscidində Hacı ağa Ələviyə vermək istəyirəm ki, 8 sentyabrda Tehranın Jalə meydanında insanların öldürülməsinə dair şəkilləri camaata göstərsin. Lakin bunu necə edəcəyimi bilmirəm. Mən məscidin ətrafında görünməməliyəm.

– Ver, mən aparım, – əminliklə dedim. – Özüm də şəkillərə baxmaq istəyirəm.

Narahat halda mənə baxıb dedi:

– Yox, olmaz! Sən balacasan, başına bir iş gəlsə, ata-anama nə cavab verərəm?!

Çadramı başıma atdım, çantanı əlindən alıb dedim:

– Heç nə olmayacaq! Elə balaca olduğuma görə heç kim məndən şübhələnməz.

Qorxa-qorxa çantanı verdi, məni qapıya qədər ötürüb tapşırdı ki, özümdən muğayat olum.

Məsciddə Hacı ağa Ələviyə yaxınlaşıb məsələni söylədim. Dedi: "Bərəkallah, xanım Musəvi!" Birlikdə məscidin ikinci mərtəbəsinə qalxdıq, kiçik bir otağın pəncərələrinə ədyaldan pərdə çəkdik.

– Özün bunu işlətməyi bacarırsan? – deyə soruşdu.

– Hə, Ələddin öyrədib.

– Lap yaxşı! Mən camaatı beş-beş yuxarı göndərəcəyəm, sən burda şəkilləri göstər.

Şəhidlərin şəkilləri təsirli idi. Xiyabanın yeri və ağacların gövdəsi qırmızıya boyanmışdı. İnsanlar şəhidlərin qana bələşmiş üz-başlarını, qol, ayaq və sinələrini görüb başlarına vururdular. İki nəfər isə huşunu itirdi.

İşim bitəndən sonra aparatı ağ bir mələfəyə büküb çantaya qoydum. Hacı ağa Ələvi mənə görə narahat idi. Deyirdi: "Səni bu aparat və slaydlarla tutsalar, işgəncə verərlər". Mənsə rahat idim, qorxmurdum. Bilmirəm, bəlkə də, hərbçilərin və sinələrinə tuşlanmış silahların önündə dayanan insanları görüb bu qədər cəsarətlənmişdim.

Hacı ağa Ələvinin tapşırığı ilə iki cavan oğlan müəyyən məsafələrlə məni evə qədər ötürdü. Ələddin həyəcanla həyətdə gözləyirdi. Məni görən kimi alnımdan öpüb rahat nəfəs aldı, çantanı alıb damdan qonşuların həyətinə keçdi və harasa getdi.

İnqilabın qələbəsindən sonra valideynlərimiz rahat nəfəs almağa başladılar. Ləya mama tez-tez əllərini göyə qaldırıb deyirdi: "İlahi, Sənə şükür, inqilab qələbə çaldı və iki uşağımın heç birinin başına bir iş gəlmədi!"

Mən gülüb deyirdim:

– Niyə demirsən ki, beş uşağımın?

– Onlardan arxayınam. Yalnız siz ikiniz imkan vermirsiz boğazımızdan su keçsin.

***

İnqilabdan sonra məktəblərin siyasiləşməməsini tez-tez elan etsələr də, çox siyasiləşmişdi. Ölkə böyük bir hadisə ilə məşğul idi, məktəblərin siyasiləşməməsi mümkün deyildi. Hər şey siyasi olmuşdu. Çörək növbəsinə dayananda da bir toqquşma baş verə bilirdi.

Xalq Mücahidləri Təşkilatı məktəblərdə "Milis" adlı dəstələr yaradırdı. Biz də "Hizbullah" adlı cinah yaratmağa başladıq. Onlar məktəbin bir tərəfində sırayla gedib şüar deyirdilər, biz bir tərəfində. Direktor və müavinlərinin də əllərindən heç nə gəlmirdi. Çünki heç kim onlara qulaq asmırdı.

Mübahisələrdə Ayətullah Taliqaninin adı çox çəkilirdi. Xalq mücahidləri onu "Ata Taliqani" adlandırırdılar. Bir gün Ayətullah Taliqaninin şəklini mücahidlərin sinfinin yazı lövhəsinin üstündən götürdüm. Etiraz edib dedilər: "Məgər siz ata Taliqaniyə inanmırsız?" Dedim: "İnanırıq, amma münafiqlərin sinfinin baş tərəfində deyil!"

Bəlkə, on nəfər üstümə cumub yumruq-təpiklə məni o ki var döydülər. Mən üzümdə qanın hərarətini hiss edəndən sonra özümdən getdim. Ayılanda bildim ki, məktəbin Müntəxəbi və Təxti soyadlı hizbullahçı uşaqları məni onların əlindən alıblar. Məktəbin direktoru xanım Abdullahinin səsini eşidirdim: "Təcili yardım çağırın!" Bir

nəfər mənə süni nəfəs verirdi. Xanım Abdullahi dedi: "Gərək xəstəxanaya aparaq, beyin travması ala bilər, onda mən ailəsinə nə cavab verərəm?!"

Gözlərimi açdım. Xanım Abdullahinin rəngi ağappaq ağarmışdı. Dedim: "Mən xəstəxanaya getməyəcəyəm. Anam xəstəxanada olduğumu eşitsə, bağrı yarılar. Məni evə aparın. İstirahət edib yaxşılaşacağam".

Anam cırılmış, toz-torpağa və qana bələşmiş paltarlarımı görməsin deyə çadramı özümə bükdüm. Açarı salıb qapını açdım. Ləya mama hovuzun yanında meyvə yuyurdu. İkiəlli başına vurub dedi: "Sənə nə olub, Fəxri?"

Ələddin həyətə qaçdı, məni görüb başını yellədi və dedi:

– Döydün, yoxsa döyüldün?

– Həm döydüm, həm döyüldüm!

– Yox, deyəsən, daha çox döyülmüsən.

– Nə gözləyirdin ki?! Onlar on nəfər idilər, mənsə tək.

Ləya mama qolumdan tutub məni hamama apardı. Ələddin hirslənib dedi:

– Burax bu işləri! İndi sual-cavab vaxtı deyil. Bilmirəm sən məktəbə gedirsən, yoxsa müharibəyə?!

Ləya mama bütün paltarlarımı zibilqabıya atdı. Duş alandan sonra bir qədər xörək yeyib yatdım.

Ertəsi gün səhər yuxudan oyananda bütün bədənim ağrıyırdı. Axtarıb köhnə bir manto tapdım, geyib məktəbə getdim. Xanım Abdullahi məni görüb təəccüblə dedi: "Niyə gəlmisən?! Sən gərək istirahət edəsən". Dedim: "Mən yaxşıyam. Dərslərimdən geri qalmaq istəmirəm".

Sonra Milis cinahının önündə gəzişməyə başladım. Xəbərçilərinə dedim: "Mən silahlıyam. Əgər bilmirsənsə, bil. Bundan sonra məktəbə tapançayla gələcəm. Yaxşı olar

ki, söz və hərəkətlərinizə fikir verəsiniz. Get, bunu başçına da de".

O bədbəxt də inandı. Tapança yox idi, qürurumu bərpa etməkdən ötrü bunu deyirdim.

Təlim və Tərbiyə Nazirliyindən bildiriş gəldi ki, Milis və Hizbullah dəstələrinin məktəblərdə fəaliyyəti qanunsuzdur; məktəbdə hamı bir sırada dayanmalı, bu qanuna əməl etməyənlər bölgənin Təhsil idarəsinə bildirilməlidir. Bu xəbərdarlıqdan sonra məktəb bir qədər sakitləşdi.

Şagird və tələbələr arasında inqilabçılıq həvəsi yüksək idi. Yadımdadır, bələdiyyədən Səfərabad xiyabanını asfaltlamaq üçün yardım çağırışı edilmişdi. Xiyabanın vəziyyəti pis idi, yağış yağanda su camaatın evinə girirdi. Bəlkə də, iki yüz gənc toplaşıb bel və külünglə uzun Səfərabad xiyabanının kələ-kötürlərini hamarladıq. Sübh saat 6-dan axşamüstüyə qədər işlədik. Nəhayət, xiyaban hamar vəziyyətdə bələdiyyəyə təhvil verildi.

Axşam evə gələndə yorğunluqdan ölürdüm. Ləya mama mənə çay gətirdi, suluq bağlamış əllərimi görüb təəccüblə başını yellədi:

– Vallah, sənin işlərindən baş açmıram! Qab yumaq növbən çatanda yumursan, amma gedib küçədə bellə işləyir, tarlada buğda biçirsən.

– Biz inqilab etmişik, gərək onun arxasında dayanaq, işlərini görək.

– Məmləkətin sahibi yoxdurmu işlərini siz görəsiniz?!

Həftəsonu bacım Əşrəf evə gələndə Mahnişandan kor bir qadınla kişi gətirib mənə dedi: "Mümkünsə, məsciddən bunlara yardım topla. Yoxsul, amma abırlı ailədir". Deyəsən, uşaqları da vardı.

Onlar üç gün bizdə qaldılar. Ləya mama onlara qulluq etdi. Sonra da Əmirəlmöminin məscidinin pişnamazı Hacı ağa Ələvinin köməyi ilə bir qədər yardım topladıq və Əşrəf onları Mahnişana apardı.

Zavallı anamız biz uşaqlarla nə edəcəyini bilmirdi. Yalnız başını yelləyib deyirdi: "Xudaya, bizi uşaqlarımın bu inqilabçılığının bəlasından qoru və aqibətimizi xeyirli elə!"

# Üçüncü fəsil

İnqilabın qələbəsindən sonra inqilabçı gənc və yeniyetmələr bütün vaxtlarını şəhərlərdə əmin-amanlıq yaratmağa sərf edir, problem və çatışmazlıqları həll etmək istəyirdilər. Yadımdadır, həmin günlərdə qəzet oxuyanda Təbəsdə baş vermiş zəlzələ barədə xəbər gördüm. Təbəs zəlzələsi inqilabdan öncə, sentyabrda baş vermişdi, amma inqilab problemlərinə və zəif yardıma görə əhalinin vəziyyəti yaxşı deyildi. Qəzetdə onlara yardım üçün bir bank hesabı dərc olunmuşdu.

Beynimə bir fikir gəldi, məscidə gedib Hacı ağa Ələviyə dedim: "Mən Təbəs əhalisi üçün pul toplamaq istəyirəm. Vəziyyətləri pisdir, köməyə ehtiyacları var. Siz məni yazılı şəkildə bu iş üzrə öz nümayəndəniz təyin edin ki, camaat inansın". Hacı ağa Ələvi gülümsəyib dedi: "Çox yaxşı işdir, qızım, amma daha yaxşı olar ki, Ayətullah İzzəddindən bir məktub alaq. O, həm cümə imamıdır, həm də şəhərdə çoxu ona təqlid edir".

Sonra bir vərəqə nəsə yazıb mənə verdi:

- Bunu Hacı ağa İzzəddinə ver və görmək istədiyin işi ona izah elə, - dedi, sonra Quran kitablarını səliqəyə salan bir gənc oğlanı göstərib əlavə etdi: – Məhəmmədi də özünlə apar. O da iş öyrənməlidir.

Məhəmməd başıaşağı və işgüzar bir yeniyetmə idi. Gözəl gözləri vardı, utananda yanaqları qızarırdı. Məndən bir neçə yaş balacaydı. İkimiz birlikdə Hacı ağa İzzəddinin ofisinə getdik, katibi ilə razılaşdırandan sonra otağa girdik. Hacı ağa kiçik bir masanın arxasında oturmuşdu. Salam verib hərəmiz bir tərəfdə oturduq. Məhəmməd başını aşağı salmış, həmişəki kimi, yanaqları qızarmışdı. Mən məktubu hacıya verib dedim: "Biz Əmirəlmöminin məscidinin uşaqlarıyıq, Təbəsdə zəlzələdən zərər çəkmiş əhaliyə yardım toplamaq istəyirik. O insanlar çətin durumdadırlar. Müsəlman bacı-qardaşlarına kömək etməksə hər kəsin borcudur. Biz müsəlman olaraq laqeyd qala bilmərik".

Mən farsca danışmağa adət etmişdim. Orada uzun nitq söylədim. Bu, hacı ağaya qəribə gəldi, eynəyin üstündən mənə və Məhəmmədə baxıb dedi: "Yaxşı... cəsur qız yaxşı danışır, amma utancaq oğlan başını qaldırmır". Başını yelləyib güldü, sonra üzünü mənə tutub dedi: "Xanım qız, sənin soyadın nədir?" Dedim: "Musəviyəm". Məhəmmədə baxıb onun adını soruşdu. Onun yerinə də mən cavab verdim: "O, Məhəmməd Şəkuridir".[1]

Gülə-gülə Hacı ağa Ələvinin əlyazmasının altından nəsə yazıb imzaladı və mənə dedi: "Hara getsən, de ki, mənim nümayəndəmsən. Sualları olsa, ofislə əlaqə saxlasınlar".

Hacı ağaya təşəkkür edib bazara yola düşdük. Bütün dükanları gəzib məktubu göstərirdim, bir müsəlman kimi

---

[1] Məhəmməd Şəkuri 1982-ci ildə Məhərrəm əməliyyatında şəhadətə qovuşdu.

Təbəs əhalisinə kömək etməyə borclu olduğumuzu başa salırdım. Məhəmmədə böyük bir çuval vermişdim. Yavaş-yavaş ətrafımız adamla doldu. Tacirlər dəstə-dəstə pulları çuvala tökürdülər. Bir saata çuval doldu. Məhəmmədə dedim: "Bekar durma, pulları sıx, yer açılsın".

Zəncan bazarının bu başından o başına qədər gəzdik. Mən təkəbbürlə başımı dik tutub Məhəmməddən öndə gedirdim. Bazarın sonuna çatanda dönüb ona baxdım. Çuvalı belinə atmışdı, ağırlığından tövşüyürdü. Ona dedim: "Tez ol! Niyə bu qədər ləhləyirsən? İndi günorta azanı veriləcək, gərək məscidə qayıdaq".

O vaxta qədər bir kəlmə də danışmamış Məhəmməd dil açıb dedi: "Birdən yorularsan ha! İnqilabçılıq təkcə danışmaq deyil!"

Onun bu sözündən sonra fikrə getdim. Bu sakit və utancaq uşağın sözü mənə o qədər təsir etdi ki, birdən-birə səsimi kəsdim, sanki fısım yatdı. Onda bildim ki, bu azdanışan oğlanın həm ixlası məndən çoxdur, həm də tək olsaydım, bəlkə də, bu qədər pul toplaya, bu kisəni daşıya bilməzdim. Öz-özümə dedim ki, Allah Hacı ağa Ələviyə uzun ömür versin ki, Məhəmmədi mənimlə göndərib.

Məhəmmədin sözü uzun müddət beynimi məşğul etdi. O, doğru deyirdi: mən bir qədər təkəbbürlü idim. Hələ inqilab yolunda çox çətinlik çəkməmişdim. Fikirləşdim ki, təkəbbürümü əzmək və ixlasımı artırmaq üçün nəsə etməliyəm.

1979-cu il, payızın sonları idi. Əmirəlmöminin məscidinin kitabxanasında Fəriba və Fəhimə Səyyari[1] ilə yeni kitabların siyahısını hazırlayırdıq. Fəhimənin riyaziyyat üzrə attestatı vardı, çox istedadlı idi, lakin

---

[1] Şəhid Fəhimə Səyyari 1980-ci ilin dekabrında Kürdüstanda əks-inqilabçıların pusqusuna düşüb şəhadətə qovuşdu.

qərara gəlmişdi ki, Quma gedib elm hövzəsində dini təhsil alsın. Biz işlədiyimiz yerdə məscidin xadimi gəlib dedi: "Hacı ağa Ələvinin səninlə işi var".

Məscidə girdim. Hacı ağa məni görən kimi qəbasının cibindən bir məktub çıxarıb dedi: "Yəqin, bilirsən ki, imam iyirmimilyonluq bir ordu yaratmaq barədə əmr verib. Buna görə də korpus hər məsciddən bir aktiv kadr istəyib".

“Ordu” sözünü eşidən kimi avtomatik olaraq uşaqlıq günlərim yadıma düşdü. Onda ordu zabiti olmaq istəyirdim. Hacı ağa Ələvinin danışdığı yerdə kağıza baxdım. Blank idi, hacı ad və soyad üçün nəzərdə tutulmuş “ağa” sözünün üstündən xətt çəkib "xanım Musəvi" yazmışdı. Ona dedim: "Hacı ağa, bunlar deyəsən, yalnız kişiləri istəyirlər. O dedi: "Kişi-qadın fərqi yoxdur. Sən bu məsciddə hamıdan fəalsan, bu işə uyğunsan. Mən onlara dedim ki, xanım göndərəcəyəm, etiraz etmədilər".

Ertəsi gün deyilmiş saatda və ilk dəfə olaraq korpusun qərargahına getdim. Bir qədər həyəcanlı idim. Girişdə məktubu göstərib içəri girdim. Müxtəlif məscidlərdən təxminən otuz-qırx nəfər gəlib yeməkxanada stolun ətrafında oturmuşdu. Məndən başqa bir xanım da vardı, "Yeri payin" məscidindən gəlmişdi. Az sonra mehriban görkəmli, amma çox ciddi və iradəli bir gənc pasdar gəlib məclisin başında oturdu, danışmağa başladı. Üzündən mənə tanış gəldi. Zənnimcə, bizim məktəbimizdə çıxış etmişdi. Əvvəlcə özünü təqdim etdi: Əhməd Yusifi idi. Sonra iyirmimilyonluq ordunun, daha doğrusu, Bəsic təşkilatının əsasnaməsini oxuyub dedi: "Lütfən, sağdan bir-bir özünüzü təqdim edin və hansı məsciddən gəldiyinizi söyləyin".

Növbə mənə çatanda dedim ki, Əmirəlmöminin məscidindən Musəviyəm. Qardaş Yusifi təəccüblə soruşdu: "Sizi Hacı ağa Ələvi göndərib?" Dedim ki, bəli. Bir qədər dinmədi, sonra dedi: "Növbəti adam buyursun".

İclasdan sonra ona yaxınlaşıb dedim:

– Bağışlayın, cənab...

– Mən Yusifiyəm, – dərhal dilləndi.

– Bağışlayın, qardaş Yusifi, mən hansı işi görməliyəm?

– Digərləri kimi, siz də sabah aşağı məzarlığın yanındakı Bəsic qərargahına gəlin. Orada işlər bölünəcək, sizin vəzifəniz də bəlli olacaq.

Beləliklə, korpusa daxil oldum.

Yadımdadır, Zəncan Bəsicində fəaliyyətimizə yeni başlamışdıq, bizim üçün təlim kursları təşkil etmişdilər, ibtidai səviyyədə hərbi və təcili tibbi yardım təlimləri keçirilirdi. Tibbi yardım təlimi üçün Zəncanın Şəfiiyyə xəstəxanasına getdik, orada həyata qaytarma, iynə vurma, sınığa təsbitedici bağlama, yara sarıma və tikiş atma öyrəndik. Yaşıl Abbas ləqəbli məşhur bir kişi vardı. O, xəstəxananın cırıq döşəkləri üzərində bizə tikiş atmağı öyrədib deyirdi ki, döşəyi yaxşı tiksəniz, dərini də tikə biləcəksiniz. Dəri tikmək, adamların ət və qanlarını görmək zamanı gələndə çoxları kursu yarımçıq qoydu. On altı nəfərdən yalnız beşi Qırmızı Aypara Cəmiyyətindən tibb xidmətçisi selfitikatı aldı.

Bir gecə növbədəydim. Avtomobil qəzasında alnı yarılmış bir xanımı təcili yardım şöbəsinə gətirdilər. Yaşıl Abbas məni çağırıb dedi: "Musəvi, vaxtdır, gərək bu xanımın alnını sən tikəsən!"

Əllərim əsirdi. İnsan dərisini tikmək döşək tikməklə bir deyildi. Qan axır, əlim sürüşür, xəstənin çığırtısı adamın bədənini titrədirdi. Çox həyəcanlı idim, amma özümü

məcbur edirdim ki, zəiflik göstərməməlisən, qorxası bir şey yoxdur. Xanımın alnını ortadan sol qaşının sonuna qədər tikdim. Yaşıl Abbas diqqətlə işimə baxıb dedi: "Yaxşıdır! Sən qəbul oldun!"

Az sonra korpus qərara gəldi ki, xanımlara təlim keçmək üçün bir neçə xanım müəllimə yetişdirsin. Mən yeddi-səkkiz qızla birlikdə hərbi, tibbi və xilasetmə müəllimliyi təlimlərində iştirak etdim.

Şəhid Qamət Bəyatdan, Şəhid Əsğər Məhəmmədiandan, Tağı Təhmasibidən, Əhməd Yusifidən, Şəhid Pərviz Ətayidən və Seyid Böyük Musəvidən silahlarla, minalarla tanışlığı, taktika və əlbəyaxa döyüş təlimlərini öyrəndik. Sonra daha peşəkar tibbi yardım və özünümüdafiə kurslarında iştirak etmək üçün dəstə-dəstə Tehrana yola düşdük.

Mən Tehrana ezam olunan ilk qrupda Zəhra Əhmədi, Behnaz və Məhnaz Sədr-Məhəmmədilərlə birlikdə ordunun Beş yüz çarpayı hospitalına getdim. Tibb xidmətini bir qədər bildiyimizə görə bizi dərhal müharibə yaralıları şöbəsinə praktik işə göndərdilər. Müharibə yeni başlamışdı. Mən ilk dəfə idi ağır yaralanmış əsgər və zabitlər görürdüm. Bəzilərinin onurğa beyni zədələnmiş, yataq yarasına yoluxmuşdular. Bəziləri güclü partlayış dalğasına düşür, ya da bədən üzvü kəsilərək ağır vəziyyətdə yaşayırdı. Çoxu gənc və subay idi. Onların yaralarını bağlayanda fikrə gedir, öz-özümə düşünürdüm ki, əgər bunlardan biri ilə ailə qursam, həyatım necə də çətinləşər!

On yeddi yaşım vardı, ömrümün bahar çağındaydım. İmamın söz və davranışı, sadəliyi və düşüncə fəlsəfəsi mənim məna axtaran təşnə ruhumu doyururdu, onun kimi yaşamaq istəyirdim. Hətta xörəyi bu niyyətlə yeyirdim ki,

düşüncə və əqidələrim inkişaf etsin və daha yaxşı insan olum.

Mənim ideologiyam orada təkmilləşdi, oxuduqlarımı orada əməli şəkildə gördüm. Orada işləyən gənc oğlanlar əməklərinin müqabilində maaş almırdılar. Korpusun israrı ilə maaş veriləndə də bir qutu düzəltdilər; ehtiyacları qədər maaşdan götürür, qalanını yoxsullara kömək üçün qutuya salırdılar. Yüksək rütbəli komandir mətbəxdə çirkli bir stəkan görəndə qollarını çırmayıb yuyurdu. Kiməsə yuxarıdan aşağı baxmaq deyilən bir şey yox idi, önəmli olan yalnız işin görülməsi idi.

İnsanların hörməti də saxlanırdı. Bütün vücudları enerji və cəsarətlə dolmuş gənc oğlanlar xanım işçilərlə göz-gözə gəlmirdilər. Hamı bir-birinin yanında işləyirdi. Qadınların işləməsi üçün məhdudiyyət yox idi, amma heç bir cinsiyyət və təhlükəsizlik hissi də mövcud deyildi. Kitab, jurnal və qəzet oxumaq hərgünkü proqramlardan idi. Güncəl olmaq gündəlik bir tapşırıq kimi təkrarlanır, hər yerdə dinamika hiss olunurdu. Orada olanda arxayın olurdun ki, həyatın puç və mənasız keçmir. Ora ömrünün bahar çağını yaşayan bizlər üçün ideal cəmiyyət idi. Mənim hərbçiliyə çoxdankı sevgim həyata keçirdi. Qırx beş günlük təlimdən sonra isə silah və partladıcı üzrə müəllim oldum.

Hərbi təlim üçün Bəsicə çoxlu qız gəlirdi. Qardaş Qamət Bəyat əl qumbarasının hissələrini və hər birinin funksiyasını öyrədirdi. Sonralar özü dedi ki, könüllülərdən ruhiyyə imtahanı almaq istəyirəm. O, əl qumbarasının milini çəkib əli ilə saxladı və dedi: "Əgər indi əlim titrəsə, qumbara partlayacaq". Qızların hər birinin qəlbində necə həyəcan olduğunu bilmirdim, amma hamı sakit və vüqarlı oturmuşdu. Müəllimimizə tam etimadımız vardı, narahat

deyildik. Qardaş Qamət Bəyat qumbaranın milini yenə dəlikdən keçirib bir qədər silkələdi ki, yerinə keçsin. O, təkidlə tapşırdı ki, bu təlimi heç zaman təkrarlamayın. Çünki bu, çox peşəkarlıq, məharət və təcrübə tələb edən işdi, təzə başlayanların işi deyildi.

Mənsə dərslərimin birində bunu təkrarladım. Bir nəfər: "Əgər mili çəksən, nə olar?" – deyə soruşduqda mən də çəkib dəstəyi korpusa yapışdırdım. Pəncərəyə yaxın bir yerdə dayandım ki, bir hadisə baş versə, tez qumbaranı bayıra atım. Əlli nəfər həyəcanla mənə baxırdı. Bir neçə saniyədən sonra nə qədər etdimsə, mili yerinə keçirə bilmədim; əyilmişdi. Bir nəfəri göndərdim ki, daş gətirsin, onu düzəldim. Əlim yorulurdu, stresim vardı. "Bu nə qələt idi, mən etdim" – deyə öz-özümə düşünürdüm. Özümü sakit və soyuqqanlı göstərməyə çalışırdım ki, uşaqlar qorxmasınlar. Mili düzəldəndən sonra yerinə saldım, kənarlarını qaytarıb dəstəyi buraxdım. Bilirdim ki, təhlükəli iş görmüşəm.

Bir nəfər mənim bu işimi yuxarıya məruzə etmişdi. Bəsicin müharibə otağından məni çağırdılar. Partlayıcı maddələr üzrə müəllimim Qamət Bəyat, Məhəmməd Süleymani və Əhməd Yusifi oturmuşdular. Yusifi Zəncan korpusunun komandirlərindən idi. Mən içəri girən kimi stolun arxasından qalxıb mənə yaxınlaşdı:

– Sən dərsdə əl qumbarasının milini çəkmisən? – deyə soruşdu.

– Bəli, – cavab verdim.

Gözlərimə baxmırdı. Üzü qızarmışdı. Əlini mənə tərəf uzadıb dedi:

– Çox nahaq yerə qapalı bir mühitdə, əlli nəfərin yanında mili çıxarmısan! Sən hələ yeni təlimçisən. Məgər bilmirsən bu iş nə qədər təhlükəlidir?!

Onun belə rəftarından narahat oldum, haqlı olduğunu bilsəm də, başımı qaldırıb cəsarətlə dedim:

– Mən hər bir ehtimalı fikirləşmişdim.

Yusifi qovluqlar şkafına yaxınlaşdı, mənim qovluğumu çıxarıb stolun üstünə çırpdı və dedi:

– Əksinə, sən heç bir ehtimalı fikirləşməmisən, yoxsa belə axmaq hərəkət etməzdin. Əgər orada bir hadisə baş versəydi, ailələrinə nə cavab verərdik?!

Qovluğumu açıb nəsə yazdı, sonra üzünü mənə tutub dedi:

– Bu gündən etibarən heç bir təlimdə iştirak etməyə haqqın yoxdur!

Yusifinin bu sözündən çox narahat oldum, boğazımı qəhər tutdu. Hərbçiliyi, silah-sursatı çox sevdiyimə görə mənim üçün ağır məsələ idi. Səsim də, bədənim də titrəyirdi. Müəllimim olmuş Qamət Bəyat dinmirdi, başını aşağı salmışdı, bu işdə onu yamsıladığımı bilirdi. Bəlkə də, bu səhvimdə özünün də payı olduğunu düşünürdü.

Üzümü Qamət Bəyata tutub dedim:

– Mən bura gəlmək istəmirəm. Bu düşərgədə vaxtımı hədər etmək də mənim günahımdır. Sabah gedib Qırmızı Aypara Cəmiyyətinə adımı yazdıracaq və döyüş bölgəsinə gedəcəyəm.

Gözlərimdən yaş gəlmədən tez otaqdan çıxıb qapını möhkəm çırpdım.

İki-üç gün Bəsicə getmədim. Bir gün günorta namazımı qıldığım yerdə Ləya mama dedi: "Bir nəfər gəlib, səni çağırır".

Gedib gördüm ki, cənab Tağı Təhmasibi Bəsicin SUV avtomobili ilə gəlib. Məni görən kimi dedi:

– Gərək qərargaha gələsən, səninlə işləri var.

– Mənim orada işim yoxdur, gəlmirəm! – deyə cavab verdim.

– Sən gecə-gündüz bu qədər əziyyət çəkmisən, iş öyrənmisən, – ağa Təhmasibi başını yelləyib dedi, – oyun-oyuncaq deyil ki, küsəsən. Gedək qərargaha, gör Əhməd nə deyir.

Həmin üç nəfər yenə müharibə otağındaydı: Əhməd Yusifi, Məhəmməd Süleymani və Qamət Bəyat. Əhməd Yusifinin dodaqlarında təbəssüm vardı, rəftarı sakitləşmişdi. İşarə ilə bildirdi ki, oturum. Sonra dedi: "Siz dəyərli kadrsınız. Biz əzab-əziyyətlə yetişdirilmiş müəllimləri asanlıqla əldən vermək istəmirik. Sizin təfəkkürünüz bəsici təfəkkürüdür və bu, önəmli məsələdir".

Bu sözlər daxilimdəki alova və qərarsızlığa sanki su kimi təsir etdi. Hiss edirdim ki, səhvim bağışlanıb və bacarıqlarım qiymətləndirilir.

Qamət Bəyat Əhməd Yusifinin sözlərini davam etdirib dedi:

– Təlimlərdə dəfələrlə demişəm ki, partlayıcı maddələrlə işləyərkən birinci səhv sonuncu səhvdir, onu düzəltməyə imkan olmur!

Bir söz demədim, təsdiq əlaməti olaraq başımı yellədim.

Yusifi dedi:

– Sən hələlik partladıcı təlimindən çıxırsan, digər dərslərinsə davam edəcək. Əslində, o dərslərdə müəllimə daha çox ehtiyac var. Bizim öyrəndiyimiz belədir ki, əsas olan işləməkdir, harada olman çox da önəmli deyil.

# Dördüncü fəsil

1980-cı il, payızın ortaları idi. Zəncana birinci qar yağırdı. Geniş bürüncəyimin altından Ləya mamanın toxuduğu jaketi geyinsəm də, yenə üşüyürdüm. Məktəbdə bütün siniflər qızmırdı, neft az olurdu.

İdman saatı idi, voleybol oynayırdım. Bu zaman Rəsul Mollayi ilə ailə qurmuş dostum Fərzanə İdrisi məni çağırdı. Yaxınlaşanda dedi:

– Hardasan?! Səninlə işim var.

İkimiz də sinfə gedib partanın üstündə oturduq. Mənə dedi:

– Düzü, mən ağa Əhməd Yusifi tərəfindən sənə elçi gəlmişəm. O, səninlə ailə qurmaq istəyir.

Beynimə gələn ilk fikri söylədim:

– Məgər ağa Yusifi ailəli deyil?!

– Yox, – xanım İdrisi cavab verdi.

– Mən elə bilirdim ki, ailə-uşağı var.

– Yox, ailə-uşağı yoxdur. Sənin fikrin nədir?

– Mənim evlənmək fikrim yoxdur. Məktəbi bu il bitirəcəyəm. Atam da heç vaxt icazə verməz. Qızlarının

izdivacında qırmızı xətti elçinin hərbçi olmamasıdır. O həmişə deyir ki, ananıza baxın, görün hərbçi ilə ailə qurduğuna görə nə qədər şəhər dəyişib, çətinlik çəkib.

– Maraqlıdır! – xanım İdrisi başını yelləyib dedi. – İnşallah, atan razı olar. Özün Əhməd Yusifi barədə nə düşünürsən? O, sənin Seyid Ələddin Musəvinin bacısı olduğunu öyrənib. Sənə hörməti var. Özü də balaca adam deyil. Onun ixlası və şəxsiyyəti barədə nə qədər desəm, azdır. Özün onunla işləmisən, tanıyırsan. Çox qız arzu edir ki, ağa Yusifi onu seçsin. Tələsmə, get fikirləş.

Həmin gecə yata bilmirdim. Seçdiyim həyat tərzində izdivaca yer yox idi; ər, ev, uşaq məsuliyyəti... Klassik, evdar bir qadına çevrilmək istəmirdim. İstəyirdim ki, dərs oxuyum, kitab oxuyum, hərbçi olum və döyüş bölgələrinə gedim.

Əhməd Yusifini ilk dəfə harada gördüyümü və hansı hissləri keçirdiyimi xatırladım:

O, bizim məktəbimizə çıxış etməyə gəlmişdi. Uzun plaş geymişdi. Sıranın başında plaşını çıxaranda əynindəki yaşıl pasdar forması, uzun sıx saqqalı mənə fələstinli mübarizləri xatırlatdı, ciddi, sakit və çox güclü göründü. Hərəkətləri bir partizan kimi çevik və düşünülmüş idi. İşlətdiyi sözlər də hərəkətləri kimi dəqiq idi. Bizə inqilabın prinsip və dəyərlərindən danışdı, J3 silahını açıb-bağlamağı öyrədib getdi.

Ürəyimə müraciət edəndə ona qarşı yaxşı hisslər keçirdiyimi görürdüm. Mənim üçün güclü və sevimli bir kişi idi; həm zahiri görkəminə, həm də düşüncəsinə görə. "Bu təcrübəli və dəyərli insan məndə nə görüb ki?" – deyə öz-özümdən soruşdum. Özümə inamım artdı və özümü yaxşı hiss etdim.

Hadisədən bir neçə gün ötdü. Bu barədə heç kimlə danışmadım, düşündüm ki, Fərzanə İdrisi bir sözdür, deyib. Bir payız günü günortadan sonra Bəsicin qərargahında tibbi yardım əşyalarımı səliqə ilə bel çantama yığıb sinfə getməyə hazırlaşırdım. Tibbi və hərbi dərslərə dair beşinci kurs təzəlikcə yeni iştirakçılar cəlb etmişdi. Bu zaman arxamda bir nəfərin dayandığını hiss etdim. Ora ümumi yer idi. Bir anlığa geriyə baxanda bir cüt hərbi çəkmə gördüm. Başımı qaldırdım. Əhməd Yusifi idi. Diksindim. Özümü itirib salam verdim. Salamımı alıb soruşdu:

– Dərsə hazırlaşırsan?

– Bəli.

– Mən keçən həftə xanım İdrisini sizin fikrinizi öyrənməyə göndərmişdim. Amma hələ cavab verməmisiniz.

– Mən ona dedim ki, atamın razılıq verməsi qeyri-mümkündür. Düzü, sizin elçiliyiniz mənə gözlənilməz oldu.

– Mən sizi və ailənizi az-çox tanıyıram, – bəlkə də, bir-iki dəqiqəlik sükutdan sonra dilləndi. – Sizsə məni və ailəmi tanımırsınız. Sabah günortadan sonra Rəsul Mollayigilə gəlin, onun və həyat yoldaşı xanım İdrisinin yanında bir qədər söhbət edək. Bəlkə də, sözlərimiz bir-birimizə faydalı oldu. Mənim sizi narahat etmək fikrim yoxdur. Amma nə qədər ki bir təklif barədə danışmamısınız, araşdırmamısınız, mənfi cavab verməyin.

Ağzım bağlandı. Məncə, sözləri məntiqli idi.

Ertəsi gün saat 5-də evdən çıxmaq istəyəndə Ləya mama yaxınlaşıb dedi:

– Hara, Fəxri can? Günbatan çağıdır, qar yağır, bəlkə, yollar da bağlanıb.

Başımı aşağı salmışdım, Ləya mamanın gözlərinin içinə baxa bilmirdim. Özüm də bilmirdim ki, niyə özümü günahkar hiss edirəm. Yavaşca dedim:

– Narahat olma, ana can, uzağa getmirəm, bir nəfərlə görüşüm var.

Anamın cavabını gözləmədim, tez küçəyə çıxıb həyət qapısını örtdüm. Hava soyuq idi. Külək yerdəki yüngül qar dənəciklərini qaldırıb havada fırladırdı. Qara çadranı özümə bükdüm, onunla ağız-burnumu da örtdüm. Bizdən xanım İdrisigilə qədər iki uzun xiyaban vardı. Təşviş və həyəcan bir an da məni rahat buraxmırdı. Tez-tez özümdən soruşurdum: "Fəxri, hara gedirsən? Nə edirsən?"

Evlərinin önünə çatanda üz-başım qarla dolu idi. Başımın və çiyinlərimin qarı tökülsün deyə ayaqlarımı möhkəm yerə çırpandan sonra qapını döydüm.

Əhməd Yusifi məndən tez gəlmiş, gödəkcəsini çıxarıb sobanın yanında, ağ ədyalın üstündə oturmuşdu. Xanım İdrisi Əhməd Yusifi ilə üz-üzə bir bellik qoydu və mən ona söykəndim. Bir sinidə çayla xurma da gətirib önümüzə qoydu. Getmək istəyəndə soruşdum:

– Hara? Siz də oturun.

– Mən xörək bişirməliyəm, – təbəssümlə dedi, – mətbəxdən sizi eşidəcəm. Ağa Əhməd Yusifi bizim seçilmiş pasdarlarımızdandır, Fəxri can!

Hər ikimiz sakit halda xurma ilə çay içdik. İsti çay bədənimin buzunu əritdi. Əhməd "Bismillah" deyib danışmağa icazə istədi. Çətinliklə başımı yelləyib dedim: "Rica edirəm. Buyurun".

Başını aşağı salıb yavaşca, tələsmədən danışmağa başladı:

– Atam səyyar alverçidir. Altı qardaş, bir bacıyıq. Mən ailənin ikinci övladıyam. Yəqin ki, ata-ananın mənim üçün

Allahdan sonra ən üstün və ən hörmətli şəxslər olduğunu deməyimə ehtiyac yoxdur. Şükür Allaha, özünüz də nəcabətli bir ailədə böyümüsünüz, bu şeyləri məndən yaxşı bilirsiniz. Amma...

Hava qaralmışdı, Əhmədin şəkli pəncərənin şüşəsinə düşürdü. Diqqətlə ona baxıb ziddiyyətli hisslər keçirirdim. Bir tərəfdən, evdə heç bir söz demədən gəlib onunla qarşı-qarşıya oturduğuma görə vicdan əzabı çəkirdim, digər tərəfdən də, onun üzündə bir qadının axtardığı xoşbəxtliyi görürdüm. O vaxta qədər Əhmədin şagirdlərinin gözlərinin içinə baxdığını görməmişdim, ancaq həmin gün birdən-birə gözlərini gözlərimə dikib dedi:

– Xanım Musəvi, mənim sözlərimə qulaq asırsınız?

Gözlərimi pəncərədən çəkdim, öz aləmimdən çıxıb dedim:

– Bəli, əlbəttə!

– Ailəyə hörmət, ismət, həya kimi mövzulardan danışmağa dəyməz. Çünki özünüz ağa Seyid Ələddin kimi bir qardaşın yanında, onunla bir ailədə böyümüsünüz, bunları məndən yaxşı bilirsiniz. Mənim dünya malından əynimdəki bu formadan başqa bir şeyim yoxdur. Mən pasdaram, ölkəmiz müharibə vəziyyətindədir, daim cəbhələrdəyəm. Ola bilsin şəhid oldum, ya da əlil oldum, məsələn, onurğa beynim zədələndi və ömür boyu əziyyətim sizin boynunuza düşdü. Bilmirəm, müharibədə hər şey baş verə bilər. Elə bilmə ki, mənim yanımda rahat yaşayacaqsan, həyəcansız ömür sürəcəksən. Əlbəttə, hər şey Allahın istəyindən asılıdır.

Tehranda ordunun xəstəxanasındakı yaralılar yadıma düşdü. Mənə bu qədər açıq şəkildə: "Elə bilmə ki, mənim yanımda rahat yaşayacaqsan, həyəcansız ömür sürəcəksən”, – dediyinə təəccüblənmədim. Bu düşüncə

tərzini tanıyırdım: açıq və doğru danışmaq, iman bəslədiyi və qan bahası canından ibarət olan əqidə!

– Siz niyə məni seçdiniz? – deyə soruşdum.

– Çünki özümə bənzəyirsən, – təbəssümlə dedi. – Digərlərinə, korpusa və etiqadına qarşı məsuliyyət hiss edirsən, üstəlik, nəcabətli ailədənsən, Seyid Ələddin kimi bir qardaşın var. Hətta xarakterlərin də mənə bənzəyir. Hirslisən, amma tez sakitləşib doğru ilə yanlışı ayırd edir, ona uyğun davranırsan.

Ürəyim bərk döyünürdü, tərləmişdim. Titrək səslə dedim:

– Siz hardan bildiniz ki, mən xalq və əqidəm qarşısında məsuliyyət hiss edirəm?

Yenə gülümsəyib cavab verdi:

– Yadınızdadır, cəbhələrə döyüşçü cəlb etmək üçün müharibə sərgisi keçiriləcəkdi. Siz Tehrandaydınız, ordunun hospitalında tibbi yardım təlimində.

– Bəli, siz xəstəxana ilə əlaqə saxlayıb dediniz ki, Müharibə təbliğatı qərargahına gedim, sərginin əşyalarını təhvil alıb Zəncana gətirim.

– Bəli, o sərgi sizin sayənizdə baş tutdu. Yüzlərlə insan ona baxış keçirdi və yaxşı döyüşçü cəlb edə bildik. Həmin axşam Bəsicə gəlib Tehrandan iki Vanet dolu əşyanın gəldiyini görəndə növbətçiyə dedim: "Əşyaların bu qədər çox olduğunu bilmirdim, yoxsa azyaşlı və cansız bir qızı təhvil almağa göndərməzdim. Yazıq, yəqin, əziyyətə düşüb".

Bir saat yarımlıq söhbət əsnasında ilk dəfə gülümsədim. O, sözünə davam etdi:

– Doğrudan, o əşyaları avtobusla necə gətirdiniz?

Danışmağa çətinlik çəkirdim. O, mənim üçün ciddi və tələbkar bir müəllim idi. İki Vanet dolu əşyaları gətirmək

macərasını söyləyə bilməzdim. Dinmədim. Amma deyəsən, ona maraqlı idi. Sualını təkrarladı.

– Müharibə təbliğatı qərargahına gedəndə aidiyyəti əməkdaş əşyaları mənə vermirdi, – dedim. – Deyirdi ki, niyə bir qız uşağını göndəriblər. Mən bir az hirslə dedim ki, sizin mənim yaşımla nə işiniz var, məni göndərən adam, yəqin ki, öhdəsindən gələcəyimi də bilirmiş. Dedi ki, pis mənada söyləmirəm, bu əşyalar olduqca çoxdur. Cavab verdim ki, gedib yük maşını gətirərəm, siz yalnız işçilərinizə deyin ki, yükləməyə kömək etsinlər, digər işlər mənlikdir. İki yük maşını tapdım, amma gördüm ki, uzun yolu sürücü ilə tək getmək düzgün deyil. Avtovağzala getdim. Avtobus sürücüsü bu qədər əşyanı qəbul etmirdi, deyirdi ki, baqaj sərnişinlərin əşyaları ilə doludur. Sürücüyə dedim ki, bu yük Zəncana getməlidir. Sərnişinlərlə danışdım, dedim ki, cəbhədə döyüşçülər canlarını verirlər, siz də çantalarınızı ayaqlarınızın altına və ya dizlərinizin arasına qoymağa razısınızmı? Onlar razılaşdılar. Sürücü də sözlərimi eşidəndən sonra sakitləşdi, əşyaları avtobusun üstünə yerləşdirdi və gəldik.

Mən danışanda Əhməd Yusifi çox diqqətlə üzümə baxırdı. Mən narahat idim, xanım İdrisinin də gəlməsini istəyirdim. Bardaş qurmuşdum, sonra isə dizi üstə oturub dedim:

– Mən iki ildir sizinlə işləyirəm, indiyədək birbaş üzümə baxdığınızı görməmişəm.

Nə demək istədiyimi anlayıb başını aşağı saldı, üzü qızardı. Ona yazığım gəldi, dediyim sözə görə peşman oldum. Mənə dedi:

– Mən Rəsul Mollayidən sizə elçi getməsini istəyəndə dedi ki, izdivacın əlli faizi çöhrədir. Sən heç bu xanımın üzünü görmüsən?

Bir neçə saniyə ortaya ağır sükut çökdü, sonra ayağa qalxa-qalxa dedi:

– Yaxşı, mən bundan artıq sizə əziyyət verməyim. Gedin fikirləşin, görün qərarınız nədir?

– Atam cəbhədədir. Anam ömür boyu onunla çox çətinlik çəkib, onların mənim hərbçi ilə ailə qurmama razılıq verəcəyinə inanmıram.

– Əsas məsələ siz özünüzsünüz. Atanız cəbhədən qayıdana qədər hərtərəfli düşünün. Əgər belə mübarizə dolu bir həyata daxil ola bilərsinizsə, mən hörmətli ata-ananızın yanına elçiliyə gəlim. İnşallah, onlar da razı olarlar.

Dörd gündən sonra Rəsul Mollayigildə bir də danışdıq. Atam iki həftədən sonra Kürdüstan cəbhəsindən qayıtdı. Fikirləşmək üçün yetərincə zamanım oldu. Bütün iki həftəni həyəcan və iztirab içində keçirdim, amma heç kimə bir söz demədim. Dolayı yolla bildim ki, elçilik məsələsindən qardaşımın xəbəri var. Əhmədin qüdrətli və qətiyyətli çöhrəsini, şirin təbəssümünü, hədsiz vüqar və sədaqətini olduqca çox sevirdim. İnsanlarla işləmişdim. Ləya mamanın dediyi kimi, on səkkiz yaşım təzə tamam olmuşdu, ağlımsa otuz yaşlı bir qadın qədər idi. İnsanları bir-biri ilə müqayisə edib bilirdim ki, bir də qarşıma Əhməd Yusifi kimi birisi çıxmayacaq. Yüz dəfə öz-özümə təkrarladım: "Mənim dünya malından əynimdəki bu formadan başqa bir şeyim yoxdur. Mən pasdaram, ölkəmiz müharibə vəziyyətindədir. Ola bilsin şəhid, ya da əlil oldum, məsələn, onurğa beynim zədələndi və ömür boyu əziyyətim sizin boynunuza düşdü. Bunların hamısını düşün. Elə bilmə ki, mənim yanımda rahat yaşayacaqsan, həyəcansız ömür sürəcəksən".

Mən Əhməd Yusifinin varlığına yenicə alışmışdım, onun yoxluğunu və ya əlilliyini necə təsəvvür edə bilərdim?! Onun coşqusunu, həyat dolu hənirtisini görməzdən gələcək qədər dərin təsəvvür!

Otağı süpürə-süpürə dodaqaltı oxuyurdum:

Bir müddət axar çay kənarında oturduq,
Dünyanın bütün sirri vardı o qara gözündə,
Mən tamaşaya qərq idim, deyildim özümdə.
Səma aydın, axşam sakit,
Bəxt gülür, zaman dinmir.
Ay salxımı tökülübdür suya,
Budaqlar əl sallayır göydəki aya.
Gecə, səhra, gül və daş,
Zöhrə olubdur bizlərə sirdaş.[1]

Ləya mama məndən şübhələnib dedi: "Qız, Fəxri... nə olub oxuyursan? Haçandır şeir oxumurdun!"

Adətən işləyəndə, ya da öz aləmimdə olanda dodaqaltı mahnı oxuyurdum. Atamla anamın bu adətimdən xoşları gəlirdi.

Həmin gün Ləya mamaya dedim:

– Mənim evlənməm barədə fikrin nədir?

– Heç nə, – dedi, – elə yalan de ki, inanım. Bilirəm ki, sən evlənən deyilsən. On səkkiz yaşında hələ də atasının dizi üstə oturan, xörək bişirməyi bacarmayan, qızıl taxmayan, səliqəli geyinməyən, çantasında krem və ətir yerinə boks əlcəyi, oraq və patron olan bir qızın evlənmək barədə düşündüyünə heç kim inanmaz.

Ürəkdən gülüb anamın üzündən öpdüm. 30 sm-lik xətkeş boyda kiçik orağı brezent çantamdan çıxarıb diqqətlə ona baxdı və dedi:

---

[1] Firudin Müşiri, "Küçə" şeiri.

– Ay Allah! Bunu niyə çantana qoyursan?

Orağı alıb:

– Kəndlilərə və buğda biçininə kömək etmək üçün ekskursiyalara gedirəm, böyük oraqlar əllərimi yara edir. Dadaş Ələddin Zəncan peşə məktəbinin direktoru olanda bu balaca orağı mənim üçün düzəltdirmişdi. Kim görürsə, xoşu gəlir, onu bir yolla məndən almaq istəyir, – dedim, orağı öpüb yenə çantama qoydum.

Ləya mama əllərini yaxınlaşdırıb uzun saçlarımı ehtiyatla tumarladı. Saçım belimə töküldü. Üzümdən öpüb həzin səslə dedi:

– Vay-vay, mənim nazlı qızım! Allah sənə ağıl versin!

Həqiqətən, məndən ötrü narahat idi. Özündə çox qadınlıq və analıq zərifliyi vardı, bizim həyatımıza səmimiyyət qatırdı. Onun bu xüsusiyyəti məndə kitab, ekskursiya, hərbi və tibbi yardım kurslarına qarşı sevgiyə çevrilmişdi; tam olaraq elə bir yaşda ki, o, məndən gözəllik, naz-qəmzə və bəzənmə gözləyirdi.

Nəhayət, atam cəbhədən gəldi. Təxminim düz imiş: qardaşımın Əhmədin mənə elçi düşdüyündən xəbəri vardı və bu, mənə ümid verirdi. Bir gün günortadan sonra saçımı darayıb səliqəli geyindim, gedib atamın dizi üstə oturdum, əlimi üzünə çəkdim, saçını nəvaziş etdim, əlindən öpdüm.

O da mənim saçımdan öpüb dedi:

– Nə olub? Mənim üçün darıxmışdın?

– Hə, – başımı yelləyib dedim, – ata, əgər ailə qurmaq istəsəm, icazə verərsən?

Atam gülüb eynilə anam kimi dedi:

– Elə söz de ki, inanım.

Gülmədim, saqqalını tumarlamağa davam edib dedim:

– Mən ailə qurmaq istəyirəm.

– Necə yəni?! Xanım Əhmədinin oğlu o qədər yaxşı, təhsilli oğlandır, qonşumuzdur, yaxşı tanıyırıq, amma sən elçi gəlmələrinə icazə vermədin. Düzdür, mən də razı deyildim, çünki hələ çox balacasan. İki bacın iyirmi üç yaşdan sonra ailə qurub. Bəs indi nə oldu ki, özün izdivacdan danışırsan?

– Əhməd Yusifi adlı bir pasdar var, yaxşı adamdır, mənə elçi düşüb.

"Pasdar" sözünü deyən kimi atam məni dizinin üstündən yerə qoydu və narahat halda dedi:

– Pasdar?! Heç adını tutma!

– Zəncan Bəsicinin komandiridir, yaxşı..

Atam sözümü kəsdi, yerindən qalxıb anamı çağırdı:

– Ləya, gəl gör Fəxri nə deyir, – dedi, sonra mənə yaxınlaşıb əlavə etdi: – Bax, qızım, istəyir ordu komandanı olsun, mən hərbçiyə qız vermərəm. Özüm otuz ildir hərbi xidmətdəyəm, çox çətinlik çəkmişəm!

Atamla tərslik etməyə başladım.

– Sən inqilabdan qabaq ordudan tərxis olunmuşdun. Əgər hərbçilik pisdirsə, bəs niyə yenə orduya qayıtdın? İndi ki kimsə səni məcbur etmir cəbhəyə gedəsən. Bəs niyə sənə pis deyil?

– Nə olub? – otağa yenicə gəlmiş Ləya mama soruşdu.

Atam narahat halda ona dedi:

– Sən başa sal, sən bir ömür hərbçi ilə yaşamısan, ora-bura sürünmüsən... tək qalmısan... hər an nigaran qalmısan ki, mənim ölüm xəbərimi gətirərlər. Bu qız da pasdarla evlənmək istəyir!

Ləya mama əli ağzında, gözləri bərəlmiş halda mənə yaxınlaşıb qarşımda dizi üstə oturdu:

– Fəxri, – dedi, – atan nə deyir?! Sən... ailə... pasdarla?!

Ona baxmamağa çalışdım, başımı aşağı salıb dedim:

– Bəli... Ələddin dadaş bilir. Çox gözəl və ləyaqətli insandır. Belə adamlara asanlıqla "yox" demək olmur. Haradan məlumdur ki, qarşıma bir də belə birisi çıxacaq?

Ləya mama bu sözlərin mənim ağzımdan çıxdığına inana bilmirdi. O dedi:

– Gözəl adam nədir? Ləyaqətli adam necə olur ki?

Əvvəlcə anamın yaşlı gözlərinə, sonra da başımız üstə həyəcanla dayanmış atama baxdım:

– Ləyaqətli, yəni dadaş Ələddin kimidir: düzgün adamdır, inqilabçıdır, dini və ölkəsi üçün canını verməyə hazırdır.

Bir-iki dəqiqə heç kim dinmədi. Ləya mama narahat halda qalxıb otaqdan çıxdı. Məni tanıdığına görə onun atamdan az təəccübləndiyini hiss etdim. Çünki mən onun aldığı rəngbərəng paltarlara fikir vermirdim, qızıl-zinət əşyası taxmırdım, özünün dediyi kimi, çantamda ətir və krem yerinə patron və oraq vardı. Atamsa heyrət içindəydi. Barmağını mənə doğru uzadıb dedi:

– Fəxri, mən onun elçi gəlməsinə icazə vermirəm. Sən də bu fikri başından çıxar. Hərbçinin ixtiyarı öz əlində deyil. İndi müharibə gedir. Sən belə çətin həyat üçün yetişdirilməmisən. İdeyalarından əl çək, qız, ağıllı ol!

Ertəsi gün Bəsicə getdim. Əhməd Yusifi otağına girirdi. Yaxınlaşdım, salam verib dedim: "Mən bu axşam məsələni atamla anama söylədim. Hər ikisi qəti etiraz etdi".

Əhməd Yusifi salamıma sakit şəkildə cavab verdi, gülümsəyib dedi:

– Buna cəsarət edib söyləməniz çox yaxşıdır. Narahat olmayın, biz ağa Ələddinlə danışıb elçilik gününü təyin edərik. Razısız?

– Çox yaxşı, – başımı yelləyib dedim.

Axşam Ələddin atama dedi:

– Sabah axşam şam yeməyini tez yeyərsiz, ya da qonaqlar gəlib-gedərlər, sonra şam edərsiz.

– Qonaqlar? – Ləya mama dedi.

– Elçi gələcək, – Ələddin cavab verdi.

Mövzunun ciddi olduğuna hələ inanmamış atamın üzü qızardı:

– Elçi nədir? Mən qızımı ərə vermirəm, – dedi.

– Adı Əhməd Yusifidir, korpusun ixlaslı və sayseçmə pasdarlarındandır. Onun kimi kürəkənlə fəxr etməliyik.

– Ələddin, sən bilirsən ki, mənə nə qədər əzizsən və mən həyat yolunu özünün seçmənə icazə vermişəm. Bilirəm ki, əyri yola düşməzsən. Amma Fəxri balacadır, zəifdir.

Ələddin ürəkdən güldü, məni göstərib dedi:

– Bu Fəxri sizinçün balacadır. Siz uşağınızı yaxşı tanımırsınız. O, iki ildir ən ağır hərbi təlimlər görüb, yardım üçün ucqar kənd və şəhərlərə gedib. Onun tacirlərdən Təbəsdə zəlzələdən zərər çəkənlər üçün on minlərlə tümən pul topladığını bilirsiniz?!

– Bunlar səbəb deyil.

– Niyə səbəb deyil? – deyə Ələddin təəccüblə atama baxdı. – Bir qız yalnız yaxşı qovurmaplov bişirəndən sonra ailə qura bilər?! Konstitusiya referendumunda Fəxri icra hakiminin nümayəndəsi kimi seçki qutusunu götürüb beş kəndə getmişdi: Səidabada, Qərçəyə, Şuraya... O, kəndli və əkinçilərə konstitusiyaya nə üçün səs verməli olduqlarını başa salmışdı. Ata can, bizim dövrümüz sizinkindən fərqlidir. İndi uşaqlar daha tez böyüyürlər, düşüncə, seçim və qərar qabiliyyətləri var. Daha yaşın azlığı və cüssənin zəifliyi meyar deyil.

Qardaşımın mənim şəxsiyyətimi və düşüncə tərzimi belə aydın şəkildə açıqlamasından, qəbul etdiyim qərarı

qətiyyətlə müdafiə etməsindən gözlərim yaşardı. Əhməd Yusifinin sözləri yadıma düşdü. O, ikinci görüşümüzdə demişdi: "Sən Seyid Ələddinin bacısısan, onun xüsusiyyətlərinin üçdə biri səndə olsa, belə yüksək dərrakəli və aydın düşüncəli bir adamla ailə qurmağı mənə nəsib etdiyinə görə Allaha şükür etməyə bilmərəm".

Ayağa qalxıb qardaşımın alnından öpdüm. Ləya mama dinmirdi. Başını yelləyib təəssüflə dedi:

– Hə, öp, bacısını belə qətiyyətlə müdafiə edən qardaşın ayağından da öpmək lazımdır. Amma Ələddin can, Fəxri can, sizin ayağınıza tikan batsa, mən ölərəm. Qızımın qürbətdə didərgin olduğunu görməyə dözümüm yoxdur. Qızım elə bir ər istəyir ki, güllənin, qanın, od-alovun ortasındadır.

Qardaşım başını aşağı saldı. O, Ləya mamanın yaşlı və narahat gözlərinə heç vaxt baxa bilmirdi. Atam tez-tez dərin nəfəs alıb başını yelləyirdi.

Ələddin atamın əlindən öpüb dedi:

- Sən mənə görə icazə ver, sabah gəlsinlər. Əhməd Yusifini görüb bəyənməsən, daha bir söz deməyəcəyəm. Sən həmişə mənə yaxşılıq etmisən, sənə yaxşı və saleh övlad olduğumu söyləmisən. Əhməd Yusifi məndən on qat yaxşıdır.

Anam ertəsi gün axşama dolma bişirdi. Ocağın qazını azca açdı, qərara alındı ki, saat səkkizin yarısında qonaqlar gəlsinlər, onlar gedəndən sonra şam edək. Evi təmizləmiş, stəkanları və nimçələri yuyub üzərlərinə dəsmal sərmişdik. Hər şey par-par parıldayırdı. Otaqlarımızı yenicə püstəyi rəngdə rəngləmişdik. Otağa boya və dolma qoxusu dolmuşdu.

Deyilmiş vaxtda gəldilər. Əhməd Yusifi hərbi geyimdə və yaşıl gödəkcədə anası və əmisi arvadı ilə gəlmişdi. Biz

illərlə Məşhəddə yaşadığımıza görə evdə türkcə danışmırdıq, Əhmədgil isə atamla türkcə danışırdılar. Dedilər ki, xeyir iş üçün gəliblər. Atam dedi: "Qonaq Allah qonağıdır! Qədəmləriniz gözlərimiz üstə! Amma mənim izdivac yaşında qızım yoxdur. Bir qızımın on səkkiz yaşı var, o biri isə ondan da kiçikdir".

Əhmədin anası təəccüblə ona baxdı. Əhməd özünü itirib dedi: "Biz korpusda və Bəsicdə işləyən xanım Musəviyə elçi gəlmişik".

Yandakı otaqdan hər şeyə nəzarət edirdim. Allah-Allah edirdim ki, qardaşım gəlsin. O gəlməsəydi, bütün plan pozulacaqdı. Əhmədə yazığım gəlirdi. Atam möhkəm qaya kimi dayanmışdı. Başını yelləyib dedi:

– Bəli, Fəxri xanımı deyirsiniz. Fəxri naz-nemət içində böyümüş bir qızdır. Evdə ondan öz boşqabını yumasını da gözləməmişik. O, ailə həyatına hazır deyil.

Əhməd özünün şirin təbəssümünü atama təqdim edib dedi:

– Ağa Musəvi, mən də ondan qab yumasını gözləmirəm, onu qab yumaq üçün istəmirəm. Siz seyidsiniz, sizə xidmət mənim borcumdur. Özüm onun qablarını və paltarlarını yuyacağam!

Tərk-silah olmuş atam dedi:

– Yox, mövzu qab və ya paltar yumaq deyil. Həyatın məsuliyyəti ağırdır. O, bu məsuliyyət üçün hələ balacadır. Mənim digər iki qızım iyirmi beş və iyirmi üç yaşlarında ərə gediblər. Həm təhsilləri bitmişdi, həm də işləyirdilər, maddi baxımdan müstəqil idilər. İndi bu qızın bu yaşda ailə qurmasına necə razılıq verə bilərəm?!

Mən podnosla otağa girib hamıya çay verdim. Atama çatanda düz gözlərimin içinə baxdı. Üzünün cizgiləri qarışmış, gözünün ağı qızarmışdı. O vaxta qədər mənə elə

qəzəblə baxmamışdı. Onda onun nə qədər narahat olduğunu hiss etdim.

Heç bir söz deyə bilməzdim. Ürəyimdə böyük həyəcan vardı, təşviş içindəydim. Saat doqquza az qalmış ayağa qalxdılar. Əhməd atama əl verib dedi: "Mən sizin razılığınızı əldə edə bilmədim. Bilirəm ki, seyidlərə kürəkən olmağa layiq deyiləm, amma..."

Əhmədin sözü bitməmiş qardaşım gəlib hamı ilə salamlaşdı və yenidən oturdular. Ələddin ağır ortamdan məsələnin nə yerdə olduğunu anladı, üzünü atama tutub dedi: "Əhməd Yusifi korpusdakı sayılıb-seçilən qardaşlardandır". Atam dedi: "Allah qorusun!" Qardaşım üzünü mənə tutub dedi: "Fəxrüssadat, imamın risaləsini mənə gətir".

Heç kim dinmədi. Soruşdum ki, risalə niyə? Dedi: "İşin olmasın, gətir".

Risaləni gətirdim. Açıb oxumağa başladı. Bir-iki dəqiqə hamı sakit qaldı. Sonra kitabı bağlayıb mənə verdi. Hərəkəti mənə qəribə gəldi. Ancaq ondan çox belə davranış görmüşdüm. Üzünü Əhməd Yusifiyə tutub dedi: "İnşallah, mübarəkdir! Siz ata-ananızla danışın, nişan üçün vaxt təyin edin, bizə xəbər verin".

Bu sözdən sonra Ələddin, mən və Əhməd birdən-birə bir-birimizə baxıb gülümsədik. Atam dizi üstə oturdu, nəsə demək istəyəndə qardaşım dilləndi: "Əgər icazə versəniz, digər sözlər qalsın nişan tarixini təyin edəndən sonraya. Biz qardaş Yusifi kimi bir kürəkənlə qürur duymalıyıq!"

Qonaqlar getdilər. Şam süfrəsi sərildi. Ləya mama birinci boşqabı atamın önünə qoydu. Atam üzünü Ələddinə tutub soruşdu:

– Mən indiyədək sənin sözünün üstünə bir söz demişəm?

Qardaşım başını aşağı salıb dedi:

– Yox, vallah, mən sənə çox borcluyam.

– Bəs nə üçün mənim razılığım olmadan camaata söz verirsən?

Anam ikinci boşqabı Ələddinə verib dedi:

– Atanı bu şəkildə pərt eləməyi səndən gözləməzdim.

Ələddin dedi:

– Nə pərt eləməyi, ana can?! İki qızı siz ərə vermisiniz, qoyun birini də mən verim. Əhməd Yusifini kürəkənliyə qəbul etmək daim qalacaq saleh əməldir. O, bizim ailəmizə daxil olduqda necə təmiz insan olduğunu görəcəksiniz. Belə bir insanı rədd etməməniz dünya və axirətiniz üçün yaxşıdır.

Ələddin hərarətlə Əhməd Yusifidən, onun şəxsiyyətindən danışdıqca mən də eşqlə ona baxırdım. Fikirləşirdim ki, bu qardaşımı necə çox sevirəm! Onun SAVAK-ın zindanından evə gəldiyi gün yadıma düşdü. Pəncərədən baxıb qamçıdan göyərmiş kürəyini görəndə canıma vəlvələ düşmüşdü. O, mənim vücudumun dərinliyindən danışırdı. Öz-özümə fikirləşdim ki, belə dəyərli, sədaqətli və doğruçu elçini necə rədd etmək olar? Əgər bu fürsətə arxa çevirsəydim, özümü borclu hesab edərdim.

Atam qızarmışdı. Üzünü Ələddinə tutub hirslə dedi:

– Sən mənim anama bənzəyən bu birdənə qızımı bədbəxt edəcəksən! Əhməd Yusifi pasdardır. Biz müharibə vəziyyətindəyik. Başına hansı bəlanın gələcəyi məlum deyil!

Atamın sözlərindən sonra sanki Əhmədin birinci görüşümüzdə dediyi sözləri eşitdim: "Mən pasdaram,

ölkəmiz müharibə vəziyyətindədir. Ola bilsin şəhid, ya da əlil oldum, məsələn, onurğa beynim zədələndi və ömür boyu əziyyətim sənin boynuna düşdü. Bunların hamısını düşün. Elə bilmə ki, mənim yanımda rahat yaşayacaqsan, həyəcansız ömür sürəcəksən".

Lakin mən kişinin bir idarədə işlədiyi, səhər gedib axşamüstü gəldiyi, yanımda oturduğu, birlikdə qovurmaplov yeyib televizora baxdığımız, günboyu gördüyümüz işlər barədə danışdığımız, bir müddətdən sonra uşağımızın olduğu və bütün vaxtımın analığa sərf olunduğu həyəcansız bir həyat istəmirdim.

Fikir və xəyallara daldığım yerdə Ləya mamanın qışqırtısını eşidib özümə gəldim. O, atama dedi: "Qız vermək istəmirsənsə, vermə, dolmanı niyə divara çırpırsan?!"

Atam süfrədən qalxıb getdi. Anam da divarı silməyə başladı. Bilirdim ki, vasvasılığına görə divar təmiz olmayınca gözlərinə yuxu getməz. Həmin gecə təxminən heç kim şam yemədi və dolmalar yerində qaldı.

# Beşinci fəsil

Elçilikdən bir həftə sonra alış-veriş üçün vədələşdilər. Ləya mama qardaşıma dedi:

– Mən bu ailə ilə bazara getməyəcəm. Çünki mən qızımı evləndirmək istəmirəm.

– Yaxşı, – qardaşım dedi, – özüm gedərəm.

– Biabır olarıq, – Ləya mama heyrətlə dilləndi. – Camaat nə deyər?! Harda görülüb ki, gəlinin qardaşı toy alış-verişinə getsin?!

– Onda özünüz gedin.

Ləya mama könülsüz şəkildə geyindi: şıq ətək-pencək, qara parıltılı çadra, dəri çanta və ayaqqabı. Mənə baxıb gördü ki, Bəsicə geydiyim paltarlar əynimdədir. Təəssüflə başını yellədi, üzündə kədər ifadəsi yarandı.

Əhmədin ailəsi iki-üç maşınla bizi aparmağa gəldi. Ləya mama dedi: "Əhməd ağa hanı?"

Əhmədin anası dinmədi. Utancaq, azdanışan qadın idi. Əmisi arvadı isə dilli və şən nəzərə çarpırdı. O dedi:

– Xanım Musəvi, bizim adətimizdə kürəkənin bazarda gəzməsi yoxdur. Bazarda Əhmədi hamı tanıyır, o, pasdardır.

Ləya mama:

– Bizdə də kürəkənsiz bazara getmək adət deyil, – dedi və maşına minməyib evə qayıtdı.

Az sonra hamımız maşınla Bəsicin qərargahına Əhmədin ardınca getməyə məcbur olduq. Əhməd bayıra çıxıb salam verdi.

Ləya mama dedi:

– Əhməd ağa, siz ailə qurursunuz, belə rahat ola bilməzsiniz. Gərək bazara gələsiniz, nə istəyirsinizsə, xanımınıza alasınız.

– Bəli, siz doğru deyirsiniz, – Əhməd dedi. – Ancaq indi mülki geyimim yoxdur. Korpus formasında da bazara gedə bilmərəm.

Əhmədin anası onun kürəyini sığallayıb dedi: "Eybi yox, oğlum, özümüz gedərik".

Ləya mama razılaşmayıb dedi:

– Heç bir eybi yoxdur, oğurluğa getmirsiniz ki! Bu geyimlə toy alış-verişinə getmək ayıbdır?! Heç kimin sizin formanızla işi yoxdur.

Qısası, beş-altı qadın bir pasdarın arxasınca Zəncanın Qeysəriyyə bazarında gəzməyə başladıq. Hamı bizə baxırdı. Bazar adamlarının çoxu Əhmədi tanıyırdı, Əhməd tez-tez əlini sinəsinə qoyub onlarla salamlaşmağa məcbur olurdu. Arxasınca qatar kimi düzülmüş bu qədər qadına görə utandığından üzü qızarmışdı. Çoxları məsələnin nə yerdə olduğunu bilib təbrik edirdilər. Ləya mama gec bəyənir, alış-verişi uzadırdı. Mənim üçün bir ətək-pencək və bir köynək seçdi, sonra isə Fransa istehsalı olan kosmetika dəstinə yaxınlaşdı. Mən markaları tanımır,

aldığı bəzi şeylərin nə üçün olduğunu bilmirdim. Ona deyirdim: "Ana, mən götürdüyün bu şeylərin hansı işə yaradığını bilmirəm, onlardan istifadə etməyi bacarmıram". O isə mənim sözlərimə qulaq asmırdı. Əhməd bir tərəfdə dayanır, anam bəyənəndən sonra yaxınlaşıb pulunu verirdi.

Ləya mama o qədər alış-veriş həvəskarı idi ki, paltar və kosmetika dükanlarının sahibləri onu tanıyırdılar, içəri girəndə ayağa qalxıb deyirdilər: "Salam, xanım Musəvi, xoş gəlmisiniz! Mübarək olsun!" Yataq paltarı almaq üçün mağazaya girəndə satıcıya dedi: "Ağa Beygi, lütfən keçən ay özümə aldığım mavi rəngli son model ipək yataq paltarının 36 ölçüsündən ver".

Əhməd başını aşağı salıb gülümsəyirdi. Mən bir gecə də görmədim ki, Ləya mama günboyu geydiyi paltarla, xalatsız yatmağa getsin.

Bütün bunlardan sonra növbə qızıl almağa gəldi. Ləya mamanın hər iki əli qızılla dolu idi. Məndən qızıl dəsti bəyənməmi istədi. Alış-verişin bu mərhələsinə qədər Əhmədin ailəsinin bir söz demədiyinə təəccüblənirdim. Ləya mama paltar və parçadan tutmuş kosmetik ləvazimata qədər hər şeyin ən yaxşılarını, ən bahalılarını seçirdi.

– Mən qızıl dəsti istəmirəm, - anama dedim.

– Məgər qızıl dəsti almamaq olar?! Gəlinin əli və boynu boş olmaz ki!

– Sən bilirsən ki, mənim qızıldan xoşum gəlmir, taxmıram.

– Eybi yox, taxma, amma al.

– Qızıl dəsti istəmirəm, – qətiyyətlə söylədim.

Axırda qaşlı bir gümüşü üzük götürdüm. Əhməd də qızıl taxan deyildi, dedi ki, kişiyə haramdır. Ləya mama da israr etməyib ona firuzə qaşlı bir üzük aldı.

Evə gələndən sonra anamla mübahisə başlandı.

– Sən özbaşına qızsan. Niyə qızıl almadın? – dedi.

– Sabah da Allahın günüdür, sabah alaram. Niyə israr edirsən ki, bütün alış-veriş bu gün olsun?

– Sən məni niyə aparmışdın? Mənim hörmətimi saxlamırsan! Bu gün ailəsi ordaydı, qızıl almadın, sabah alacaqsan?! Uşaq başı aldadırsan?! Bununla özünü dəyərdən salırsan.

– Mənim fikrimcə, heç kim qızılla, bahalı alış-verişlə dəyərli olmur!

Qərara alındı ki, bir neçə gündən sonra Tehrana nişana gedək. Mən istəyirdim ki, nikah əqdimizi imam oxusun. Əhməd hər şeyi düşünmüşdü. Öyrəndim ki, elçilikdən bir qədər qabaq çətinliklə imamın ofisindən təxmini razılıq alıb, qalıb nişanın dəqiq vaxtını söyləmək. Nişan zamanı bəlli olanda da ofisdən Əhmədə dedilər ki, bir neçə gündür imamın halı yaxşı deyil. Onlar razılaşdırmışdılar ki, parlamentə gedək və nikah əqdimizi ağa Haşimi Rəfsəncani oxusun.

Atam Ləya mamaya dedi:

– Mən Tehrana getməyəcəyəm, özünüz gedin.

– Mən qardaşımın böyük oğlu Seyid Şücanın toyuna getməliyəm. Getməsəm, ayıb olar, – anam dedi.

– Bəs mən nə edim? – çox narahat halda dilləndim.

Atam yanımda oturub əlimdən tutdu, mehriban şəkildə gözlərimin içinə baxıb dedi:

– Fəxri can, bu izdivac nə mənim ürəyimcədir, nə də ananın. Hələ geriyə yol var. Nə almısansa, hər iki gözüm üstə, pulunu verərəm. Gəl, bu fikirdən daşın.

Əlimi atamın əlindən çəkdim, həyəcanlanıb utansam da, dedim:

– Eybi yox, gəlməyin, özüm tək gedərəm. Mən qərarımı vermişəm. Əhməd Yusifi ilə ailə qurmaq mənim üçün şərəfdir.

Ertəsi gün səhər saat 7-də Əhməd ağ Peykan avtomobili ilə məni aparmağa gəldi. Atamla anam məni qapıyacan ötürdülər. Ləya mama Ələddinə dedi: "Sən onunla get". Ələddin Əhmədə baxıb güldü və dedi: "Mənim getməyimə ehtiyac yoxdur. Narahat edərəm".

Əhməd başını aşağı salıb bir söz demədi. Mən arxada oturdum. Hava soyuq idi. Ləya mama bir ədyal gətirib yanıma qoydu. Gözləri yaşarmışdı. Alnımdan öpüb dedi: "Əgər üşüsən, bunu üstünə ört".

Yolda çovğun vardı, qar yağırdı. Əhməd maşını yavaş-yavaş sürmək məcburiyyətindəydi. Danışmırdıq. Hər ikimiz narahat idik. Yalnız arabir deyirdi: "Birdən soyuq olar. İstəsən, ədyalı üstünə çək".

Qapının arasından dizlərimə bərk soyuq dəyirdi. Ədyalı ayaqlarımın üstünə atdım. Əhməd ilk dəfə bizim məktəbimizə çıxış etməyə gələndə geydiyi uzun yaşıl plaşını geymişdi.

O plaşı necə də sevirdim! Əhmədə çox yaraşırdı. Artıq onunla tək qalmışdıq, bir ailə olmağa gedirdik. Əhmədi ilk dəfə görəndə ondan necə xoşum gəldiyini xatırladım. Uzun yaşıl plaşı, xurmayı rəngli sıx saqqalı və açıq rəngli gözləri ürəyimcəydi. O vaxta qədər çoxlu pasdar görmüşdüm, kurslarda pasdar və bəsici qardaşlarla işləmişdim, amma heç kimə qarşı bu hissləri yaşamamışdım. Əhməd mənim fikrimcə, o qədər güclü, ciddi və mükəmməl görünürdü ki, onun ailəli olduğuna əmin idim, buna görə də onun barəsində bir an da

fikirləşməmişdim. İndi isə arxadan ona baxıb öz-özümə deyirdim: "Səni ilk dəfə görəndə, mənə fələstinli partizanları xatırladanda sənə aşiq oldum. Və nə qədər xoşbəxtəm ki, mən heç bir addım atmadan özün mənə elçi gəldin".

Özümü yüngül, xoşbəxt və qürurlu hiss edir, qeyri-ixtiyari olaraq gülümsəyirdim. Ədyalı ayaqlarımın üstündən çəkib üzümü qapının arasından gələn soyuğa yaxınlaşdırdım. Sərin külək yanaqlarımın hərarətini azaltdı. Dərin nəfəs alıb Allaha şükür etdim.

Günorta saat 2-də Tehrana çatdıq. Saat 3-də Haşimi Rəfsəncaninin ofisində olmalıydıq. Əhməd yolda bir neçə dəfə məndən soruşdu ki, ac deyilsən? Mən ac deyildim. Aşiq olandan sonra günlərlə susuz, yeməksiz yaşaya bilirsən. Yalnız havaya ehtiyacım vardı və mən Əhmədin ən yaxın məsafədə nəfəs aldığı havanı udurdum.

Haşimi Rəfsəncaninin ofisində çox adam vardı. Ağ kostyum və göy qalstuk geymiş iki ucaboy kişi ondan müsahibə alacaqdı. Yanlarında gənc bir xanım da vardı, ətəyi qısa idi. O, gözucu Əhmədlə mənə baxıb ətəyini dizlərinə tərəf dartırdı. Deyəsən, Fransadan gəlmişdilər.

Onların işi bitəndən sonra bizə dedilər ki, içəri girin. Ağa Rəfsəncani bizi təbəssümlə qarşılayıb təbrik etdi. Ofisinin rəhbəri ona dedi: "Ağa Yusifi Zəncan pasdarlarındandır, əqd üçün gəliblər". Stolunun üstündə bir qutu şirniyyat vardı. Bizə təklif etdi. Axşamdan bəri yediyim ilk şey oldu.

Ağa Rəfsəncani dedi:

– Gəlinin atasını çağırın, gəlsin.

– Onun atası gəlməyib, Zəncandadır, – Əhməd dedi.

– Doğrudan?! Yalnız özünüz gəlmisiniz? Necə də müasir! Yəqin ki, onun əlyazması sizdə var, eləmi?

– Yox, təəssüf ki, əlyazması da yoxdur.

– Təəssüf ki, biz də atanın icazəsi olmadan qızına əqd oxuya bilmərik.

– Əgər telefonla icazə versə, mümkündür? – Əhməd bir qədər düşünəndən sonra soruşdu.

– Bəli, qəbuldur, – o gülümsəyib cavab verdi.

Əhməd Zəncan korpusunun telefon nömrəsini onun katibinə verib dedi: "Korpusun komandiri ağa Xirədmənd onun atasının yanına gedəcək".

Bizdə telefon yox idi. Bəlkə də, on beş dəqiqə çəkdi. Həyəcandan başım ağrımağa başlamışdı. On beş dəqiqə mənim üçün bir il qədər uzun keçdi. Qorxurdum ki, atam icazə verməz. Əhmədin də narahat olduğu bilinirdi; tez-tez əllərini ovuşdurur, saata baxırdı. Az sonra telefondan atamın səsi gəldi. Ağa Rəfsəncani onunla hal-əhval tutandan sonra dedi:

– Siz qızınızın Əhməd Yusifi ilə nikah əqdinin oxunmasına razısınız?

– Hər ikisi bu nikaha razı olduqlarına görə mən də razılıq verirəm, – atam dedi.

Telefon səsucaldan rejimində idi. Əhmədlə mən, bəlkə də, ilk dəfə bir-birimizə baxıb ürəkdən güldük. Ağa Rəfsəncani də gülüb atamla sağollaşdı və Əhmədə dedi:

– Mehri nə olacaq, ağa Yusifi?

– O nə istəsə, – Əhməd mənə baxıb dedi.

Rəfsəncani üzünü mənə tutub dedi:

– Mehr olaraq nə istəyirsən, qızım?

Nə deyəcəyimi bilmirdim. Dedim:

– Siz nə desəniz.

Gülüb dedi:

– Bir Quran, həzrət Zeynəbin ziyarəti və həzrət Zəhranın mehrüs-sünnəsi. Qəbuldur?

– Bəli.

Haşimi Rəfsəncani mənim vəkilim oldu. Onun yanında bir seyid ruhani oturmuşdu. O vaxta qədər onu tanımırdım. Ağa Haşimi üzünü ona tutub dedi: "Ağa Daneş, siz də kürəkən tərəfindən vəkil olun".

İkisi xütbəni oxudu. Onlarla sağollaşıb otaqdan çıxdıq. Əhmədin, həm də özümün istəyimlə maşının ön oturacağında oturdum. Bir saat gəzib bir şirniyyat mağazası tapdıq. Əhməd şirniyyat aldı, aparıb Rəfsəncaninin ofisinin rəhbərinə verdik. Saat 5-in yarısı olmuşdu. Əhmədin Tehranda yaşayan bacısı Səkinə xanım bizi evinə dəvət etmişdi. Onun evi Rəfsəncaninin ofisinə uzaq idi.

Əhmədlə danışmaq istəyirdim, amma nə deyəcəyimi bilmirdim. O da həyəcanlı idi, mənimlə göz-gözə gəlməməyə çalışırdı.

Səkinə xanım Əhmədlə məni görüb çox sevindi. Hər ikimizin üzündən öpdü, gözaydınlığı kimi mənə bir qızıl boyunbağı hədiyyə etdi. Kərəviz xuruşunun ətri evi bürümüşdü. İkimərtəbəli ev idi, balaca həyəti vardı. Saatda bir dəfə təyyarə səsinə oxşayan hündür bir səs gəlir və yer titrəyirdi.

Mənə maraqlı gəldi, Səkinə xanımdan soruşdum:

– Bu nə səsidir?

– Evimizin yaxınlığında dəmiryol xətti var. Qatar keçəndə belə səs gəlir.

Əhmədlə mən iyirmi dörd saat idi xörək yeməmişdik. Tez şam etdik. Şamdan sonra Əhmədlə Səkinə xanımın əri ağa İsmayıl bir az söhbətləşdilər. Əhməd dedi ki, səhər tezdən getməliyik, tez yatsaq, yaxşı olar. O, koridorda yatmaq istəyirdi. Amma ağa İsmayıl döşəyi əlindən alıb

zarafata və gülə-gülə dedi: "Əsla olmaz! Bəylə gəlin bir yerdə yatmalıdırlar!"

Təkcə çadramı çıxarıb çarpayıda yatağın üstündə oturdum. Özümü itirmişdim. Dünənə qədər mənim rəisim və mənə çox yad olan bir kişi ilə indi bir otaqda yatmalı idim. Əhməd də narahat idi. Bunu üzünün qızarmasından, hərəkət və davranışlarındakı çaşqınlıqdan anlayırdım. Bir neçə dəqiqə yatağımıza baxdı, sonra bir ədyalı mənim üçün, birini də özü üçün sərdi, üzümə baxıb təbəssümlə dedi: "Sən narahat olma. Mən üzü o tərəfə yatacağam ki, rahat uzanıb istirahət edəsən".

Donmuş nəfəsimi rahat şəkildə buraxdım. Bütün vücudum Əhmədə təşəkkür hissi ilə dolmuşdu. Qalxıb onu öpmək istəyirdim; atamın üzündən eşq və təşəkkürlə öpdüyüm kimi. Gülümsəyib dedim: "Sağ ol". Sonra Əhməd işığı söndürüb dedi: "İndi yat".

Manto, şalvar və yaylıqla uzandım. Əhməd birnəfərlik ədyalı üstümə çəkib dedi: "Gecən xeyrə, Fəxrüssadat xanım!" Bu cümlə ürəyimə elə oturdu ki, yatana qədər dəfələrlə öz-özümə təkrarladım: "Gecən xeyrə, Fəxrüssadat xanım!"

Səhər tezdən, yemək yeməmiş Zəncana yola düşdük. Yolda güclü qar-boran vardı. Yenə Əhmədlə tək idik. Yenə həyəcan, narahatlıq, eşq və bir-birimizdən aldığımız hərarət. Əhməd dinmirdi. Mən də danışmırdım. Bir saat sükut içində ötdü. "Sən məndən böyüksən, kişisən, sən başlamalısan!" – deyə öz-özümə düşündüm. Əhməd sanki ürəyimin səsini eşidib söhbətə başladı:

– Bilirsən, seyid xanım, erkən İslam çağında qara bir kişi vardı, göyçək deyildi, məscidin küncündə tək yaşayırdı. Bir gün həzrət Məhəmməd (s) ona buyurdu: "Nə yaxşı olardı ki, ailə qurardın, həmdəmin, sirdaşın olardı,

tək qalmazdın!" Qara kişi dedi: "Ey Allahın rəsulu, hansı qadın mənim kimi qara və yoxsul birinə gələr?!"

Əhməd tələsmədən, ağır-ağır danışırdı, mənə çox hörmətlə "seyid xanım" deyə müraciət edirdi. O, mənim seyid olmağıma çox böyük dəyər verirdi.

Bütün vücudumla dinləyirdim. Birlikdə olduğumuz iyirmi dörd saatdan sonra Əhmədin ilk uzun söhbətini eşidirdim. Kişi nəfəslərinin hərarəti ürəyimi titrədirdi. Dönüb üzünə baxdım. O da gözlərini qarlı yoldan çəkib üzümə baxdı. Baxışı mehriban və sevimli idi. Gülümsəyib dedi: "Yanaqların qızarıb. Gözlərinin rəngi necə gözəldir! Onları heç vaxt belə görməmişdim".

Tez başımı aşağı saldım, xəcalətimdən üzüm qızdı, amma şüşəni aşağı çəkmədim. Halımı duymasını istəmirdim. Çalışırdım elə rəftar edim ki, sanki hər şey normaldır. Elə bil qısa müddətdə bir-birimizi yaxından tanımışdıq. Bütün vücudumuzla bir-birimizi istəyirdik. Qəribə hiss idi. Yavaşca soruşdum: "Ərəb kişi ailə qurdu?"

– Hə... qara ərəb kişi Peyğəmbərin vasitəçiliyi ilə əsil-nəsəbli bir ailədən çox gözəl bir qızla evləndi. Amma bir müddətdən sonra Peyğəmbərə xəbər gətirdilər ki, qız narazıdır. Peyğəmbər qızı görmək istədi. O, Peyğəmbərin yanına gəldi. Peyğəmbər soruşdu ki, niyə narazısan? Qız dedi ki, yoldaşım çox mömin və mehriban kişidir, onu sevirəm, amma o, mənimlə danışmır, məndən uzaq gəzir, yalnız ibadət edir. Peyğəmbər təəccüblənib ərəb kişini çağırdı və qızın yanında ondan soruşdu: "Sənin belə yaxşı həyat yoldaşın var, nə üçün onunla danışmırsan, niyə ondan qaçırsan?"

Əhməd yenə dinmədi. Mənsə ərəb kişinin gözəl qızla nə üçün danışmadığını, niyə ondan uzaqlaşdığını bilmək istəyirdim. "Ardı nə oldu?" deməyə utanırdım. Mən də

sakit qaldım. Bu zaman ayağım qapının yanındakı sellofana dəydi və onun səsi gəldi. Baxıb gördüm ki, Səkinə xanım maşına iki alma, iki portağal və bir meyvə bıçağı qoyub. Almaları götürüb soydum, Əhmədə uzadıb dedim:

– Buyurun.

Əhməd almanı alıb gülümsədi və dedi:

– Heç vaxt belə isti qış görməmişəm!

Pəncərənin yarısı açılmış şüşəsindən salona soyuq külək girir, balaca isti salonda dolaşırdı. Dərindən nəfəs alıb dedim:

– Ərəb kişi davranışının səbəbini Peyğəmbərə söylədi?

Əhməd başını yellədi, ürəkdən gülüb dedi:

– Bəli... bəli... söylədi. Peyğəmbərə dedi ki, Allahın mənə belə bir həyat yoldaşı qismət edəcəyi yatsam, yuxuma girməzdi. O, gözəl, ismətli və imanlı qadındır. Mən şükür halındayam. Gərək bu nemətin haqqını verim. Şükrüm bitəndən sonra ona xidmətçi olacağam.

Yenə gözlərini yoldan çəkdi, üzümə baxıb əlavə etdi:

– İndi mən həmin qara ərəb...

– Şüşəni qaldıra bilərsiz? – sözünü bitirməyə qoymayıb dedim. – Üşüyürəm.

Əhməd şüşəni qaldırdı. Özümü yüngül və şən hiss edirdim. Düşünürdüm ki, ömrümdə heç vaxt özümü bu qədər xoşbəxt hiss etməmişəm. Daha Əhməddən uzaqlaşmırdım, onun yanında özümü rahat hiss edirdim. Yuxum gəlirdi. Gözlərimi bağlayıb başımı oturacağa söykədim və onun "Gecən xeyrə, Fəxrüssadat xanım" cümləsini dəfələrlə beynimdə səsləndirdim.

Gecə saat 11-də Zəncana çatdıq. Ləya mama ilə Ziya ata məni görəndə gözləri yaşardı. Atam məni qucaqlayıb

dedi: "Cəmi bir gecə olmamısan, elə bildim ki, bir ildir yoxsan". Əhməd şam edib getdi.

Əhmədlə tam səmimi olana qədər təxminən iki həftə ötdü. Onun bu qədər zarafatcıl və gülərüz olduğunu düşünməzdim. Daim mənimlə zarafatlaşır, hər bir bəhanə ilə güldürməyə çalışırdı. Bu Əhməd təlimçi və komandir olan ciddi və güclü Yusifi ilə yerlə göy qədər fərqlənirdi. Onun hər iki şəxsiyyəti mənim üçün gözəl idi. Ona günbəgün daha çox bağlanırdım.

Mən bu müddətdə qaçqınlara hərbi təlim təşkil etdim. Qəsri-Şirin və Sərpol Zəhabdan gəlmiş qaçqınlar Zəncanda bina evlərində qalırdılar. Silahları korpusdan təhvil alır, avtomobil az olduğuna görə taksi tutub yeddi-səkkiz silahı baqajına qoyurdum. Zavallı sürücülərin üzlərindən bilinirdi ki, həm bu qədər silah-sursat aparmağa qorxurlar, həm də azyaşlı bir qızın bu işlərinə təəccüblənirlər. Amma cınqırlarını çıxarmır, nə deyirdimsə, "baş üstə" deyə cavab verirdilər.

Qaçqınları qruplara bölür, evlərdə hər qrupa silahları açıb-bağlamağı, onlardan istifadə etməyi, təcili tibbi yardımı və digər məsələləri öyrədirdim. Biz müharibə vəziyyətindəydik, hamı silahdan istifadə etməyi bilməli idi.

Orada bir qədər kürd dilini öyrəndim. Mehriban və qonaqpərvər insanlar idilər. Qızları ilə dostlaşdım. Mənə bir dəst çox gözəl kürd paltarı hədiyyə etdilər. Qızlarla tək olanda kürd paltarını geyir, bəzi cümlələri onlar kimi kürdcə söyləyirdim. Onlar əzab çəkmiş, ən əziz adamlarını itirmiş, evlərindən didərgin düşmüşdülər. Əhməd deyirdi: "Bu işləri artır, onlarla səmimi ol, de-gül. Onların yüksək əhvali-ruhiyyəyə ehtiyacları var, bu şəhərdə özlərini qərib hiss etməməlidirlər".

Bəzən Əhməd də mənə qoşulurdu, birlikdə onlarla bir süfrədən yemək yeyirdik. Fərqli bir nişanlılıq dövrü yaşayırdıq.

Nişanımızdan təxminən iki həftə sonra Əhməd gözlənilmədən bizə gəldi. Qapını özüm açdım. Çox təəccübləndi. Məni ilk dəfə idi hicabsız görürdü. Parlaq parçadan klyoş qollu dar köynək geymişdim. Köynəyin yeri bozumtul-yaşıl rəngdə idi, üstünə yaşıl və mavi kəpənəklərlə naxış vurulmuşdu. Ağırlığım 50 kq olmazdı, saçım isə belimə çatırdı. Əhməd məni görüb pıqqıltı ilə güldü, əlimdən tutub dedi:

– Gəldiyimi bilirdin?

– Yox.

– Bəs bu daranmış saç və gözəl köynək nə deyir? Sən həmişə evdə belə şıq geyinirsən?

– Yox... – gülüb dedim, – bunlar Ləya mamanın işləridir. Nişanımızdan iki-üç gün sonra öz zövqü ilə parça alıb dərziyə bir neçə köynək sifariş verdi. Məni məcbur edir ki, hər gün birini geyim. Deyir ki, nişanlı qız evdə gözəl və səliqəli geyinməlidir.

Əhməd gülür, gözlərini məndən çəkmirdi.

– Atanla danışmaq istəyirəm. Evdədir? – deyə soruşdu.

– Bəli, evdədir. Nə barədə?

– İstəyirəm ki, tezliklə ailə həyatımıza başlayaq.

– Bu tezliyə? – təəccüblə ona baxıb soruşdum.

– Tez?! Biz gərək birinci həftədə bir dam altına girəydik. Hələ gecikmişik.

Atam razılaşmayıb dedi:

– Çox tezdir. Hələ nişanınızdan bir ay keçmir. Fəxrinin cehizləri də hazır deyil.

– Ata can, siz mənə bu qədər yaxşı qız vermisiniz, mən cehiz istəmirəm. Allaha şükür, bədənimizin dörd sütunu da sağlamdır. İşləyəcəyik, nə lazım olsa, alacağıq.

Ləya mama da belə tez, bütün cehizlər alınmadan köçməyimə razı deyildi. Özünün dediyi kimi, iki bacımı başucalığı ilə bəxt evinə köçürmüşdü. Oturub təəccüblə mənə baxır, təəssüflə başını yelləyirdi: "Yəni ev əşyalarını özünün seçib almağın sənin üçün əhəmiyyətli deyil? Zövqün hara gedib?!"

Deyirdim ki, məgər həyat zövqü hər gün qab-qacaq və taxta-tuxta almaqdan ötrü bazara getməkdədir?

İki aydan artıq nişanlı qalmadım. Əşyalarımızın bir hissəsini ata-anam aldı, bir hissəsini də Əhməd. Bir qədər cehiz hazır olandan sonra 1981-ci ilin 5 iyununda – ad günümdə Qum şəhərinə bal ayına getdik. Həmin gün İmam Hüseynin (ə) doğum gününə təsadüf edirdi. Əhməd öz zövqü ilə ad günü hədiyyəsi olaraq mənə gözəl bir köynək aldı. Çox sevinirdi, təbəssüm bir an da üzündən əskilmirdi. Mən də ona bir “Tea rose” ətri alıb bayramını təbrik etdim. Məqbərəyə geymək üçün hərbi formasını da gətirmişdi. O, pasdar nişanını fəxr medalı və İmam Hüseynə (ə) eşqinin timsalı bilirdi.

Biz Qumdan qayıdanda artıq cehizləri Əhmədin anasıgilə aparmışdılar. Əhmədin bacı-qardaşları, əmiqızı və əmioğluları, habelə bizim ailə ilə birlikdə şam yeməyinə Əhmədin anasına qonaq olduq. Mən Ləya mamanın nişan alış-verişində bəyəndiyi gözəl çəhrayı ətək-koftanı geymiş, başıma ağ ipəkdən gəlinlik çadramı atmışdım. Heç bir çalıb-oynamaq olmadı, hətta şəkil də çəkdirmədik. Ləya mama narahatlıqdan az qala infarkt olacaqdı. Mənim rəftarım təmtəraqlı toyla və ağır cehizlə

bəxt evinə yollanmış bacılarım Əşrəflə Zəhraya da qəribə gəlirdi.

Əhmədin anasıgilin evi kiçik idi. Biz Hava limanı məhəlləsində, anasıgilə yaxın bir yerdə bir ev kirələdik. Birinci mərtəbədə ev sahibi yaşayırdı, ikinci mərtəbədə iki iç-içə otağı və balaca bir mətbəxi vardı. Çox olmayan əşyalarımızı apardıq: bir xalça, qaz ocağı, soyuducu və qab-qacaq. Hədiyyə qutularını açanda Əhmədlə xeyli gülüşdük. Bizə on altı dəst meyvə bıçağı, on iki divar saatı, üç ventilyator və dörd dəst teflon qazan gətirmişdilər. Əhməd dedi: "Bir mağaza götürüb bunları satışa qoyarıq". Mən də gülüb dedim: "Hə, məncə, gəliri korpusun maaşından çox olar".

Beləliklə, Əhmədlə ailə həyatımız rəsmən başlandı. Ailəm mənim davranışımı təsdiqləmirdi, bu həyat onlara kiçik gəlirdi. Ancaq mən razı idim, Əhmədin yanında özümü xoşbəxt və tam təhlükəsiz hiss edirdim.

Paltaryuyan maşınımız yox idi. Əhməd özü paltar yuyur, xörək bişirirdi. Mən soyuqlayanda özü şorba hazırlayır, yanımda oturub qaşıqla mənə yedirdirdi. Sevgisinin gerçək olduğunu hiss edirdim. Tez ona bağlandım, ondan iki saat da ayrı qala bilmirdim. O, Zəncan korpusunun Logistika rəisi idi; səhər tezdən işə gedib günbatan çağı qayıdırdı.

İşdən gələndə eşqlə əyilib atamın çəkmələrinin bağını açdığım kimi onun çəkmələrinin bağını da açmaq istəyirdim. Əlbəttə, o, heç vaxt buna imkan vermirdi. Ancaq onu qucaqlayır, uşaq kimi atılıb boynundan asılırdım. Əvvəldə bu rəftarım ona qəribə gəlirdi, amma get-gedə alışdı. Bu ədalarımdan xoşu gəlir, ürəkdən gülürdü.

Televizorumuz yox idi. Bazar ertəsi günləri ona deyirdim ki, məni mütləq atamgilə aparmalısan. Saat 5-də uşaq və yeniyetmə proqramı başlayırdı. Bir dəfə televizorun önündə oturub cizgi filminə baxdığım yerdə Əhməd mənə baxıb güldü, Ləya mamaya dedi: "Arvad almamışam ki, uşaq almışam; oturub multfilmə baxır". Sonra əlimdən tutub Ləya mamaya göstərdi və dedi:

– Görün əlinin arxası necə yara olub. Dünən ilk dəfə paltar yuyub. Paltarı paltara sürtmək yerinə əlinin arxasına sürtürmüş!

Ləya mama dedi:

– Mən dedim ki, Fəxri ev işlərini bacarmır. Sən də dedin ki, eybi yoxdur.

– İndi də deyirəm ki, eybi yoxdur, – Əhməd gülüb dedi. – Yavaş-yavaş öyrənir. Hər halda, əsgər də hərbi xidmətə gedəndə öz tavasını yumağı öyrənir.

Atam hərbçi idi, bu məsəlləri bilirdi. Bərkdən gülməyə başladı. Get-gedə Əhməddən xoşu gəlirdi. Mənim nə qədər sevindiyimi və xoşbəxt olduğumu görəndə o da sevinirdi.

Bir neçə gündən sonra Əhməd narıncı çərçivəsi olan balaca bir ağ-qara televizor alıb evə gətirdi. Günorta idi, nahar hazırlamışdım. Televizoru görüb o qədər sevindim ki, Əhmədə dedim, tez onu açsın. “Xəbərlər” proqramının vaxtı idi. Televizoru açan kimi Ayətullah Xameneiyə qarşı sui-qəsd xəbərini eşitdik. Deyəsən, münafiqlər tribuna üzərindəki maqnitofona bomba yerləşdirmişdilər.

O, Tehranın cümə imamı və İmam Xomeyninin Ali Müdafiə Şurasında nümayəndəsi idi. Əhməd çox narahat oldu. Bir yerdə qərar tuta bilmirdi. Televizor almağın sevinci yadımızdan çıxdı. Deyirdi ki, belə səhlənkarlıq

etmək olmaz; bu inqilab daha nə qədər kadrını itirməlidir?!

Həmin günlərdə Xalq Mücahidləri Təşkilatı silahlı fəaliyyətlərə başlamışdı, mümkün olan hər bir yerdə terrora əl atırdı.

Ertəsi gün də İslam Respublikası Partiyasında partlayış baş verdi, Ayətullah Behişti və çoxlu inqilabçı dövlət məmuru şəhadətə qovuşdu.

Əhməd günortadan sonra evə gəldi. Mən çox narahat olub ağlayırdım. Əhmədsə sakit idi, fikrə dalmışdı, danışmırdı. Onun yanında oturdum, nə fikirləşdiyini soruşdum. Dedi:

– Yadındadır, nikah əqdimiz oxunanda mənim vəkilim kim oldu?

– O seyidi deyirsən? Yox, adı yadımda deyil. Nə olub ki?

– Seyid Kazim Daneş. Bugünkü partlayışda o da şəhid oldu!

Ağladığım yerdə nikah əqdimizin oxunması yadıma düşdü, Şəhid Daneşin sakit siması və şirin təbəssümü gözlərim önündən keçdi.

Əhməd birdən yerindən qalxıb dedi:

– Qalx, bayıra çıxaq.

Adətən haraya getmək və nə etmək istədiyini soruşmazdım. Təbriz magistralına, gözəl yaşıl bağlar olan yerə getdik. Yay fəsli, axşamüstü, hava sərin idi. Magistralın xüsusi səfası vardı. Əhməd dinmədən avtomobili idarə edirdi. O, ağacların budaqları palçıq divarlardan sallanmış bir bağ küçəsinin sonunda dayandı. Bir qədər heç kim danışmadı. Əhməd mənə sarı döndü, əllərimi tutub tumarladı, öpdü və gözlərini gözlərimə

dikdi. Qəribə hisslər keçirirdim. Sanki Əhməd gedəsi idi; sanki məni bu sakit bağlara vidalaşmağa gətirmişdi.

Narahat halda soruşdum:

– Nəsə olub?

Oturacağa söykəndi, sol əlimdən tutduğu halda dedi:

– Fəxri can, özün bilirsən ki, səni çox sevirəm. Allah şahiddir ki, ondan sonra hər kəsdən çox sevdiyim sənsən.

– Mən də həmçinin, – sakitcə dedim.

– Ancaq bilməlisən ki, mən bir pasdaram. Mənə görə, pasdarlıq Allah yolunda cihaddır, şəhadətdir. Sən mənə könül verməməlisən, mənə bağlanmamalısan. Xüsusən də terror aktlarının belə bir durumunda hər bir hadisə baş verə və mən şəhid ola bilərəm.

Nə dediyini başa düşürdüm, amma onu o qədər sevirdim ki, bu sözləri söyləməsini istəmirdim. Yavaşca ağladım. Yaxşı ki, qaranlıqdı və o, mənim göz yaşlarımı görmürdü.

Bağların arasında yarım saat gəzəndən sonra evə qayıtdıq.

Həmin gecə böyük həyəcanım vardı, yata bilmirdim. Əhmədin məni çox sevməsi ilə bərabər, şəhadətdən və getməkdən danışdığına görə narahat idim. Düzdür, mən çoxlu pasdarların şəhadətini görmüşdüm, atam da buna görə bizim izdivacımıza qarşı çıxırdı. Mən özüm hərbi təlimçi idim, poliqona gedirdim, silah dolu maşınla şəhərdə gəzirdim. Münafiqlərin şəhərdə fəal olduqlarını da bilirdim. Amma qorxmurdum. Hətta həmin günlərdə Zəncanın Şəhidlər məzarlığının yaxınlığında Mürtəza İzzəti adlı bir bəsicinin şəhadətinə də şahid olmuşdum. Mən səki ilə məzarlığa doğru gedirdim. Münafiqlər onu mənim gözlərim önündə avtomatla vurdular və o, motosikletin üstündən yerə yıxıldı, "ya Hüseyn" deyib

şəhadətə qovuşdu, gözlərim önündə can verdi. Bəs indi Əhmədin onun şəhadətini gözləməli olduğumu, bu hadisənin gec, ya tez baş verəcəyini söyləməsi mənə niyə bu qədər təsir edirdi? Qardaşım Ələddinin sözləri yadıma düşdü: "Biz inqilab etməklə böyük bir seçim etmişik və bunun bədəlini ödəməliyik!"

Öz-özümə fikirləşdim ki, Əhmədi seçməyin bədəli də onu itirməkdirmi? Həmin gecə sübhə qədər yatmadım, inqilabdan öncəki günlərdə gördüyüm yuxunu tez-tez xatırladım: Bütqıran İbrahim (ə)... həzrət Fatimə (ə)... İmam Həsən və İmam Hüseyn (ə)... qana bələşmiş başlar, onların bütün ətrafında yerə yıxılmış bədənlər... Mən yuxuda onların şəhidlər olduğunu bilirdim. Əhməd... mənim həyat yoldaşım... Həzrət Zəhranın və övladlarının ətrafındakı şəhidlərdən biri o idi.

Hava işıqlaşırdı. Ayağa qalxıb dəstəmaz aldım, namaz qıldım. Dua etdim ki, qəlbim sakitləşsin və Allahın istəyinə razı olum. Bir də yatağıma girib iki saat yatdım. Yuxuda kimsə məndən soruşurdu ki, Əhmədin şəhid olmasına razısanmı? Mənsə bir söz deməyib ancaq ağlayırdım.

Həmin gün günortadan sonra Əhməd xəbər göndərdi ki, korpusa gedim. Deyəsən, Xalq Mücahidləri Təşkilatının komanda evlərində kişilərlə birlikdə yaşayan, şəhərdə iğtişaş törədən, terrorçuluqla məşğul olan qızlardan on-on beş nəfəri tutmuşdular. Əhməd dedi ki, bunlar təcridxanaya girmək istəmirlər, xanım olduqlarına görə də qardaşlar onlara toxuna bilmirlər. Biz beş xanım idik, onlarsa daha çox; üstəlik, iri cüssəli və güclü idilər. Onları çətinliklə təcridxanaya sala bildik. Çox döyülüb söyüldük. Bizə və korpusdan olan qardaşlara ağır söyüşlər verirdilər.

Mənim üz-başımı cırmaqlamış, qolumun bir neçə yerini dişləyib qanatmışdılar.

Şam namazı vaxtı dedik ki, kim istəyirsə, gəlib dəstəmaz alsın. Dedilər ki, biz namaz qılmırıq. Soruşduq ki, niyə? Dedilər ki, aksiya halındayıq. Onlar bir gecə orada qalandan sonra Tehrana göndəriləcəkdilər. Xülasə, həmin gecə Əhməd növbətçi olduğuna görə mən evə qayıtdım.

Ertəsi gün Əhməd evə gəldi, revolver tapançasını kəmərindən açıb taxçanın üstünə qoydu. Mən revolveri çox sevirdim, maqazini fırlananda çaqqıldayırdı. Tapançanı götürüb qarşıdakı divarı nişan aldım. Adətən bir patron yerini boş qoyurduq ki, tətik təsadüfən çəkilsə, atəş açılmasın.

Əhməd gəlib tapançanı əlimdən aldı və dedi:

– Gərək axşam ağa Heydərigilə gedəsən.

– Hansı Heydəri?

– Zəncan Təhsil idarəsinin sədri. O, Tehrana ezamiyyətə gedib, xanımı və uşaqları təkdirlər. Evlərinin ətrafında münafiqləri görüblər. Korpus ona mühafizəçi ayırmaq qərarına gəlib.

– Eybi yox, gedərəm, amma silahlı getsəm, yaxşıdır.

Əhməd tapançanı verib dedi:

– Silahlı get, amma ehtiyatlı ol, bir hadisə baş versə, boşuna atəş açmayasan. Güllə hədər getməsin.

İnciyib dedim:

– Deyəsən, yadından çıxıb ki, müəllimim sən olmusan, sənin ən yaxşı şagirdin də mən.

– Diqqətini cəmləyəsən deyə söylədim, – Əhməd gülüb dedi.

Məni Heydərinin evinə aparıb özü geri qayıtdı. Xanım Heydərinin üç balaca uşağı vardı, qorxurdu. Münafiqlər

öncədən də ağa Heydəriyə qarşı sui-qəsd etmişdilər. Gecə yataqlarını sərəndə mən də ədyal götürdüm. Təəccüblə mənə baxıb dedi:

– Sən də yatacaqsan? Sən yatacaqsansa, mən oyaq qalaram!

– Yox, yatmıram, uzanıb vəziyyətə nəzarət edəcəm. Siz uşaqlarla rahat yatın.

Həmin gecə sübhə qədər yatmadım və Allahın köməyi ilə bir hadisə baş vermədi.

Əhmədin fəaliyyətlərimə qarşı çıxmadığına və korpusun tapşırıqları üçün məni seçdiyinə görə sevinirdim. İnqilabın əvvəllərində bəzi pasdarlar xanımların evdən bayırda və kişilərlə eyni yerdə işləməsinə pis baxır, bunu şəriətə zidd hesab edirdilər. Əhmədsə belə deyildi. O, mənə deyirdi: "İzdivac sənin evdə oturub cəmiyyətdən təcrid olunmana səbəb olmamalıdır. Sən silahşünas bir təlimçi olmusan, korpus səni yetişdirmək üçün əziyyət çəkib, gərək işlərinə davam edəsən".

Həmin il Qədir-Xum bayramında şirniyyatla evə gəlib dedi: "Pasdarlar dedilər ki, bizim adımızdan xanım Musəvini təbrik elə. Dedim ki, bunu etməyəcəyəm. O, müstəqil adamdır, təşrif buyurun evimizə, özünüz təbrik edin".[1]

Əhmədin bu xarakterlərini görüb yavaş-yavaş Ləya mamanın ondan xoşu gəldi, dedi ki, düz adamdır, ürəyi təmizdir, qadının dəyərini bilir.

O zaman kişilərin ev işlərinə kömək etmələri adət deyildi. Həmin il anam tomat hazırlamaq üçün 100 kq pomidor almışdı. Mən də ona kömək etməyə getdim.

---

[1] İranda adətə görə Qədir-Xum bayramında seyidləri təbrik edirlər (müt.).

Günortadan sonra Əhməd korpusdan gəlib qollarını çırmadı və pomidor əzməyə başladı.

Ləya mama dedi:

– Əhməd ağa, sən niyə?

Əhməd gülüb cavab verdi:

– Bəs mən tomat yeməyəcəm?!

Ləya mama bir cüt əlcək və bir ələk gətirib dedi:

– Sənin əllərin tüklüdür. Zəhmət olmasa, bu əlcəkləri gey və pomidorları ələkdən keçir ki, tumları ayrılsın.

– Baş üstə, – deyə Əhməd əlcəkləri geyəndə mənim qulağıma pıçıldadı: – Vay-vay! Necə nərmənazik anan var!

Əhmədin qəribə işləri çox olurdu. Bir dəfə bir Vanet yük maşını dolu kök aldı. Sürücü kökləri gətirib həyətə tökdü. Bir neçə gün əmisi qızlarının və qonşuların köməyi ilə kök rəndələdik, bir neçə bidon dolu kök mürəbbəsi bişirib cəbhələrə göndərdik.

Toyumuzdan sonrakı birinci ramazan ayında bir gün dedi ki, iftara qonağımız var. Fikirləşdim ki, dörd-beş, uzağı on nəfər olarlar. Dedi: "Xeyr, yüz nəfərdir". Zarımağa başladım, dedim ki, mən bu qədər qonağın öhdəsindən gələ bilmərəm. Dedi: "Narahat olma, anamı və əmim qızlarını gətirəcəyəm, kömək edəcəklər".

Ev sahibimiz Tağı Əhmədin xətrini çox istəyirdi. Uzaq qohumluqları da vardı. Onun bacıları və qızları da köməyə gəldilər. İftar vaxtı bizim evimiz, ağa Tağının evi və bütün həyət adamla doldu. Əslində, yüzdən çox idilər, kim-kimi görmüşdüsə, demişdi ki, Əhməd Yusifinin evində iftar var. Bəsiclə korpusun nadinc uşaqları o qədər dəcəllik etdilər ki, az qala qapı-pəncərələr yerindən çıxacaqdı.

Əhmədin Əlirza adlı bir əmisi oğlu vardı, dəcəllərin başçısı o idi. Onlara Şabanəli qrupu deyirdilər. Mətbəxə

girəndə gördüm ki, belinə iki əl qumbarası bağlayıb. Belə rahat şəkildə, fikir vermədən gedib-gəlirdi. Ona dedim: "Əlirza, səni həzrət Zəhraya and verirəm, bunları evə aparma. Zarafatlaşarsız, partlayar, bütün ev bu qədər adamla havaya uçar". Çox çətinliklə qumbaraları ondan alıb mətbəxdə gizlətdim.[1]

İftar edib getdilər. Şorba və toyuqplov bişirmişdik. Evimiz müharibədən çıxmış evə oxşayırdı. Küçəyə şlanq çəkdik, sübh saat 4-ə qədər qab yuduq. Əhmədlə bəzi səmimi dostları da qab yumağa kömək etdilər.

Əhmədin səmimi dostlarından biri Əkbər Mənsuri idi.[2] Onu öncədən korpusda görmüşdüm. Ali təhsilli və ədəb-ərkanlı oğlan idi. Onun həmin gecə Əhmədlə sevgi dolu rəftarı diqqətimi cəlb etdi. Əhmədə dedim:

– Əkbər ailə qurub?

– Yox, – deyə cavab verdi.

– Belə ali təhsilli mühəndis, imanlı və əsil-nəsəbli bir oğlan 23 yaşında niyə subay olmalıdır?!

– Sən bacılıq elə, ona özün kimi yaxşı bir qız tap, – deyə Əhməd güldü.

Əhməd gümrah və enerjili adam idi. Onun yanında əzginlik, bekarlıq və durğunluq ola bilməzdi.

Yadımdadır, ilk iftar qonaqlığından bir gün sonra qürub çağı mətbəxdə qabları yerbəyer etdiyim yerdə öz-özümə oxuyurdum:

Qayıqçılarla həmpeyman olan fırtınada,
Candan keçib; fırtınalardan keçmək lazım!
Gecələr... yarımla peymanlarım var,

---

[1] Əlirza Yusifi 1982-ci ildə Beytülmüqəddəs əməliyyatında şəhadətə qovuşdu.

[2] Əkbər Mənsuri 1982-ci Beytülmüqəddəs əməliyyatında şəhadətə qovuşdu.

Ki, alov yandırım dağlar başında...
Ah...
Qara gecə...[1]

Bir də gördüm ki, Əhməd sakitcə arxamda dayanıb mənə qulaq asır. O, mənim gözümdə ucaboy idi, əzəmətli və yaraşıqlı görünürdü.

– Nə vaxt gəldin, Əhməd can? – gülümsəyərək dedim.

Əhməd yaxınlaşdı, alnımdan öpüb:

– Necə gözəl səsin var, Fəxri can! – dedi. – Hər gün yeni bir gülünü mənə açırsan.

Ürəkdən gülüb başımı çevirdim. Özümü yüngül və şən hiss edirdim. Yanımda dayandı, əlini çiynimə qoyub dedi:

– Bu, kimin şeiridir?

– Ziya ata bu şeiri sevir, zümzümə edirdi. Deyirdi ki, eşitdiyimə görə, SAVAK bir siyasi məhbusu edama aparanda o, bu şeiri ucadan qızı üçün oxuyurmuş. Amma mən bunun nə qədər doğru olduğunu bilmirəm.

Əhməd istedadlı idi, bir dəfə oxumağımla əzbərləmişdi. Başını boynuma qoyub şeiri qulaqlarıma pıçıldamağa başladı.

Səsimin yaxşı olduğunu və tək olanda özümçün oxuduğumu bildi. O gündən sonra hər dəfə darıxanda və ya dostlarından biri şəhid olanda yanımda oturub deyirdi: "Oxu, Fəxri can, bir ağız da mənim üçün oxu!"

Öz cütünü tapasan, ona aşiq olasan, onu sevmək üçün hər gün daha yaxşı və daha ürəkaçan bir səbəb tapasan! Bilmirəm, dünyada bundan üstün ləzzət varmı!

---

[1] Heydər Riqabinin "Məni öp" şeirindən

# Altıncı fəsil

Xəstəxananın koridorunda oturmuşdum. Birdən Əhməd peyda oldu. Əynində qara plaş vardı. Saç-saqqalı uzun idi. Qarşıdakı pəncərədən külək əsir, Əhmədin saçını sağa-sola fırladırdı.

– Necə də yaraşıqlı olmusan! – gülümsəyib dedim.

Biləyimdən tutub dedi:

– Səni bura kim gətirib, Fəxri can?

– Bilmirəm. Dedilər ki, ana olursan, gərək burda qalasan.

– Qalx, – əlimi çəkib dedi, – sən burda olmamalısan.

Xəstəxanadan çıxıb maşına mindik. Əhməd məni atamın xadim olduğu hüseyniyyəyə apardı, məni ona tapşırıb dedi:

– Burda qal. Vaxtı gələndə özüm gəlib səni aparacağam.

Külək hüseyniyyəyə dolub bayraq və parçaları yellədirdi. Küləklə bərabər ildırım da çaxıb Yeri işıqlandırırdı. Külək gücləndi. Getmək istəyəndə dedim:

– Əhməd, getmə... mən də səninlə gəlmək istəyirəm.

Cavab verməyib getdi.

Hüseyniyyədə tufan qopdu. Ucadan ağladım və ağlamaq səsimə yuxudan oyandım...

Əhməd həyəcanla ayağa qalxdı, gedib bir stəkan su gətirdi və yanımda oturdu. Küçədə yanan lampa dəhlizdəki kiçik pəncərədən otağı azacıq işıqlandırırdı. Əhməd stəkanı mənə verib dedi:

– Necəsən, Fəxri can? Yuxu görürdün? İstəyirsən işığı yandırım?

– Yox, – deyə suyu içdim, sonra əlavə etdim: – Bağışla, səni oyatdım. Yat.

Qəribə illər idi. Hər həftə dəfn mərasimi olurdu. Elə bir ailə yox idi ki, hansısa əzizini itirməsin. Əhməd cəbhəyə ezam təbliğatına da rəhbərlik edirdi. Hər həftə bir müddət öncə evimizdə bir süfrədən xörək yediyimiz, cəbhə avtobuslarına qədər yola saldığımız bir dostun, döyüşçünün şəhadət xəbərini alırdıq. Lakin qəm-kədər çox da qalıcı olmurdu. Yeni həyatımızda hadisələr çox sürətlə dəyişirdi.

Toyumuzdan beş ay sonra xəstələndim, özümü əzgin hiss etdim, Əhmədə isə bir söz demədim. Ağır vəzifəsi vardı, sübh erkəndən axşama qədər qərargahda olurdu. Özüm həkimə getdim. Məni analiz verməyə göndərdilər. Analizin cavabını göstərəndə həkim dedi: "Siz hamiləsiniz".

Təəccübləndim. Hələ həyat yoldaşı kimi özümü tapmamış ana olacaqdım. Həyəcanlandım. Həyatda rollarım sürətlə dəyişirdi, sanki hadisələrə və şəraitə nəzarət edə bilmirdim.

Axşam Əhməd evə gəldi, duş tutub qarşımda oturdu. Mən kitab oxuyurdum. Dedi:

– Mənə yemək vermək istəmirsən?

– Yemək mətbəxdədir; get ye.
– Sən yemirsən?
– Yox, iştaham yoxdur.
Əhməd ayağa qalxdı. Mən dizlərimi bədənimin önündə qatlayıb yerdə oturmuşdum. Birdən arxadan əllərini belimə və dizlərimə düyünləyib məni qaldırdı. Kitabı yerə atıb gülə-gülə dedim:
– Vay, Əhməd, nə edirsən? Məni yerə qoy, indi yıxılacam!
– Cəmi 45 kilosan, qorxma, – gülə-gülə dedi.
Məni mətbəxə aparıb qaz ocağının önündə yerə qoydu və dedi:
– İstəyirəm ki, xörəyi mənə sən gətirəsən.
Süfrəni sərib yanında oturdum, amma xörək yemədim. Əhməd yeməyə başladı. Üzümə baxıb dedi:
– Deyəsən, birtəhərsən. Nəsə olub?
Heç nə demədim. Xörəyini bitirəndən sonra süfrəni birlikdə topladıq. Mənə dedi:
– Fəxri can, bilirsən ki, mənim hər şeylə maraqlanmaqdan xoşum gəlmir. Əminsən ki, yaxşısan?
Bunu deyəndə ağlamağa başladım. Əhməd özünü itirib ayağa qalxdı:
– Nə olub, əzizim? – dedi.
– Əhməd... sən ata olursan!
Təəccübdən gözləri bərəldi. Bir neçə saniyə eləcə üzümə dikilib qaldı. Sonra ürəkdən güldü, üz-başımı öpüşlərə qərq edib dedi:
– Bu çətin günlərdə eşidə biləcəyim ən yaxşı xəbərdir. Allaha çox şükürlər olsun!
Gözlərimi əlimin arxası ilə silib dedim:
– Amma qorxuram. Mən ana olmağa hazır deyiləm.
Məni qucaqlayıb sinəsinə sıxdı:

– Qorxma, mən yanındayam. Ana olmaq üçün hazırlıq lazım deyil. Bu, təbii bir məsələdir. Yalnız özünü burax və təslim ol. Gərək beynini təşviş yaradan boş-boş fikirlərlə məşğul etməyəsən, – dedi, sonra məni güldürməyə başlayıb əlavə etdi: – İndi sənin gülmək vaxtındır, ağlamaq yox.

Tez-tez mənə təşəkkür edib deyirdi:

– Sən mənim güclü və gözəl xanımımsan, sənə minnətdaram.

Əhmədin sevgi və məhəbbəti mənim kədərimi apardı, məni düşdüyüm naməlum şəraitlə tanış etdi. Ertəsi gündən yavaş-yavaş özümü toparlamağa başladım.

Biz şəhidlərin yüksək məqamına inanırdıq, amma ən yaxın adamlarımızı, dost və tanışlarımızı itirəndə istər-istəməz kədərlənir, onlar üçün darıxırdıq. Əgər bu haldan agah olmasaydıq, həyatda heç nədən həzz ala bilməzdik.

Əhməd Zəncanda olanda həyat davam edirdi, evə hər gün qonaq gəlirdi. O, ünsiyyətcil adam idi, qısa müddətdə öz halını dəyişdirməyi, sabit psixoloji vəziyyətdə qalmamağı bacarırdı. Əhmədlə olanda sanki hər gün yeni bir adam görürdün.

Şəhid ailələrinə baş çəkməyə gedəndə oturub şəhidin anası ilə övladından danışmır, kədərli ifadə almır, gözləri yaşla dolmurdu. Onların da bu ab-havaya girmələrinə əsla imkan vermirdi. Eynilə o ananın övladı kimi olurdu: evin müxtəlif yerlərinə baxıb gülə-gülə və zarafata deyirdi: "Bu şüşələr çirklidir. Bir dəsmal verin, onları silim. Mən bekar qala bilmirəm. Şüşə təmizləmək cavanların işidir". Bir şey lazım olanda gedib alırdı, şəhidin ata-anasını həkimə aparırdı. Getməyəndə israr edir, ertəsi gün aparırdı. Valideynlərə, həqiqətən də, bir övlad hissini yaşada bilirdi. Mən də eşqlə ona yoldaşlıq edirdim.

Hamiləliyimin son aylarında bir gün anasıgilə getdik. Güclü qar yağmışdı. Zəncanda qış həmişə qarlı olur. Gördüm ki, Əhməd tez-tez pəncərədən küçəyə baxaraq əlini ovuşdurur.

Ona yaxınlaşıb dedim:

– Əhməd can, niyə bu qədər qərarsızsan? Nəsə olub?

– Ora bax, şəhid xanımı çadrasını belinə bağlayıb damın qarını təmizləyir. Əgər bunlar kişilərini cəbhəyə göndərir, şəhid verir, sonra da damlarının qarını özləri təmizləyirlərsə, biz gərək başımızı yerə qoyub ölək!

Qonşunun evinə gedib damın qarını təmizlədi. Evə gəlib yeniyetmə qardaşları Hüseynlə Abbası çağırdı, onları danladı ki, niyə ətraflarına, şəhid ailəsinə fikir vermirlər. Qardaşları ilə yaş fərqi çox idi, ona ata kimi baxır, nəsihətlərinə əməl edirdilər.

Əhməd həmin gün gecəyə qədər oyaq oldu. Balaca taxta masanı önünə qoymuşdu, belliyə söykənib yazırdı. Ona çay gətirib dedim:

– Bu gün iki-üç saat damda qar təmizləmisən, səhər tezdən də işə gedəcəksən. Qalx, yat.

Yaza-yaza dedi:

– Sabah Tehrana gedəcəyəm, əməliyyat birləşmələrinin təbliğat rəisləri ilə iclasım var. Orada söyləyəcəklərimi hazırlamalıyam.

"...Məncə, təbliğat üsullarında yaradıcılıq və rəngarənglik çox əhəmiyyətli məsələdir. İnsanların daim bir təbliğat üsulu ilə qarşılaşması insanlara yorucu gəlir. Təbliğatçıların söz və əməlləri arasında uyğunluq və sədaqət zəruridir. Müharibə təbliğatı bölməsində xidmət edənlər əvvəlcə özləri təbliğ etdikləri dəyərlərə sadiq qalmalı, əməl etməlidirlər. Sədaqət tələb edir ki, könüllüləri cəbhələrə cəlb etməkdən ötrü yalan

danışmayaq, məsələləri şişirtməyək, gələcək əməliyyatı müharibəni bitirəcək son əməliyyat kimi göstərməyək..."

Vərəqi yerə qoydum. Əhməd təbəssümlə mənə baxıb dedi:

– Necədir?

– Əla! Sən insanları məcbur edirsən ki, danışdıqları sözlərə fikir versinlər, cəbhələrə döyüşçü cəlb etmək məqsədi dəyərlidir deyə hər bir vasitədən istifadə etməsinlər.

– Bəli, – Əhməd dedi, – düz başa düşmüsən... Bu mühüm və zərif məqam uca bir məqsədi məhv edə bilər.

Çay dolu stəkanı ona verib ağzına bir qənd qoydum. Mehriban şəkildə gülümsədi.

Mən:

– Əhməd, yəqin ki, bəzi şayiələr sənin də qulağına çatıb, – dedim. – Deyirlər ki, Əhməd Yusifi stol arxasında oturub cəbhəyə döyüşçü göndərir, özü isə az gedir. Bunları eşidəndə qanım qaynayır. Bu sözləri bəzi korpus uşaqlarından da eşitmişəm. Niyə onlara cavab vermirsən?

Qaşlarını düyünləyib mənə baxdı:

– Sən heç vaxt məni müdafiə etmək üçün bir söz demə. Camaat məni sənin qədər tanımır. Kənardan baxıb görürlər ki, ilin əksər aylarını Zəncandayam; deyirlər ki, nə üçün özü cəbhəyə getmir.

– Əgər mənim yanımda desələr, cavablarını verəcəyəm, – dilxor halda və inadkarcasına dedim.

Bardaş qurub oturduğu yerdə kiçik masanı kənara çəkdi, mənə tərəf çevrildi. Toyumuzdan on ay ötürdü, amma Əhməd gözlərini gözlərimə dikəndə hələ də başımı ağaşı salırdım, düz gözlərinin içinə baxa bilmirdim. Hiss edirdim ki, nəfəsim bu kişinin nəfəsinə bənddir. Saçımı alnımdan kənara çəkib dedi:

– Gərək gedib qaşlarını aldırasan.
– Nə dedin? – təəccüblə soruşdum.
– Sən bir ildir ailə qurmusan, amma qaşını aldırmamısan, – gülüb dedi.
– Sən belə xoşlayırsan. Özün demisən ki, qaşımı aldırmayım.
Çeçələ barmağı ilə sağ qaşımı tumarlayıb dedi:
– Bəli, indi də fikrim belədir. Əl dəyməmiş üzünün məsumluğunu sevirəm. Amma pasdarların biri mənə dedi ki, qardaşın Ələddinin yanına gedib sənə onun üçün elçi düşüm.
– Doğrudan? – gözlərim təəccübdən bərəldi.
– Hə, – deyə bərkdən güldü.
– Sən nə cavab verdin?
– Dedim ki, xanım Musəvinin sahibi var. Dedi ki, sahibi kimdir? Dedim ki, özüm. İnanmırdı. Sonra da çox üzr istədi.
Əhmədin hələ də qaşımı nəvaziş edən əlini tutub öpdüm:
– Onda camaat sənin cəbhəyə getmədiyinə fikir verdiyi qədər həyatının digər məsələlərinə fikir vermir, sənin tezliklə ata olacağını, həm də kiminlə ailə qurduğunu bilmirlər.
– Camaatdan eşitdiklərinə əhəmiyyət vermə. Allah özü bilir ki, mən şəhadət aşiqiyəm. Ondan istəmişəm ki, bir gün şəhid övladlarının məni göstərib: "Bu, atamızın dostu və döyüş yoldaşı Əhməd Yusifidir; o, sağdır, bizim atamızsa şəhid olub" – söyləyəcəkləri günü görməyim. Mən aşiqəm, mənim ləbbeykimə nə zaman cavab verəcəyinə də Məşuqun özü qərar verəcək.

Əhmədin sözlərindən sonra həyəcanlandım, ürəyim sıxıldı. Tez boş stəkanı götürüb mətbəxə keçdim. Ağladığımı görməsini istəmirdim. Kövrək səslə dedim:

– Mən istəməyincə şəhid olmayacaqsan!

Mətbəxdə qab yumaqla başımı qarışdırdım. Əhmədin səsi gəldi:

– Get istirahət elə, qabları mən yuyaram.

Dediyim sözə inamım yox idi. "Həqiqətən də, mən istəməyincə şəhid ola bilməz? Elədirsə, niyə bu qədər narahatam? Niyə qorxuram?" - deyə öz-özümə düşündüm. Gözlərimi əlimin arxası ilə sildim. Amma bir göz qırpımında gözlərim yenə doldu və yaş yanaqlarıma süzüldü.

Ağlayır, sakitləşə bilmirdim. Birdən vücudumun dərinliyində uşağın hərəkətini hiss etdim, özümdən asılı olmadan üzümdə təbəssüm yarandı. Divara söykənib qarnımı tumarladım. Yenə hərəkət etməsini gözlədim. Hərəkəti məni sakitləşdirdi. Üzümü yuyub dərin nəfəs aldım.

Otağa qayıtdım. Əhməd kiçik masanın arxasından qalxıb yorğan-döşəyə tərəf getdi, mələfəni kənara çəkib dedi:

– Qoy yatağını sərim, sən yat, mən də yarım saata gəlirəm.

Döşəkləri yerə sərdi. Əlini tutub öpdüm. O da mənim alnımdan öpüb dedi:

– Yat, əzizim, sən tezliklə ana olacaqsan, gərək istirahət edəsən.

Əlini çəkmək istəyəndə qoymadım, barmaqlarımla əlini bərk sıxdım. Bir neçə saniyə sakit qaldı. Əlini üzümə yapışdırıb dedim:

– Əhməd, bir yuxu var, arabir görürəm. Yavaş-yavaş məni narahat edir.

– Nə yuxusu, əzizim? – döşəyin üstündə bardaş qurub soruşdu.

– Yuxuda görürəm ki, xəstəxanada tək oturmuşam. Gəlib deyirsən ki, səni kim bura gətirib. Əlimdən tutub atamın xadim işlədiyi bir hüseyniyyəyə aparırsan. Məni ona tapşırırsan, deyirsən ki, burda qal, vaxtı çatanda özüm gəlib səni aparacağam. Sonra gedirsən. Nə qədər ağlayıramsa, mənə fikir verməyib gedirsən. Əhməd... külək və tufan vardı... ildırım çaxırdı... qorxurdum...

Əhməd bir neçə dəqiqə fikrə getdi, sonra dedi:

– Fəxri can, sən gərək mənə bir söz verəsən.

– Nə sözü?

– Sən mənim şəhid olmağım barədə fikirləşməməlisən. Sən inqilab və ölkə üçün şəhadət və fədakarlıq yolunu tanımayan, qulağı və gözübağlı şəkildə bir pasdarla yaşamağı seçən bir qız deyilsən. Sən mənimlə ailə qurmazdan öncə çoxlu pasdarların şəhadətini görmüsən. Sən ən səmimi dostun Fəhimə Səyyarinin[1] şəhadətini görmüsən.

Yenə dinmədi. Demək istəyirdim ki, belə deyil, amma mən də dinməyib gözlərimi ondan gizlətdim. Doğru deyirdi. Atam mənim Əhmədlə ailə qurmama etiraz edəndə nəyə görə narahat olduğunu bilirdim: Əhmədin şəhadəti və gənc qızının tək qalması. Bəs indi niyə gerçəkliyi qəbul etmək istəmirəm?

Əhmədə dedim:

– Yəni demək istəyirsən, bu yuxunun yozumu odur ki, mən tez-tez sənin şəhadətin barədə düşünürəm?

---

[1] O, 1980-cı ildə Sənəndəc-Saqqız magistralında əks-inqilabçıların pusqusuna düşüb şəhadətə qovuşdu.

– Bəli, bu kabuslar ona görədir ki, zehnin narahatdır. Özünü burax, təslim ol, əgər yenə kabus görsən, mən söz verirəm ki, cəbhəyə getməyəcəyəm.

Ürəkdən gülüb dedim:

– Yəni bu qədər əminsən ki, bu kabuslar beynimin məşğul olduğuna görədir? Yəni qorxuram ki, sən şəhid olarsan?

– Bəli, – gülmədən, ciddi şəkildə dedi. – Ən azı şüuraltın onunla məşğuldur.

Ayağa qalxdı, kiçik masanın arxasında oturub dedi:

– Elə bilirsən sənin səssiz ağlamandan xəbərim yoxdur? Biz birlikdə yaşayırıq, bir-birimizi çox sevirik. Allah sənə və mənə ata-ana olmaq neməti verib. Həyatından həzz al. Biz dərin duyğulara və hədsiz bağlılığa görə bir-birimizin inkişaf yolunu bağlamamalıyıq.

– Yəni bir gün mənim üçün də şəhadət yolu açılsa, sən mənim qarşımı almayacaqsan?! – Uzandığım yerdə su dolçasını qoyduğum podnosu özümə tərəf çəkib dedim.

– Yox, almayacağam, – dərhal cavab verdi. – Allah eləməsin ki, sənə güclü eşqim şəhadətinə mane olsun. Çünki bu zaman o, eşq olmaz, maneə olar. Mən səni dəyərsiz canım qədər, hətta ondan da çox sevirəm. Biz İmam Hüseyn (ə) davamçısıyıq, gərək ən əziz sərvətlərimizi də Allah yolunda qurban verməyi bacaraq. Çalış ki, bu inkişafa çatasan, yoxsa həyatın nə dəyəri?!

Uzandığım yerdən bir qədər qalxdım, stəkanı yarıyacan doldurub içdim. Böyrü üstə uzandım. Yata bilmirdim. Yuyucuxanada Fəhimə Səyyarinin anasının onun bədənini yuyub qüsl verdiyini xatırladım. Fəhimənin gözünə güllə dəymişdi. O, gördüyüm ilk şəhid idi. Qəribə hisslər keçirirdim: vahiməli rahatlıq. Fəhimənin anası ağlamırdı,

yalnız cəsədin başına dolanıb deyirdi: "Qurban olum sənə, qızım! Şəhadətin mübarək olsun, balam!"

Su onun uzun pərişan saçını sağa-sola aparırdı. O, sinfimizin ən əlaçı şagirdi idi. Yüksək qiymətlə riyaziyyat üzrə attestat alıb Mühəndislik universitetinə qəbul olmuşdu. Lakin qərara gəlmişdi ki, Qum Elm Hövzəsinə gedib dini təhsil alsın. Bir müddət tələbəlikdən sonra isə Kürdüstana təbliğata yollanmışdı.

Yatağımda çevrildim. Əhməd yazırdı. Əlimi başımın altına qoyub dedim:

– Sən Fəhimənin şəhadət xonçasındakı şəklini görmüşdün?

– Hə; necə bəyəm?

– Mən o şəklin əhvalatını sənə danışmışam?

– Yox.

– Məktəbdə Milis qrupu ilə dalaşmaq macərasını isə danışmışam, düzdür?

– Hə.

– Onlarla dalaşıb döyüləndən sonra, ertəsi gün Əmirəlmöminin məscidinin kitabxanasına kitab almağa getdim. Fəhimə kitabları düzürdü. Təəccüblə mənə baxıb dedi ki, üzünə nə olub. Dedim ki, bir şey deyil, məktəbdə bir qrup nadan adamla dalaşmışam. Kitab şkaflarını səliqəyə sala-sala dedi: "Fəxri, elm hövzəsi mənim şəklimi istəyib. Sənəd şəklim yoxdur. Fotoatelyeyə getmək istəyirəm. Gəl birlikdə gedək". İkimiz birlikdə Şiva fotoatelyesinə getdik.

Əhməd qələmi qarşısına səpələnmiş kağızların üstünə atdı, əlini çənəsinin altına qoyub gözlərini ağzıma dikdi. Həmişə belə edirdi: şəhidlərdən söz düşəndə sakit qalıb diqqətlə qulaq asırdı. Mən davam etdim:

– Yaxşı yadımdadır, şəkil çəkdirəndə başında sürməyi yaylığı vardı, əyninə xırda göy gülləri olan sarımtıl manto geymişdi. Fotoqraf yaxınlaşıb onun başını fotoaparata doğru tənzimləmək istəyəndə qoymadı, dedi ki, belə yaxşıdır. Qəşəng şəkil oldu.

– Maraqlıdır! Deməli, o şəkli çəkdirəndə sən yanındaydın.

– Bəli.

– Amma o şəkildə Fəhimə çadralı idi.

– Hə, bəziləri dedilər ki, bu şəkil yaylıqladır, Fəhimə isə hövzə tələbəsi olub, şəhiddir, gərək çadralı olsun, – deyə başımı yellədim. – Mürəkkəblə qaraldıb ona çadra düzəltdilər.

Başımı yastığa batırdım. Yumşaq idi. Fəhiməni xatırlayıb yavaşca salavat dedim. Ürəyim rahatlıq tapdı, nə vaxt yuxuya getdiyimi bilmədim.

Ertəsi gün Əhməd evdə olmadı, Tehrana iclasa getdi. Atıcılıq təlimçilərindən ağa Saqibi bizə gəlib dedi: "Xanım Musəvi, əlli şagird sərgərdan qalıb. Nəzəri təlim keçiblər, poliqonda praktik işləri qalıb. Orada zabitimiz yoxdur, siz gələ bilərsiniz?"

Hazırlaşıb getdim. J3 təlimi idi. Müxtəlif rejimdə atəş açmağı izah edib ayaq üstə, oturduğum və uzandığım yerlərdə bir neçə dəfə atəş açdım. Sonra qızlara dedim ki, bir-bir müxtəlif vəziyyətlərdə təkrarlasınlar. Gecə Əhməd gələndə poliqona getdiyimi ona söyləmədim. Ertəsi gün Əhməd gedəndən iki saat sonra qapı döyüldü. Qapını açdım. O idi; qızarmış, əsəbiləşmişdi.

– Nə olub? Niyə qayıtdın? – deyə soruşdum.

– Daha sənə sözüm yoxdur! Bu gün cənab Saqibi mənə təşəkkür etdi, dedi ki, dünən poliqon zabitimiz yox idi, xanımın gəlib təlim keçdi, Allah ondan razı olsun.

Gedib ona bir stəkan su gətirdim. Özüm bilirdim ki, düz iş görməmişəm. Stəkanı verib başımı aşağı saldım:

– İşləri yerdə qalmışdı. Sən ki mənim işləməyimə etiraz etmirsən! – dedim.

Əhməd stəkanı yerə qoydu, bir əlini o biri əlinin üstünə qoyub dedi:

– Ay Fəxri, niyə özünü bilməzliyə vurursan? Sən səkkizaylıq hamiləsən, silahdan atəş açırsan! Bunun geri təkanı var. Əgər silahın qundağı qarnına dəysə, mən başıma haranın külünü tökərəm?! Uşaq düşə də bilərdi.

– Haqlısan... Təlimçiləri yox idi.

– Mən səninlə poliqonda tanış olmuşam. Amma indi şərait fərqlidir. Mən Saqibiyə sənin hamilə olduğunu deyəndə az qaldı ürəyi dayansın. Dedi ki, əgər bilsəydim, onun atəş açmasına icazə verməzdim. O qədər arıqsan ki, o yazıqlar da heç nə anlamayıblar. Gərək özündən muğayat olasan.

Hirsindən üzü göyərmişdi, əlləri əsirdi. Mən gülüşümün qarşısını ala bilmirdim. Başını yelləyib dedi:

– Nəyə gülürsən?

– Əhməd, hiss edirəm ki, indi vəziyyətin mənim hərgünkü vəziyyətim kimidir. Sən hər gün motosikletə minib korpusa gedəndə, mən bu vəziyyətə düşürəm. Öz-özümə deyirəm ki, Allah eləməsin, birdən münafiqlər motosikletdə səni vurarlar, birdən bölgələrə baş çəkəndə sui-qəsdə məruz qalarsan. Sən cəbhəyə gedəndə gecəm-gündüzüm olmur.

Əhməd tərk-silah olunmuş adam kimi başını aşağı saldı, bir söz demədi. Onu narahat görəndə əzab çəkirdim. Dizi üstə yanında oturub əlindən tutdum və dedim:

– Səni narahat etdim? Bağışla!

– Yox, haqlısan. Mən rahat şəkildə sənə deyirəm ki, narahat olmamalısan, ən əziz adamını inqilabı qorumaq üçün qurban verməkdən qorxmamalısan, lakin özüm narahatlıqdan dəli olmuşdum.

– Sən bu insafınla məni özünə daha çox aşiq edirsən.

Əhməd ayağa qalxdı. Ona dedim:

– İndi ki gəlmisən, gəl birlikdə nahar edək.

Qapıya yaxınlaşdı, ayaqqabısını geyə-geyə dedi:

– Bu gün cəbhəyə döyüşçü göndərəcəyik. Əkbər Mənsuri də gedir. Onları yola salmaq istəyirəm.

– Gözlə, geyinib mən də gəlirəm.

Ev sahibimiz ağa Tağı Əhmədin xətrini o qədər istəyirdi ki, onun vasitəçiliyi ilə bacısı Zəhranı Əkbər Mənsuriyə vermişdi. Ağa Tağı deyirdi: "Siz pasdarlar saf su kimisiniz, adam bütün ruhunuzu görə bilir".

Zəhra gözəl, ucaboy və evdar bir xanım idi. Ağa Tağının evinə gedib-gələndə onunla dostlaşmışdıq. İki həftə idi nişanlanmışdılar. İndi isə Əkbər cəbhəyə gedirdi.

Əhmədlə Əkbər avtobusların yanında bir-birini bərk qucaqladılar. Əkbərə dedim:

– Əkbər ağa, inşallah, sağ-salamat gedib-qayıdasınız!

Gülümsəyib cavab verdi:

- Allah necə istəsə! İndi şaquli vəziyyətdə gedirik, bəlkə də, üfüqi vəziyyətdə qayıtdıq.

Əhməd gülüb başını yellədi. Zəhra dayanmışdı. Mən üz-gözümü turşudub bir Əhmədə, bir də Əkbərə baxdım, Zəhranın əlindən tutub dedim:

- Siz yeni ailə qurmusunuz, Zəhranın yanında belə danışmanız doğru deyil.

Əkbər getdi, Zəhra ilə mən evə qayıdıb birlikdə nahar etdik. Ona təskinlik verməyə çalışıb dedim:

– Zəhra can, bu pasdarların xarakteri şuxtəbdir. Əkbərin sözünə fikir vermə!

– Hansı sözünə? – Zəhra soruşdu.

– Əkbərin nə dediyi yadından çıxdı? – təəccüblə dilləndim. - Şaquli getmək... üfüqi qayıtmaq.

– Aha! – deyib sakit qaldı.

Mənə maraqlı gəldi. Ondan soruşdum:

– Sən Əkbərə görə narahat deyilsən? Bu sözü deyəndə həyəcanlanmadın?

Verdiyim suala görə peşman oldum. Düşündüm ki, bu sualla onu daha çox narahat etmiş olacağam. O isə:

– Yox, əsla – deyə başını aşağı salıb üzüyü ilə oynaya-oynaya sözümü kəsdi. – Allah şahiddir ki, Əkbəri nə qədər sevirəm. Bilirəm ki, o da məni sevir. Bilirəm ki, Əkbər olmasa, sanki əlil bir adam olaram, rahat yaşaya bilmərəm. Ancaq sevinirəm elə rəftar etdim ki, Əkbər cəbhəyə gedəndə gözlərimə təbəssümlə, narahat olmadan baxıb "şaquli gedirəm, bəlkə, üfüqi qayıtdım", – deyə bildi!

# Yeddinci fəsil

Həkim başım üstə gəldi. Ağrıdan gözlərimin kənarından yaş süzülürdü. Bütün xəstəxanada səslənən əməliyyat marşını eşidirdim. Əhməddən soruşdum:

– Nə baş verib?

– Xürrəmşəhrin azadlığı üçün əməliyyat gedir, – deyə cavab verdi, sonra əlimi bərk sıxıb soruşdu: – Niyə ağlayırsan?

– Ağlamıram, – deyə gülümsəməyə çalışdım, – yaş özü gəlir.

Gülümsədi, alnımdan öpüb:

– Kaş bu ağrını mənimlə bölüşə biləydin, – dedi.

Həkim qovluğuma nələrsə yazdı, sonra Əhmədə dedi: "Xanımın qeysəriyyə əməliyyatı olunmalıdır. Dörd gündür burada yatır, uşaq dünyaya gəlmir. Bu vəziyyət nə özünə yaxşıdır, nə də uşağa”.

Əhməd mənə baxıb dedi:

– Nə deyirsən, Fəxri can?

– Əhməd, razılıq ver, – qorxu içində dedim, – məni evə apar, burda qalmaq istəmirəm.

Əhməd alnımın tərini silib dedi:

– Sən qorxmamalısan. Qorxu səni zəiflədər!

– Əlimdə deyil, “qeysəriyyə” sözündən də qorxuram. Tərcih edirəm ki, evdə anamla sənin yanında, mamanın köməyi ilə uşağım olsun.

Əhməd razılıq verəndən sonra evə getdik. Həzrət Əlinin (ə) təvəllüd axşamı idi. Ləya mama, Əhmədin anası, öz bacılarım və Əhmədin əmisi qızları bizim evə yığışmışdılar. Ağrıdan elə bilirdim ki, can verirəm. Ləya mamanın səsini eşidirdim. Ağlaya-ağlaya Əhmədin anasına deyirdi: "Hacı xanım, bir iş görün, qızım əldən gedir!"

6 May 1982-ci ildə, düz şam azanı vaxtı uşaq dünyaya gəldi. Uşağın ağlamasını və başıma toplaşanların hay-küyünü eşidirdim, amma heç nə görmürdüm. Sanki kor olmuşdum. Nə qədər cəhd edirdimsə, başımı və ya əlimi tərpədə bilmirdim. Əhmədin əmisi arvadının səsini eşitdim, anama dedi: "Ədyalı üstünə çək, yorğunluqdan və ağrıdan yuxuya gedib".

Anası Əhmədi çağırdı. Əhməd başımın üstə gəlib bir neçə dəfə məni səslədi. Ona cavab verməyə taqətim yox idi. Əlini alnıma qoyub yenə çağırdı. Dayanmadan deyirdi: "Fəxri can... Fəxri can, gözlərini aç..."

Yanımdakı dolçanın suyunu üzümə boşaltdı. Birdən sinəmdə qalmış nəfəsimi buraxıb gözlərimi açdım. Əhməd dedi: "Vay... Allaha şükür". Sonra üzünü anasına tutub əlavə etdi: "Sizin neçə uşağınız olub, təcrübəniz var, necə başa düşmədiniz ki, bu, huşunu itirib, yatmayıb!"

Sonra tez qalxıb gülab və reyhan toxumundan şərbət düzəltdi, yatağımın yanında oturub özü yavaş-yavaş qaşıqla hamısını mənə içirtdi. Dəsmalla üzümü qurulayıb

saçımı daradı, sonra anama dedi: "Gözünüz Fəxridə olsun, mən indi gəlirəm".

Anam dedi: "Hara gedirsən, Əhməd ağa? Uşağı qucağınıza götürmək istəmirsiniz?" Əhməd dedi: "Tez qayıdacağam".

Yarım saatdan sonra gəldi. İçəri girən kimi otağa isti çörək və ciyər ətri doldu. Gəlib yanımda oturdu, əlini kürəyimin altına salıb məni yavaşca qaldırdı, belimin arxasına bir neçə mütəkkə qoyub dedi: "Sənə ciyər aldım; ye, cana gəl". Özü balaca tikələr düzəldib ağzıma qoyurdu. Yemək bitəndən sonra dedi: "İndi ki cana gəldin, gərək gedək xəstəxanaya. Sən zəifləmisən".

Ləya mama, bacılarım, Əhmədin anası – hamı yanımdaydı, mənsə yalnız Əhmədi görürdüm. Onun eşq və məhəbbəti sanki itirdiyim canı mənə qaytardı. Yaş dolu gözlərlə ona baxıb dedim ki, xəstəxana lazım deyil, mən yaxşıyam. Gözlərimi əli ilə sildi, uşağı anamın qucağından alıb dedi: "Gəl... gəl oğluna bax. Oğlum adını özü ilə gətirib. Gəl Əli ağaya bax".

Ağüzlü iri uşaq idi. Mama deyirdi ki, dörd kilodur. Saçı çox və qara idi. Əlimi uzadıb saçını tumarladım. Əhməd gülüb dedi: "Mən gələndə Əli ağanı çimizdirirdilər. Uşağa baxdım, maşallah, cüssəli idi, amma sənə baxdım: arıq. Allahın qüdrətinə və möcüzəsinə heyran qaldım".

Uşağı qucağına götürüb qulaqlarına azan və iqamə oxudu. Sonra hamıdan xahiş etdi ki, məni tək qoysunlar, istirahət edim. Dedi: "Fəxri can, mütləq yatmalısan ki, enerji toplayasan, yoxsa xəstələnərsən". Uşağı götürüb getdi. Dedim ki, Əlini aparma. Dedi: "Əlini görməyə vaxt çox olacaq, çalış ki, yatasan". Dedim: "Onda ver, ona süd verim, sonra apar".

Uşağa süd verdim. Əhməd onu götürüb otaqdan çıxdı və mən o zamana qədər təcrübə etmədiyim rahatlıq və xoşbəxtlik hissi ilə dərin yuxuya getdim.

May ayının 11-i idi. Əlinin dünyaya gəlməsindən bir neçə gün ötürdü. Əhməd evə pərişan gəldi. Soruşdum ki, nə olub? Bir söz demədi. Dilxor və qərarsız idi. Dedim:

– Sən Allah, de görüm, nə olub?

– Sən təzə ana olmusan, pis xəbər eşitmən doğru olmaz. Allah eləməsin, südün quruya bilər.

Daha da həyəcanlanıb əlindən tutdum:

– Gəl otur, de görüm, nə olub? – dedim.

– Vallah, deyirlər ki, Əkbər şəhid olub. Əlirzadan da xəbər yoxdur, itkin düşüb.

Hiss etdim ki, gözlərim qaranlıq çaldı, nəfəsim dayandı. Çətinliklə dedim:

– Əkbər Mənsuri? Əmin oğlu Əlirza?

– Hə, Əlirza güman ki, Əlinin dünyaya gəldiyi gün itkin düşüb, ancaq mən əminəm ki, şəhid olub.

– Hardan əminsən? – ağlaya-ağlaya soruşdum.

– Elə yerdə itkin düşüb ki, bizimkilər orada irəliləyirmişlər, kiminsə orada düşmənə əsir düşməsi mümkün deyil. Mütləq şəhid olub, cəsədi harasa düşüb. Əkbər barədə isə iki xəbər var. O, Salman Farsi batalyonunun komandiri idi. Bəziləri deyirlər ki, yaralanıb, bəziləri deyirlər ki, şəhid olub.

– İlahi, o təzə gəlinə rəhm elə!

Əhməd ayağa qalxıb dedi:

– Fəxri can, sən təzə ana olmusan, günahlardan təmizlənmisən. Dua elə ki, Əkbər yaralanmış olsun.

– Hara gedirsən?

– Morqa gedirəm. Zəncan şəhidlərini gətiriblər. Əgər Əkbər şəhid olubsa, cəsədi orada olmalıdır.

Əhməd getdi. Mən heç bir şey barədə fikirləşə bilmirdim. Yalnız onun son anda dediyi "şaquli gedirik, üfüqi qayıdacağıq" cümləsi beynimdə dolaşırdı. Birdən Əlinin ağlamaq səsini eşidib özümə gəldim. Onu sinəmin altına qoydum, amma nə qədər sıxdımsa, süd gəlmədi. Sinəm daş kimi olmuşdu. Uşaq ağlayırdı. Əli dünyaya gələndə Əhmədin əmisi arvadının və əmisi qızlarının hay-küyü və mənə görə narahat olmaları yadıma düşdü. Ürəkdən ağladım. Kim fikirləşərdi ki, həmin anlarda əzizləri şəhadət halındaymış.

İki saatdan sonra Əhməd gəldi. Vəziyyətindən bildim ki, Əkbər şəhid olub. Amma yenə soruşdum: "Əhməd can... nə oldu? Əkbərin cəsədi şəhidlərin arasındaydı?"

Yanımda oturdu. Bir söz demirdi. Çətinliklə ayağa qalxıb mətbəxə keçdim, ona bir stəkan sərin su gətirdim. Suyu içib dedi:

– Bir-bir tabutları açdım. Əkbər yox idi. Allaha şükür etdim. Cəmi iki tabut qalmışdı. Birini açanda gördüm ki, Əkbərdir. Boynunun arxasına kiçik bir qəlpə girmiş, qan boyunbağı kimi bütün boynuna və sinəsinin ortasına axmışdı.

Bərkdən ağlamağa başladım. Sanki Əhməd eşitmirdi.

O, sözünə davam etdi:

– Deyəsən, çox kiçik bir qəlpə boynunun arxasına dəyibmiş. Onu israrla xəstəxanaya aparırmışlar. Özü isə maşına oturub döyüş yerinə qayıtmaq istəyirmiş, deyirmiş ki, bir şey yoxdur. Lakin xəstəxanada əməliyyat otağına çatmamış şəhid olub.

Ağlaya-ağlaya Əhmədin çiyinlərini ovuşdurub dedim:

– Əhməd, günortadan sonra Zəhra məni görməyə gələcək. Nə edim?

– Zəhra kimdir?

– Deyəsən, özündə deyilsən ha! Əkbərin xanımı Zəhra.

– Aman Allah! Zəhra bu xəbəri bizim dilimizdən eşitməməlidir. Sən ona heç nə hiss etdirmə.

– Axı necə? Mənim halım pisdir, özümü idarə edə bilmirəm.

Axşamüstü təxminən saat 6-da Zəhra gəldi. Sakit, gözəl və vüqarlı idi. Məni təbrik etdi, Əlini qucağına götürüb dedi:

– Maşallah! Allah sənə necə gözəl uşaq verib, Fəxri can!

Danışmırdım. Göz yaşlarım hazır vəziyyətdə dayanmışdı. Özümü Zəhranın yerində görürdüm, elə bilirdim ki, həyat yoldaşının şəhadət xəbərini eşitməli olan mənəm.

Zəhra mənim halımı başa düşüb dedi:

– Nə olub, Fəxri can? Deyəsən, narahatsan.

Gözlərimin yaşı yağış suyu kimi yanaqlarıma axa-axa dedim:

– Ağrım var.

Mənim necə ağladığımı görüb Əlini yatağına qoydu, bir neçə kağız dəsmal götürüb yanıma gəldi, gözlərimi silib dedi:

– Vay... Fəxri, uşaq olmusan?! Bu ağrılar təbiidir. Yaraşıqlı oğluna bax, ağrı yadından çıxacaq.

Dəsmalı ondan alıb ovcumda sıxdım. Yerimdən qalxmağa çalışdım. Zəhra mənə kömək edib dedi:

– Hara getmək istəyirsən?

– İndi gəlirəm.

Mətbəxə keçdim. Əhməd çay dəmləyirdi. Hıçqırtı ilə ağlamaqdan çiyinlərim titrəyirdi. Yuvasız quş kimi Əhmədin qucağında gizlənib başımı sinəsinə qoydum. Əhməd başımdan öpüb dedi:

– Sən Allah, Fəxri can, özünü ələ al. Çalış həmişəki kimi davran, get yanında otur. Zəhra bu xəbəri burda bizim dilimizdən eşitməməlidir. O gərək bunu ata-anasının, yaxınlarının yanında bilsin.

Əhməd doğru deyirdi. Kranı açıb üzümü yudum. Əhməd çay podnosunu mənə verdi. Qayıdıb Zəhranın yanında oturdum. Halımın yaxşı olmadığını başa düşdü. Çayını yarımçıq içib qalxdı. Mənim üzümdən və Əlinin əlindən öpüb dedi:

– Mən gedirəm, sən istirahət elə. Əkbər qayıdandan sonra birlikdə gələrik. İnşallah, o vaxta qədər yaxşılaşarsan.

Bir söz deyə bilmədim, çətinliklə gülümsəyib başımı yellədim.

Zəhra gedəndən sonra Əhməd otağa gəlib yanımda oturdu. Göz yaşlarım yağış suyu kimi süzülürdü. Gözlərimi silib:

– Əhsən, mənim güclü xanımım! Zəhra Əkbərin şəhadət xəbərini ailəsindən uzaq yerdə, bizim evimizdə eşitməməli idi, – dedi, sonra gözlərini açıb bizə baxan Əliyə gözlərini zilləyib əlavə etdi: – Dostlarımın şəhid olduqlarını ailələrinə xəbər verməyi sevmirəm.

– Niyə, Əhməd, şəhadət şərəfdir!

– Əlbəttə... lakin o anda insanın məruz qaldığı ağır kədər yükünü görmək istəmirəm.

– Vay o gündən ki, sənin şəhadət xəbərini mənə verələr, – deyib yenə ağlamağa başladım.

Əhməd yavaşca çiyinlərimi ovuşdurub dedi:

– Sən uşağa süd verirsən, bu qədər ağlamamalısan. Biz bu yolu seçmişik. İnqilab böyük bir hadisədir. Böyük məqsədləri qorumaqdan ötrü bədəl ödəmək lazımdır. Mən

Əkbərin dostu idim. O öz arzusuna, məqsədinə çatdı. Odur ki, biz ondan ötrü narahat deyilik, özümüz üçün narahatıq.

Əli ağlamağa başladı. Əhməd onu qucağına götürüb yellədi, səsini naziklәşdirib uşaq dili ilə dedi: "Nə olub, oğlum?"

Üzüm göz yaşlarımdan islanmışdı, amma qeyri-ixtiyari olaraq gülümsəyib Əhmədə dedim:

– Bir də de.

Əhməd də gülüb tez-tez təkrarlamağa başladı:

– Nə olub, oğlum? Nə olub, oğlum?

"Oğlum... oğlum..." - deyə mən də təkrarladım. İndiyə qədər yalnız həyat yoldaşı idik, indi isə ata-ana olmuşduq.

Əhməd ürəkdən gülə-gülə dedi:

– Bəli, balaca Əlinin dünyaya gəlməsi ilə Allah ailəni uca tutmaq nemətini, həyat yoldaşı və ata kimi məsuliyyətin ləzzətini mənə bəxş etdi.

Əli hələ də ağlayırdı. Dedim:

– Uşaq acdır, ver mənə.

Əhməd uşağın çantasını yaxınlaşdırdı, Əlini qucağıma verib çantadan əski və sellofan çıxarıb dedi:

– Xeyr, Əli ağa altını isladıb.

– Vay... əminsən? Hardan bildin?

– İndi günortadır. Uşağın bələyini sübh namazından sonra dəyişdirmişəm, neçə saat keçib.

Bələyi açdı. Uşağın əskisi bulaşmışdı. Onu dəyişdirib yenə bağladı. Əli sakitləşdi. Çirkli əskiləri sellofana qoydum, ağzını düyünləyib dedim:

– Əhməd, sən bunları haradan öyrənmisən?

– Mən ailənin böyük uşağıyam. Anam bir-birinin ardınca uşaq gətirib. Nə etdiyini görmüşəm, kömək də etmişəm.

– Mən Əlini bələyə bilmirəm, qorxuram ki, ona bir şey edərəm.

– Narahat olma, çalışacam evdə elə olum ki, gündə üç dəfə özüm altını dəyişdirim. Bir neçə dəfə baxsan, öyrənəcəksən, qorxmayacaqsan.

Çirkli əskini hamama apardım. Böyük çəhrayı ləyənimiz əski ilə dolmuşdu. Qollarımı çırmayıb oturdum. Əhməd arxamca gəlib dedi:

– Nə edirsən?

– Gör nə qədər əski yığılıb, bunları yumalıyam.

Qolumdan tutub dedi:

– Sən get Əliyə süd ver, mən yuyacam.

– Yox, bir gün evdəsən, onda da əski yuyacaqsan?

– Hə, elə evdə olduğum günlərdə yuyacam. Mən olmayanda məcbur qalıb özün yuyarsan.

Əskilər yuyulana qədər bir-iki saat keçdi. Əhməd otağa gələndə əlləri qırışmışdı. Ona çay süzüb dedim:

– Əllərin o qədər suda qalıb ki, ağappaq olub.

Gülüşdük. Əhmədə baxıb minnətdarlığımı bildirdim:

– Bağışla, Ləya mama vasvasıdır. O öz uşaqlarının əskisini də yumurdu, bundan acığı gəlirdi.

Əhməd isti çayı nəlbəkiyə süzüb başına çəkdi və dedi:

– Bəli... sizin Ləya mamanız nərmənazikdir. Mənim zavallı anam da çox hünərli olsa, öz uşaqlarının işlərini çatdıra bilər. Bəs sizə qulluq etməyə kim qalır? Xoşbəxt həyat yoldaşı və bəxtəvər ata olan Əhməd ağa!

Mən də güldüm. Əhməd ikinci nəlbəkini də başına çəkib dedi:

– Bəli, bu, doğrudur ki, sən ağlamamalısan. İndi sənin şənlənmə, sevinmə vaxtındır. Sən ana olmusan. Həyatında yeni bir rolu, təzə bir hissi təcrübə edirsən. Bunun həzzini qaçırma.

Çayı bitəndən sonra qalxıb dedi:
– Əgər icazə versən, korpusa baş çəkib tez qayıdacağam.
Əlini tutub öpdüm:
– Get, Əhməd can, amma sən də çalış ki, narahat olmayasan, – dedim.
– Əkbər ən uca məqama çatdı, – acı təbəssümlə dedi. – Xoş halına! Mən özümə görə narahatam ki, ən yaxşı dostlarımı bir-bir itirib tək qalıram.
Cəmi bir saat tək qaldım. Ləya mama gəlib dedi:
– Vay, canım ölsün! İp əski ilə doludur. Bunları necə yumusan?!
– Mən yox, Əhməd yuyub.
Məmnunluq ifadə edən təbəssümlə dedi:
– Necə də təmiz yuyub; qar kimi ağappaq olub hamısı, heç bir ləkə qalmayıb. Əlləri ağrımasın!
Yanımda oturub gözlərini üzümə dikdi:
– Niyə gözlərin qızarıb? – soruşdu.
Əli ilə başımı qarışdırdım. Yenə dedi:
– Səninləyəm, Fəxri, niyə gözlərin şişib? Sən çox ağlayanda gözlərin belə olur.
Yenə kövrəldim, amma çətinliklə özümü saxlayıb dedim:
– Əkbər Mənsuri şəhid olub.
– Aman Allah! – Ləya mama dizinə vurub dedi. – Zəhranın yoldaşı?
– Hə.
– Mən onu cəmi bir dəfə görmüşdüm; boy-buxunlu, ədəb-ərkanlı gənc idi. Allah ailəsinə kömək olsun! Deyəsən, universitet təhsili də vardı, düzdür?
– Hə... mexanika mühəndisi idi. Çox istedadlı və savadlı uşaq idi.

Ləya mama əlini çantasına salıb çəmən rəngində bir ingilis yaxalı və klyoş qollu köynək çıxarıb dedi:

– Sən təzə ana olmusan, indi bu evdə qonaqlıq, çal-çağır olmalıdır, oturub ağlamalı deyilsən.

– Vay, ana, yenə başlama! – başımı çevirib dedim.

– Bəli, bizim sözümüz tikanlıdır. Bilmirəm, bu ölkənin ordusu yoxdurmu? Gül kimi tələbə gənclər müharibəyə gedib şəhid olurlar.

– Ordu da var. Sənin ərin ordudandır, üstəlik, təqaüdə də çıxıb; hanı?

– Cəbhədə, – başını aşağı salıb narahat səslə dedi.

– Bəli, ordunun yanında könüllülərə də ehtiyac var. Görürsən ki, bizim müharibəmiz yalnız Səddamla deyil, bütün dünya Səddamın yanında dayanıb.

Siyasi söhbətə hövsələsi olmayan Ləya mama dedi:

– Vallah, bilmirəm; mən müharibəyə qarşıyam. Bunları boşla, qalx bu köynəyi gey. Bu rəngi qaçmış paltarları əynində görəndə ürəyim sıxılır. Üstəlik, ağlamısan, daha betər olmusan!

Köynəyi əlindən alıb yerə qoydum:

– Bunu bura qoy, bir az mənə qulaq as. Özün mənə dəfələrlə ruhani olan atan Seyid Baqirdən danışmısan. Onun maddi vəziyyəti yaxşı olsa da sizi Allaha, Peyğəmbərə imanlı və dindar şəkildə böyüdüb, laqeyd və avara kimi yox. Bağınız, mülkünüz, xidmətçiniz, böyük eviniz, get-gəliniz olub, düzdür?

Ləya mama bezmiş halda başını yelləyib dedi:

– Hə... düzdür. İndi bunun məsələyə nə dəxli var?

– Demək istəyirəm ki, biz Seyid Baqir kimilərin xalq arasında yaymağa çalışdığı həmin dinin müdafiəsi üçün vuruşuruq. Onlar da xalqı haqq-ədalətlə tanış etmək,

cəhalətə və zülmə razı olmalarına, şahı kor-koranə şəkildə Allah bilmələrinə imkan verməmək üçün çalışmışlar.

Ləya mama köynəyi götürüb yenə mənə verdi:

– Qalx, bunu gey...

Köynəyi əlindən alıb geyməyə başladım. Anam Əlini qucağına götürüb alnından öpdü:

– Allah atam Seyid Baqirə rəhmət eləsin! Ruhani olsa da, təəssübkeş deyildi. Bizim evimizdə hər gün Sədinin Bustan və Gülüstan kitabları oxunurdu. Bəlkə də, indi çox adam buna inanmaz, amma o, qızlarını heç nəyə məcbur etmirdi; necə ki, mən özüm də dörd qızımı məcbur etməmişəm. Biz özümüz ondan nəciblik və dindarlıq öyrənmişik. Deyirdi ki, özünüz bilərsiniz. Camaat ona inanırdı: hər təbəqədən, hər düşüncə tərzindən insanlar, hicablı və hicabsızlar, namazqılan və qılmayanlar. O deyirdi ki, mənim sözüm Allah üçün olsa, inanclıya da, inancsıza da təsir edər.

Köynəyi zorla əynimə geyib dedim:

– Ana can, mən beş gündür ana olmuşam; bu, dardır.

Əlini döşəyin üstünə qoyub mənə kömək etməyə başladı:

– Xeyr, heç də dar deyil. Sənə bir kəmər də gətirmişəm.

Çantasından enli bir kəmər çıxardı, mənə verib dedi:

– Çalış bunu bir-iki ay bağla. Özünü buraxma, bədəninin fiquru pozulmasın.

Təəccübdən gözlərim bərəldi:

– Vay... yəni hər doğuşdan sonra iki ay kəmər bağlayaraq bu qədər yaraşıqlı qalmısınız?

– Bəli, qadın nə qədər ki həyatdadır, gərək görkəminə və sağlamlığına fikir versin. Yoxsa qadın olmaz, Allahın gözəllik timsalı olmaz!

Ürəkdən gülüb dedim:

– Əhməd düz deyir ki, sənin anan nərmənazikdir...
Ləya mama da gülümsəyib:
– Nə deyim! Əhməd ağanın lütfü çoxdur! – dedi.
– İndi bunu kinayə ilə deyirsən?
– Yox, kinayə niyə; bəlkə də, mənim işlərimi düzgün saymır. Hərənin bir fikri var.
Gözəl və rəngli köynəyi çıxarıb dedim:
– Bu köynəyi və belliyi apar. Bunlar sizindir; təmizdir, istifadə olunmayıb. Mən qəbul edə bilmərəm, köhnəlib zay olar. Əgər zəruri olsa, Əhmədə deyərəm, alar.
Məndən və sözlərimdən yorulmuş Ləya mama çadrasını başına atıb dedi:
– Bu axşam Əhməd ağa gələndə bunları gey. Qorxma, köhnəlsə, özümə başqasını alaram. Pasdar maaşını zəruri ehtiyacların üçün saxla. Hərçənd, məncə, bunlar da ailə həyatının zəruri ehtiyaclarıdır.
Ləya mama getdi, bir neçə dəqiqədən sonra qayıdıb mənə hədiyyə paketində bir şey verib:
– Bu, Əhmədin ata olmaq hədiyyəsidir. Mənim tərəfimdən ona verərsən, - dedi.
Əhməd günbatan çağı gəldi, əynimdəki köynəyi görüb gülümsədi:
– Nə qəşəng olmusan, seyid xanım!
Əvvəl Əlinin bələyini dəyişdirdi, sonra hamama girdi və böyük bir qazanın üstündə oturub əski yumağa bağladı.
Ona yaxınlaşıb dedim:
– Əhməd, sən əski yuyanda mən xəcalət çəkirəm.
– Bu nə sözdür? – qaşqabaqla dedi. – Niyə xəcalət çəkirsən?
– Korpusdakı işlərin sənə bəsdir. Evə gələndə paltar yumanı istəmirəm.

– Belə danışma, ərköyün oluram! Sən bu uşağın anasısan, mən atası. Onu ikimiz birlikdə böyütməliyik.

Süfrəni sərdim. Əhməd gəlib süfrənin başında oturdu, mənim bəzənmiş üz-başıma baxıb dedi:

– Ləya mama nə vaxt getdi?

– Gəldiyini haradan bilirsən?

– Ona oxşamısan. Mən ki xəcalətliyəm. Bilirəm ki, səni atanın evindəki rahat yaşayışla təmin edə bilməmişəm, aylarla bazara aparmıram. Gənc qadının paltar şkafı boş, ev əşyaları da azdır.

– Özün yaxşı bilirsən ki, belə şeylərin mənimçün əhəmiyyəti yoxdur.

Süfrənin yanından ona doğru sürünüb qollarımı boynuna doladım:

– Mən yalnız müharibəyə görə narahatam. Qorxuram ki, sən gedəsən və...

Cümləmi bitirmədim. Zəhra yadıma düşdü, gözlərim yaşla doldu. Fikirləşdim ki, görəsən, indi nə edir. Yəqin ki, yuyucuxanaya gedib Əkbərin cəsədini görüb.

Əhməd çiynindəki əlimi tumarlayıb dedi:

– Yaşıl rəng sənə necə yaraşır! Sən əsla ananın qızı deyilsən... Ləya mama gözəl paltarlar mədənidir.

Bilirdim ki, Əhməd mənim darıxıb ağlamağımı sevmir. Özümü toparlayıb dərin nəfəs aldım. Əlimi onun barmaqlarının arasından çıxarıb Ləya mamanın hədiyyəsini önünə qoydum:

– Bu, ata olmaq hədiyyəndir. Anam dedi ki, verim, özün açasan.

Əhməd hədiyyəni götürüb ehtiyatla yapışqan lentlərini açdı. Nazik sarımtıl sviter idi, dirsəkləri dairəvi şəkilli qəhvəyi dəridən idi. Təəccübdən gözləri bərəldi:

– Vay, gör anan nələr edib!

Sviteri ondan aldım. Çox zərif və yumşaq toxunmuşdu. Onu üzümə yapışdırıb dedim:

– Necə gözəl və lətafətlidir!

– Mən bunu geyməréəm!

– Niyə?

– Bu, çox dəbdəbəlidir. Ləya mama mənim pasdar olduğumu və pasdarlığın sadə həyat tərzi demək olduğunu unudub.

– Amma mən bunu geyməyini istəyirəm. Bu, ata olmaq hədiyyəndir.

Əhməd sviteri qatlayıb hədiyyə kağızının arasına qoydu.

– Hələ vaxt çoxdur, sonra geyərəm.

Əlinin ağlamaq səsi gəldi. Gedib onu qucağıma götürdüm. O, süd içdiyi yerdə paltarımın ətəyini ovcunda bərk sıxırdı. Gülüb Əhmədə dedim:

– Gör Əli köynəyimdən necə yapışıb! Deyəsən, Ləya mamanın paltarından onun da xoşu gəlib.

Hər ikimiz gülüşdük. Əhmədə dedim:

– Heç bizim birlikdə şəklimiz yoxdur. Toyumuzda da şəkil çəkdirmədik. Bir fotoaparat tap, üçümüz birlikdə şəkil çəkdirək.

Əhməd yaxınlaşıb Əlinin alnından öpdü.

– Baş üstə, Fəxri can, fotoaparat da gətirərəm.

– Əhməd, sən çox mehriban və insaflısan, – gülümsəyib dedim.

– Sən də nəcib və vüqarlısan. Ancaq bir qədər həssassan.

– Mən səninlə ailə quranda elə bilirdim ki, evdə musiqi səslənməsinə, xanımlarının bəzənməsinə, rəngli və dəbli paltar geyməsinə icazə verməyən bəzi adamlar kimi olacaqsan. Ancaq sən özün mənə deyirsən ki, sənin üçün

oxuyum, geyimimi tərifləyirsən, mənim sevinməmə, özümə inanmama səbəb olursan. Mən hiss edirəm ki, gözəl və cazibədar xanımam.

Əhməd üzümdən öpüb dedi:

– Əlbəttə, eləsən! Sən mənim gözəl xanımımsan! Xanımı yoldaşının yanında, evinin içində geyinib rəqs etməyə, şənlənməyə icazə verməmək, həqiqətən, təəssübkeşlikdən və köhnəfikirlilikdən başqa bir şey ola bilməz. Mən dəbdəbəli və israfçı həyata qarşıyam. Sən də beləsən. Biz hər ikimiz inqilabçıyıq. İnqilab daxili dünyanı sadə həyata doğru dəyişdirməkdən, dəbdəbədən uzaq durmaqdan, amma halal ləzzətlərdən, özümüzü məhrum etdikdə savab verilməyən, əksinə, təkəbbürlülüyə, özümüzü digərlərindən üstün tutmağa səbəb olan nemətlərdən bəhrələnməkdən ibarətdir.

Əhmədin sözləri məni duyğulandırdı. Dərin köks ötürüb gözlərimi süddən sonrakı qazını çıxarmaq üçün Əlinin kürəyinə vuran əllərinə dikdim. Fikirləşdim ki, o, mənim müəllimimdir, mən onun yanında daha kamil insan oluram. Həmin anda fikirləşdim ki, ailə üzvlərindən hər hansı birini itirməyə dözə bilərəm, amma Əhmədi itirməyə əsla. Mən xoşbəxt qadın idim, amma canını haqq yolunda qurban verməyə hazırlaşdığını bildiyin bir adamla yaşamaq, ona aşiq olmaq çox əzabverici idi.

– Əhməd, sən məni sevirsən? – özümdən asılı olmadan soruşdum.

Əlini yerinə qoydu, təəccüblə mənə baxıb:

– Bu nə sualdır?! Əlbəttə ki, sevirəm! – dedi.

– Nə qədər?

– Bilmirəm, – dedi və bir az fikirləşib əlavə etdi: – Əgər bütün dünya qədər desəm, yalan söyləmiş olaram.

– Amma mən səni dünyadan da çox sevirəm.

– Aha... tələsdin, seyid xanım, – gülüb dedi, – mən, ümumiyyətlə, dünyanı sevmirəm. Dünya maddiyyatdır, sənsə mənim mənəvi eşqimsən. Maddiyyatın mənim üçün dəyəri yoxdur, çox tez adiləşir. Mən səni Allah yolunda qurban vermək istədiyim öz canım qədər sevirəm. Yalnız bunu deyə bilərəm.

Yataqları sərdi, saatı qurub başının üstünə qoydu. Ona baxa-baxa dedim:

– Saatı niyə qurursan?

– Rəcəb ayı bitmək üzrədir, ramazanın ətri gəlir. Sabah oruc tutmaq istəyirəm.

– Vay... kaş deyəydin. Xuruş və ya toyuq bişirərdim. İstanbul plovu ilə on beş saat ac qalmaq olmaz.

– Olar, lap o yana da keçər, – gülüb dedi. – İradə etsən, yavan çörəklə də olar. Bu plovu da obaşdana sənə görə yemək istəyirəm ki, narahat olmayasan, nə üçün obaşdansız oruc tutdun deməyəsən.

– “Siz necə insansınız?!” deməkdə Ləya mama haqlıdır, – gülüb dedim. – Nə yediyiniz, nə geydiyiniz sizin üçün mühüm deyil. Siz bütün həyatı sual altına almısınız!

Əhməd də güldü, işığı söndürdü, Əli ilə məni qucaqlayıb yatdı.

Həmin il ramazan ayı yayın ortasına düşürdü. Əhməd mənə dedi ki, uşağa süd verdiyimə, zəif və arıq olduğuma görə oruc tutmayım. Ancaq mənim orucumu yeməyə ürəyim gəlmirdi.

Orucluğun ikinci günündə iftara yaxın Əhmədin balaca qardaşı Rəhman ona bir bağlama gətirdi. İsrar etdim ki, iftara qalsın. Dedi: "Bu şərtlə ki, özünü əziyyətə salmayasan".

Rəhmanın on altı yaşı vardı. Siması məzlum və məsum görünürdü. Yaşından böyük davranırdı. Mən onda qırx

yaşlı bir kişinin yetkinliyini görürdüm. Əhməd deyirdi: "Rəhman uşaqlığından, bəlkə də, yeddi yaşından işləyir. O, ailəyə yük olmağı, atamızdan xərclik pulu almağı sevmir".

"Rəbbəna" duası başlayanda süfrəni sərdim. Rəhman gedib dəstəmaz aldı, azan veriləndə əvvəlcə namazını qıldı, sonra süfrəyə oturdu. Ləya mama bir qab küftə göndərmiş, ev sahibi də bir qab əriştə aşı gətirmişdi. Mən də yanına çörək, pendir, çay və şəkər qoydum. Əhməd adətən iftarı qərargahda edirdi.

Rəhman süfrəyə baxıb dedi:

– İki nəfərə bu qədər yemək çox israfdır. Mənim bu xörəklərdən yeməyə ürəyim gəlmir.

– Niyə, Rəhman dadaş?

– Bəlkə də, sən tanımazsan, amma mən indicə səni elə bir evə apara bilərəm ki, süfrəsinə pendir-çörəklə şirinçayı çətinliklə qoya bilir.

Rəhmanın vücudunda zahidlik və sadəlik vardı, adamın ürəyinə yatırdı. Gülümsəyib mehribancasına ona baxdım, küftə boşqabını önünə qoyub dedim:

– Bəlkə də, Əhmədlə mən sənin təqvana çata bilmərik, amma biz də özümüzü yoxsul insanlara borclu bilirik, onlar kimi yaşamağa çalışırıq.

Rəhman sözümü kəsib dodaqaltı dedi:

– Məqsədim bu deyildi ki, siz, Allah eləməmiş, israf edirsiniz.

Küftə boşqabını göstərib dedim:

– Bunu anam göndərib, aşı da ev sahibi gətirib. Arxayın şəkildə ye. Rəhman dadaş, sənin ruzi qismətin çox olduğuna görə bu axşam süfrəmiz rəngarəng olub. Adətən bizim iftarımız da yoxsulların süfrəsindəki pendir-çörəklə şirinçaydan artıq olmur.

Bunu deyəndən sonra arxayınlaşmış kimi gülümsədi, bir küftə götürüb yeməyə başladı.

Əliyə soyuq dəymişdi, öskürürdü. O hər dəfə öskürəndə Rəhman tikəsini boşqaba qoyub həyəcanla Əlinin başı üstə gedir, ona baxıb deyirdi:

– Vay, uşaq boğulmasın!

– Yox, Rəhman dadaş, niyə boğulsun ki?! Uşağa soyuq dəyib, öskürməsi normaldır.

Həmin axşam Əhməd ev sahibinin telefonuna zəng vurdu, mənə dedi ki, Rəhmanla anamgilə get, mən də gələcəyəm.

Rəhman süfrəni yığışdırmağa və qabları yumağa kömək etdi. Sakit və mehriban oğlan idi. Əhmədin özü kimi idi, yeyib yerində oturmazdı. Əlini ədyala bükdüm, Rəhman qucağına götürdü və piyada yola düşdük. Yolun ortasında birdən Rəhman qışqırdı:

– Vay... İlahi!

– Nə olub, Rəhman? – qorxub soruşdum.

– Uşaq yoxdur!

– Necə yəni uşaq yoxdur?!

Gördüm ki, uşaq ədyalın arasından sürüşüb, ayaqları sallanır, başı isə görünmür. Tez ədyalı Əliyə büküb onu Rəhmandan aldım. Rəhman rahat nəfəs alıb:

– İlahi, Əli az qala ədyalın arasından yerə düşəcəkdi! – dedi, hər ikimiz gülüşdük.

Mən:

– Sən mənim çantamı al, Əlini özüm götürərəm, – dedim.

– Uşaqlar pak və məsumdurlar, bizə ehtiyacları var. Bir an onlara fikir verməsək, nəsə ola bilər. Məncə, uşaq böyütmək çətin işdir.

– Yox, əşi... o qədər də çətin deyil. İnşallah, bir gün ata olarsan, uşaq saxlamağı öyrənərsən. Məncə, sən mehriban və fədakar ata olacaqsan, Rəhman!

Rəhman mənə baxdı. Anasıgilin qapısının yanındakı lampanın işığı onun arıq üzünə düşürdü. Baxışı qəribə idi. Sanki mənim nə barədə danışdığımı bilmir, başa düşmürdü.

# Səkkizinci fəsil

Ramazan ayının, həmçinin iyulun sonları idi. Günortadan sonra isti havada ventilyator fırlanırdı. Əlinin başının üstündən aşırdığım nazik tülü götürdüm. Boğazım qurumuşdu, susamışdım. Otağın küncündəki taxta şkafdan Quranı götürüb oxumağa başladım. Həyətdən Əhmədin səsi gəldi.

Soruşdum ki, nə olub? Alnının tərini sildi. Əlinin başı üstə oturub əvvəlcə ona, sonra mənə baxdı. Baxışları həyəcanlı idi, danışmağa tələsirdi, amma sanki nəsə ona mane olurdu.

Quranı bağlayıb kənara qoydum, istidən qızarmış gözlərinə baxıb dedim:

– Əhməd, nə olub, niyə narahatsan?

– Bilmirəm bu xəbəri necə söyləyim.

– Danış, Əhməd, nə olub? – daha da həyəcanlandım.

– Rəhman şəhid olub! – dərhal cavab verdi.

– Rəhman şəhid olub?!

– Bəli, Rəhman şəhid olub.

Rəhmanın qərib baxışları yadıma düşdü. Ona "sən yaxşı ata olacaqsan" deyəndə mənə elə baxmışdı. Özümdən asılı olmadan ağlamağa başladım.

– Qalx, gərək anamgilə də söyləyək, – Əhməd dedi, sonra çiyinlərimdən tutub məni silkələdi. – Fəxri can, qalx, gərək anamgilə gedək.

Başımı onun çiyninə qoyub ağlaya-ağlaya dedim:

– Əhməd! Bu oğlan nə qədər məzlum yaşadı, məzlum da getdi! Bir neçə gün öncə səhər tezdən səninlə sağollaşmağa gəlmişdi. Dedim ki, qərargahdadır. Mənə dedi: "Mən bir azdan cəbhəyə gedəcəyəm. Məndən yaxşılıq-pislik görmüsünüzsə, halal edin". Dedim ki, bu nə sözdür, Rəhman dadaş, inşallah, sağ-salamat qayıdacaqsan. Ona dedim: "Evdən səni yola salmağa heç kim gəlməyib? Gözlə, hazırlaşıb gəlirəm". Baxış və davranışındakı həmişəki minnətdarlıq ifadəsi ilə əlini sinəsinə qoyub: "Yox, səhər tezdən idi, anamla atamı oyatmaq istəmədim. Sənin də körpən var, əziyyət çəkmə" - dedi və sağollaşıb getdi.

Hıçqıra-hıçqıra Əhməddən soruşdum:

– Sən əminsən ki, şəhid olub? Xəbəri kim gətirdi?

Əhməd yavaşca kürəyimə vurub dedi:

– Belə ağlama, Fəxri can, məni də ağlatdın. Rəhman mənim arzuladığım məqama çatdı. Mən ona qibtə edirəm. O, yüzillik yolu birgecəyə qət etdi. Onun komandiri Nasir Əjdəri deyir ki, 48 dərəcə istidə, Zeyd zastavasında boynundan asdığı böyük bir termosla torpaq istehkamın arxasında qaçırdı, döyüşərək tərləyən, susayan döyüşçülərə su aparırdı. O, batalyonun supaylayanı idi. Nasir Əjdərinin dediyinə görə, batalyonları T-72 tanklarının tələsinə düşüb, üç istiqamətdən başlarına top mərmisi yağırmış. Dediyinə görə, atəş o qədər güclü imiş

ki, hər bir döyüşçü bir mərmi ilə parçalanıb ətrafa səpələnirmiş. O bölükdən təxminən heç kim salamat qayıtmadı, hamısı şəhid oldu, cəsədlərini də gətirə bilmədilər. Rəhmanı itkin elan ediblər. Pərviz Ətayi də orada şəhid olub.

Bu xəbəri qayınatamla qayınanama verəndə qayınatam əllərini göyə qaldırıb kövrək səslə dedi: "Allah, bu qurbanı bizdən qəbul elə!"

Rəhman səssiz-səmirsiz yaşadı, səssiz-səmirsiz də getdi. Dəfni olmadı, ona məclis keçirilmədi.

Bu xəbərdən sonra bir-iki ay çox əzab çəkdim. Rəhman 12-13 yaşından dayısının dükanında işləmişdi. Dayısı deyirdi:

"Yayın istisində ona gilas və ya albalı aparırdım, yeməyib deyirdi: "Dükanın qabağındakı Vanetdən aldığım qarpız mənə kifayətdir. Dayı can, düşünmürəm ki, hamının gilas və albalı almağa imkanı çata". Nə qədər israr edirdim ki, gecələr yatmağa evə gəlsin; razılaşmayıb deyirdi ki, dayım yoldaşı əziyyətə düşər, narahat olar, mən burada rahatam. Səhər işə gələndə görürdüm ki, dükanın yerinə bir çadır sərib, üzərində yatıb. Deyirdim ki, Rəhman can, sənə yumşaq döşək gətirmişəm, niyə altına sərmirsən?"

Rəhman az yaşı ilə mənəvi paklıq halındaydı; özünü ağır işlərə məcbur edir, bədənini çətinliyə alışdırırdı. Gözlərinə baxanda on altı yaşlı bir yeniyetmənin deyil, qırx yaşlı təqvalı bir kişinin dühasını görürdün.

Rəhman şəhadətindən sonra mənim üçün meyara çevrildi. Fikirləşdim ki, mənəvi dünyamı düzəltməli, həyatın maddi ehtiyaclarını aradan qaldırmağı düşünməməliyəm. Sahib olmadıqlarımın və əldən

verdiklərimin məni nə qədər narahat etdiyini hiss edirdim. Halbuki sakit və razı bir insan olmağı sevirdim.

Rəhmanın şəhadətindən bir müddət sonra Hava limanı məhəlləsində yerləşən və kirayə haqqı bizim üçün çox olan evdən çıxıb Şimali Sədi məhəlləsinə köçdük. Orada bina evləri vardı, müvəqqəti yaşamaq üçün korpus işçilərinə verirdilər. Beləliklə, vəziyyətimiz yaxşılaşdı.

Köçəndən sonra bir gün Ləya mama oraya məni görməyə gəlib dedi:

– Fəxri, Əhməd adətən evdə olmur, bura da şəhərin sonudur, çöllükdür. Evin ətrafı çöl itləri ilə doludur. Allah eləməsin, axşam xəstələnsən, həkimə getməyə maşın da tapmazsan!

– Allah kömək edər, narahat olma, ana can, – deyib süfrə sərdim, göyərti, çörək və plov çəkib anama dedim:

– Buyurun.

Ləya mama bir plov buluduna, bir də mənə baxıb dedi:

– Elə bu?

– Hə.

– Boş plov? Bəs toyuğu hanı, qarası hanı?

– Soğanı tomatda qızardıram, plovu da üstünə tökürəm, çox dadlı olur.

Əli süfrənin sərildiyini görüb əl-ayaq çalır, gülürdü. Bir neçə düyünü yaxşıca əzib onun ağzına qoydum. Ancaq özüm gəlib bir qaşıq yemək istəyən kimi ürəyim bulandı. Əlini anama verib tualetə qaçdım. Səhərdən heç nə yeməmişdim, mədəmdən heç nə gəlmirdi, ancaq o qədər öyüdüm ki, Ləya mama gəlib çiyinlərimi ovdu, üzümə bir ovuc sərin su töküb dedi:

– Rahat ol, mənim əziz qızım!

Ləya mamanın düzəltdiyi isti nabat şərbəti dadıma çatdı, halım yaxşılaşdı. Anam məni diqqətlə süzüb dedi:

– Sən hamiləsən, Fəxri?

– Yox, əşi, – dedim.

Göyərti boşqabından bir neçə nanə yarpağı götürüb ağzıma qoydum. Əli manejdəydi; sürüşür, mənə baxıb gülürdü. Mən də gülüb dedim:

– Ay Allah... buna bax... Fəxri mama gülərüz oğluna qurban olsun!

Anam arıq biləyimdən tutub dedi:

– Bəs Ləya mama nə olsun?! Ürəyi dərdli qızına görə narahat olsun, ya olmasın?!

Əlinin manejini özümə yaxınlaşdırdım, əlimi anamın əlindən çəkdim, Əlinin ağ toppuş yanaqlarından öpüb dedim:

– Yox! Mənə görə niyə narahat olasan ki?!

– Həqiqətən, başa düşmürsən? – Ləya mama dedi. – İndi ki özün ana olmusan, gərək məni yaxşı başa düşəsən. Mənim evimdə əllə toxunmuş bir neçə xalça sərilib, halbuki qızımın bütün evinə kovrolit döşənib, xalça da yoxdur. Mənim baş-boynum qızılla doludur, gənc qızımınsa bir tikə qızılı da yoxdur.

– Sən bilirsən ki, bu şeylər mənim üçün əsla önəmli deyil. Onlara ehtiyac hiss etmirəm.

– Olsun... haqlısan. Mənim evimdə olanda da belə şeylərə həvəsin yox idi. Bəs mən necə ət və toyuq yeyim, amma siz düyünü tomatda qızardıb yeyəsiniz?.. Ağzıma bir tikə qoyanda sənin kasıb süfrən yadıma düşür, boğazım bağlanır.

Ona baxıb təbəssümlə dedim:

– Bu artıq sənin problemindir.

– Eybi yox, mənim problemim olsun, – Ləya mama başını yelləyib dedi. – Doğuş vaxtında gəlməyəcəm, onda biləcəksən ki, kimin problemidir.

Əlindən tutub öpdüm və dedim:

– Ana, sən Allah, belə eləmə. Uşağım dünyaya gələrkən sən yanımda olanda özümü daha güclü və rahat hiss edirəm, öz-özümə deyirəm ki, anam beş uşaq doğub, özü də sağ-salamat, gümrah və gözəldir; deməli, mən də bacararam.

Ləya mama başını yelləyib dedi:

– Deməli, hamiləsən?

– Hə... istəmirdim ki, biləsən, – gülüb dedim. – Bilirdim ki, narahat olacaqsan.

Anam kəfgirlə buluddan boşqaba bir qədər plov tökdü, qaşığın arxası ilə əzib yemək üçün çabalayan Əlinin ağzına qoydu:

– Gəl ye, salavat uşağı! Uşağın da özün kimi soyuqqanlı və gülərüzdür. Axı mən sizə nə deyim?! Mən sənin hamilə olduğuna görə niyə narahat olmalıyam?! Uşaq Allahın nemətidir. Adam nemətə görə narahat ola bilməz. Ancaq bu qədər tez və proqramsız olmamalıdır. Əli altıaylığına təzə girib. Sənin ağır doğuşun olub, hələ özünə gəlməmisən. Bu çətin şəraitə necə dözəcəksən? – dedi, sonra isə süfrəni göstərib əlavə etdi: – Buyur, bu da yeməyin: soğanplov!

Çörəyin arasına bir ovuc göyərti qoyub bir qədər duz vurdum, iştaha ilə yeməyə başlayıb dedim:

– Mən güclü qadınam, arıqlığıma baxma.

Ləya mama qaşlarını düyünləyib dedi:

– Yox bir... Vaxt eləsən bir az özünü tərifləyərsən!

– İnan mənə, ana, mən Əhmədin yanında başa düşdüm ki, mənə güc və sağlamlıq verən bu rəngarəng xörəklər deyilmiş. Bu rahatlıq və Allahın istəyi qarşısında təslim olmaq mənim Əliyə analıq, Əhmədə xanımlıq etməmə, bətnimdəki uşağımın da inkişaf etməsinə səbəb olur.

Rəhmanı görmüşdün də, çox arıq idi. Vallah, bəlkə də, on altı illik ömrü boyunca iki əlinin barmaqları qədər toyuq və ət yeməmişdi, amma ən çətin işləri görürdü. Onda elə fiziki və mənəvi güc vardı ki, mən imkanlı ailələrdə böyüyən uşaqların çoxunda görməmişəm. Rəhman nəfsinə o qədər qalib gəlmişdi ki, on cür xörək qoyulmuş bir süfrə kənarında oturtsaydı, dilini bir xörəkdən artığına vurması qeyri-mümkün idi. O, yaxşı xarakterləri özündə inkişaf etdirmişdi, ruhunu böyütmüşdü. Bilirsən, ana, çox vaxt oruc tuturdu.

Ləya mama mat-məəttəl mənə baxırdı. Dedi:

– Allaha təvəkkül... Bəlkə, ruhunu böyütmək üçün özünü bu xörəkdən də məhrum edib tərki-dünya olasan!

Hər dəfə Rəhmandan danışanda vücudumda elə şövq yaranırdı ki, üzüm tərləyirdi. Ləya mama gözlərini üzümə elə narahat halda dikib bu cümləni dedi ki, sanki mənim altıaylıq bir körpə ilə və hamilə halda sabahdan oruc tutacağıma inanmışdı.

Özümdən asılı olmadan gülməyə başladım:

– Yox, əşi, mən heç vaxt onun kimi ola bilmərəm. Amma biz şəhidlərə bənzəyə bilərik.

Anam Əlini öpüb dedi:

– Allaha şükür... Bax, Fəxri can, Allah bizə bu qədər nemət verib, deməyib ki, ət və ya toyuq yeməyin. Deyib ki, yeyin, amma israf etməyin. Mən hər gün namazlarımda dua edirəm ki, Allah kasıblara kömək etsin, onların problemlərini aradan qaldırsın. İndi gedib aptekdən sənə karbon tablet və vitamin alacağam. Əgər özünü düşünmürsənsə, bədənindən qidalanan uşağı düşün.

Ləya mama gedib dərman, şərbət və vitamin dolu bir torba və onların hamiləlik dövründə istifadəsinə dair təlimat kağızı ilə gəlib:

– Bunları iç, gələn həftə vaxt alacağam, qadın həkiminə gedəcəyik. Gərək ilk aylardan həkim nəzarətində olasan, – dedi.

– Əhmədlə qərara gəlmişik ki, doktor Yəsubi xanımın yanına gedək. Vaxt alıb, sən əziyyət çəkmə.

– Lap yaxşı! Yəsubi yaxşı həkimdir. Mütləq get, səhlənkarlıq eləmə!

– Əhməd gələnə qədər qal. Səni görsə, sevinər.

– Yox, hava qaralmamış getməliyəm. İndidən ətrafda itlər dolaşır, gör axşam nə olar!

– Yaxşı, ana can, necə istəyirsən.

Qapıya qədər gedib yenə geri qayıtdı, narahat halda dedi:

– Fəxri, birdən Əhməd ağa səni qoyub cəbhəyə gedər ha! Vallah, əldən düşərsən... Mən sənin fikrindən dəli olaram. Onda gərək gəlib mənimlə qalasan.

– Yox, narahat olma, – gülüb dedim. – Bu da mənim duamdandır, nə qədər israr edirsə, korpus komandiri qərargahı buraxıb uzun müddət cəbhədə qalmasına icazə vermir. Deyir ki, burda heç kimimiz yoxdur, qərargahın işləri yerdə qalar; deyir ki, sənə burada daha çox ehtiyac var, nəinki cəbhədə. Yazığın başına o qədər iş töküblər ki, səhər tezdən gedib gecə qayıdır: təbliğat, ictimai əlaqələr, maddi-texniki təminat, döyüşçü ezamı və s. Hələ ki burdadır.

Anam əllərini qaldırıb dedi:

– Allaha şükür... Hər halda, Allahın lütfü böyükdür, o, sizi qoyub getməməlidir.

– Amma arxasınca çox danışırlar. Deyirlər ki, Əhməd Yusifi cəbhələrə ezam və təbliğat bölmələrinin rəisidir, amma özü arxa cəbhədə fəaliyyət göstərir. Əgər Qamət Bəyat təskinlik verməsəydi, hər şeyi burada buraxıb

cəbhəyə gedəcəkdi. Qamət Əhmədin yaxın dostudur, əgər bir gün, Allah eləməmiş, o, şəhid olsa, hiss edəcəyəm ki, Əhmədi də tezliklə itirəcəyəm, – dedim, sonra isə dodaqaltı əlavə etdim: – Qamət yaxşı oğlandır: pak, nəcib, mehriban. Gərək ona yaxşı bir qız tapım, onun böyük ruhunu dərk edəcək qız.

Ləya mama gözlərini mənə dikdiyi halda dedi:

– Hə, özün böyük bir ruhdan az çəkirsən, başqa bir qızı da ilişdir!

– Ay ana, belə demə, bu kişilərlə yaşamaq bir nemətdir, hər kəsə qismət olmur. Bu insanlar ömürlərinin ən yaxşı illərində, dünyanın ləzzət və əyləncələrinə qərq olmalı bir çağda hər şeyə göz yumub imamın eşqi ilə, dini qorumaq və Allahın razılığını qazanmaq üçün canlarını təhlükəyə atırlar, 60, 81 və 120 mm çaplı minaatanların, müxtəlif raketlərin, salxımlı bombaların altına girirlər.

– Ah... – Ləya mama sözümü kəsib dedi, – adlarını necə də bilir! Daha əl çək, mən getdim.

– Sən Qaməti tanıyırsan, o, mənim partladıcı maddələr üzrə müəllimim olub. Zəncandan cəbhəyə göndərilən bütün birləşmələr ona tabedirlər.

– Bəli, yadımdadır, o zaman adlarını çox çəkirdin: Qamət Bəyat, Əsğər Məhəmmədian, Əkbər Mənsuri. Bu bir neçə ad yadımda qalıb.

– Vay, mama... Demə... adlarını çəkmə, ürəyim yanır. Mənim o qədər əxlaq, ixlas, hərbçilik və inqilabçılıq öyrəndiyim insanlar... İndi onlardan yalnız Qamət qalıb, hamısı şəhid olub.

– Allah analarına səbir versin! Allah bu cavanı ailəsi üçün qorusun! Məncə, Əhməd Yusifinin niyə cəbhəyə getmədiyini ancaq dar düşüncəli adamlar deyə bilərlər. Niyə demirlər ki, Əhməd Yusifi on altı yaşlı yeniyetmə

qardaşını cəbhəyə göndərib, hələ cəsədi də gəlməyib. Gərək bu sözlərin təsiri altına düşməyəsiniz.

Ləya mamanın bu qətiyyətli cavabını eşidib çox təəccübləndim. Hiss etdim ki, o, nə qədər insaflı, güclü və düşüncəli qadındır. Qalxıb əllərimi üzünün hər iki tərəfinə qoyub onu öpdüm. Həm üzünü turşutdu, həm də gülümsəyib dedi:

– Yaxşı, daha ərköyünləşmə, burax gedim.

Bir neçə saniyə onu bərk qucaqladım, sonra yavaşca buraxdım.

Ləya mama gözlərini üzümə dikib dedi:

– Qəşəng gözlərinə qurban! İki ildir evimdən getmisən, elə bil iyirmi il böyümüsən. Lütfən bu oğlan üçün... adı nə idi?..

– Qamət.

– Hə, Qamət üçün qız axtarmaq lazım deyil. Ev sahibiniz ağa Tağının on doqquz yaşında ağ gəlin paltarı geymək yerinə yas paltarı geyib dul qalmış bacısı Zəhranın təcrübəsi ona bəs deyil?

Başımı aşağı salıb bir söz demədim. Ləya mama getdi, mən də fikrə daldım. 1980-ci ilin payızında Əhmədə müsbət cavab verdiyim andan bilirdim ki, bir gün onu itirəcəyəm. Ona dəli kimi aşiq olduğum bütün anlarda ölüm və şəhadət fikrinin beynimdən keçməməsi və eşq hissinin bir anda cansıxıcı ağrıya çevrilməməsi qeyri-mümkün idi. Bəs nə üçün digərlərini də bu daimi iztiraba düçar etməyə çalışırdım?

1983-cü ilin fevralında Əhməd qonşuya zəng vurub dedi ki, gecə evə gəlməyəcəyəm. Səbəbini telefonda söyləmədi. Ertəsi gün günbatan çağına qədər narahatlıqdan ürəyim bulanırdı. Hava soyuq idi, neft sobası və suqızdırıcı hər bir neçə saatdan bir doldurulmalı

idi. Mənsə dördaylıq hamilə idim; çətin olurdu. Əhməd də heç vaxt xəbərsiz və səbəbsiz gecəni başqa yerdə qalmazdı.

Nəhayət, axşam saat 10-da üst-başı yaman gündə gəldi.

Soruşdum:

– Nə olub, Əhməd?

Başını yellədi. Bildim ki, danışmaq istəmir. Düşündüm ki, israr etməyim, yenə səbirli olum, özü danışsın. Əlini sobanın yanına aparıb paltarlarını dəyişdirdim, sonra da paltarları hamama aparıb yudum. Hamamdan çıxanda gördüm ki, Əhməd sobanın yanında Əlini qucaqlayıb, ikisi də yatıb. Yanlarında oturub yavaşca Əhmədin saçını tumarladım. Büzüşmüşdü, üzü görünmürdü. Çox arıq idi, onurğa sümükləri paltarın üstündən bilinirdi. Bir ədyal götürüb ata ilə oğulun üstünə atdım. Getmək istəyəndə məni çağırıb dedi:

– Fəxri can!

– Bəli. Bir şey istəyirsən?

– Yox, mümkünsə, yanımda otur.

Yanında oturdum.

– Mənim üçün oxu.

Daha da həyəcanlandım, başım gicəlləndi, karıxdım. Əhməd ya çox sevincək, ya da çox qəmli olanda onun üçün oxumağımı istəyirdi. Bəs onun bu qədər kədərlənməsinə nə səbəb olmuşdu?

– Nə oxuyum, Əhməd can? – yavaşca soruşdum.

– "Payız gəldi" şeirini.

Əlimi yavaşca çiyninə qoyub oxumağa başladım:

Payız gəldi,
Ağacların arasında yuva qurdu göyərçin,
Yağışın suyundan qaçaraq...
Günəş bütün qüruruna rəğmən, qəmdən

Qara buludun arxasında eşqlə ağlayır...[1]

Bir neçə saniyə dinmədim. Əlim Əhmədin çiyni üstündə qalxıb-enirdi.

– Əhməd, ağlayırsan...

– Oxu, – sözümü kəsib dedi.

Beynim işləmirdi, şeir yadımdan çıxmışdı. Xatırlaya bildiklərimi oxuyurdum:

Zirvələr yolçusuyam mən,
Yoluma davam edirəm tufanda,
Dağda, susuz səhrada, ya da meşələrdə.
Şən və ümidvar bir yolçuyam.
Varlıq şeiri - olmaq, çalışmaq, getmək və qovuşmaqdır,
Əyrilikdən qopmaq, haqq yoluna fəda olmaqdır...

Əhmədin ağladığını görüb mən də hıçqırığa başladım. Son iki beyti ağlaya-ağlaya təkrarladıq:

Varlıq şeiri - olmaq, çalışmaq, getmək və qovuşmaqdır,
Əyrilikdən qopmaq, haqq yoluna fəda olmaqdır.

– Əhməd, çox sıxıldım, – dedim, – sən Allah, de görüm nə olub?

– Qamət şəhid olub, – dərhal cavab verdi.

– Nə?!

– Düz eşitdin: Qamət şəhid olub. Bilirəm ki, sən də inanmırsan, elə mənim kimi.

Əlimi Əhmədin çiynindən götürüb sobanın arxasına doğru sürüşdüm, başımı divara dayadım. Hiss elədim, ikimiz də o qədər əzab və ağrı çəkirik ki, bir-birimizə təsəlli vermək imkanımız yoxdur. Öz kədərimizə qərq olmağa ehtiyacımız vardı.

---

[1] Şeir Səid Sultanpurundur.

Səma mavi idi. Pəncərədən bütün otağa düşən günəş işığı Zəncan qışının soyuq və gözəl bir gününün elçisi idi. Damdan sallanmış buzların ucundan yavaş-yavaş su damcıları qopub yerə düşürdü.

Özümü sobaya yaxınlaşdırdım. Soyuq idi. Əhməd kanistrlə otağa girdi, sobanın bakını doldurdu, bir kağız yandırıb sobanın içinə atdı. İstilik yavaş-yavaş sobadan üzümə vurdu, damarlarımda donmuş qanın axmağa başladığını hiss etdim. Ayağa qalxmaq istədim. Əhməd başqa bir ədyalı Əli ilə mənim üstümə sərib dedi:

– Sən istirahət elə, mən gedirəm.

– Səhər yeməyini ye.

– İşdə bir şey yeyərəm.

Başımı Əlinin üzünə yaxınlaşdırdım. Sürətli və dərin nəfəslərinin hərarəti üzümə dəydi. Uşaq şampununun ətri və şirin süd qoxusu gəlirdi. İçib qurtardığı süd şüşəsini çətinliklə ağzından çıxardım. Dodaqlarını bir-birinə sıxıb yenə sorurdu, ancaq şüşədə süd yox idi. Gülümsədim. Ona yazığım gəldi. O, iki yaşına qədər süd içməli idi, mənim hamiləliyim isə onu bu haqqından məhrum etmişdi. Özümdən asılı olmadan əlimi qarnıma çəkdim. Sanki bətnimdəki körpənin nəvazişə ehtiyacı vardı. Dərin köks ötürdüm. Bir əlim qarnımda, bir əlim də Əlinin alnında arxası üstə uzandım. "Əgər analıq eşqi və öhdəliyi olmasaydı, bu qədər ağrı-acıya necə tab gətirə bilərdim?" – deyə öz-özümə düşündüm.

# Doqquzuncu fəsil

Hacər 26 iyun 1983-cü ildə xanım doktor Yəsubinin klinikasında dünyaya gəldi. Adını Əhməd özü seçdi. O deyirdi:

– Mən qızı çox sevirəm. Qız atanın dostudur. Adını Hacər qoyuram, çünki Hacər dünyada məzarı təvaf olunan yeganə qadındır.

Hacərin beşgünlüyündə həyətə çıxıb gördüm ki, yerdə paltar və əski dolu iki ləyən və qab dolu bir ləyən var. Qollarımı çırmayıb oturdum. Yumağa təzə başlamışdım ki, Əhməd gəlib dedi:

– Vay-vay! Məgər sən təzə uşaq doğmamısan?! Paltar niyə yuyursan?!

Əllərimi suya çəkdi, qolumdan tutub otağa apardı, uşaqların yanında oturdub dedi:

– Özüm yuyacam. Bəxtin gətirdi, iclas günortadan sonraya qaldı, mən də ev işlərini görməyə gəldim.

– Əhməd, sən paltar yuyanda mən xəcalət çəkirəm, – başımı aşağı salıb dedim.

Başını əyib gözlərimin içinə baxdı, gülümsəyib dedi:

– Niyə, seyid xanım?

– Sən kişisən, bir neçə ağır vəzifən var. Evdə bu işləri görməməlisən.

Əllərimdən öpüb dedi:

– Bəlkə də, inanmayacaqsan, amma mən uşaq paltarı və əski yumağı çox sevirəm. Balaca və məzəli paltarlardır. Bunlar mənim uşaqlarımın paltarlarıdır. Mən bu həyatı, səni və ailəmin işlərini çox sevirəm.

Qollarımı boynuna dolayıb bir neçə dəfə yanaqlarından öpdüm:

– Onda evə aşiqliyə gəlmisən? – dedim.

– Mən sənin qədər gözəl və şirin bir varlıq görməmişəm, – deyə ürəkdən güldü.

Başımı çiyninə qoyub dedim:

– Əhməd, məni nə qədər sevirsən?

– Əgər dünya qədər sevdiyimi desəm, yalan olar, – dərhal və sakitcə cavab verdi, – çünki dünyanı sevmirəm. Səni öz canım qədər sevirəm.

Altına böyük bir qazan qoyub iki-üç saat əski və paltar yudu, sonra ipdən asdı. Bundan sonra isə qabları yumağa başladı. Özü üçün ucadan oxuyur, qab yuyurdu. Bu zaman qapı döyüldü. Hacı Əbutalib idi. Mən pəncərənin yanında oturub baxırdım. Hacı dedi:

– Sən nə edirsən?.. Yarım saata iclas başlayır. Dur gedək. Oturub özü üçün qab yuyur!

– Onda gəl kömək elə, tez qurtarsın, – Əhməd dedi.

Hacı Əbutalib bir qədər baxdı, həyətdə gəzişdi, sonra qollarını çırmayıb Əhmədə kömək etməyə başladı. İki-üç qabı suya çəkəndən sonra xanımı Zəhra şıq geyimlə gəlib dedi:

– Hacı... açarları...

Hacı Əbutalibin qollarının dirsəyə qədər çırmandığını, əllərinin də islandığını görüb qaşqabağını salladı:

– Bıy!.. Sən öz evimizdə əlini ağdan-qaraya vurmursan, burda isə qab yuyursan? – dedi.

Hacı mızıldadı. Zəhra xanım açarları ona verib narahat halda getdi. Mən pəncərənin yanında yavaşca gülürdüm. Hacı gəlib Əhmədin yanında oturdu:

– Allah səni öldürməsin! Bədbəxt oldum. İnan ki, indiyədək evdə qab yumamışam. Gör nə qədər narahat olacaq!

Əhməd gülüb dedi:

– İndiyəcən səhv etmisən. Məgər evdə xörək yemirsən?! Gərək qab da yuyasan! Hacı xanımın gəlib səni bu vəziyyətdə görməsi də Allahın işi idi. Haqq yerdə qalmaz!

Əhmədin evdə işləməsini istəmirdim. Korpusda işi çox idi. Onun evdə də yorulmasına ürəyim dözmürdü. Mən sağalıb cana gələnə qədər özü bütün işlərimizi gördü, heç kimin bizə kömək etməsinə icazə vermədi. O deyirdi: "Kimdənsə xəcalətli qalmağı sevmirəm. Biz bir ailəyik, gərək özümüz işlərimizin öhdəsindən gələk".

Hacərin üçaylığında tikiş maşını alanda dedim:

– Bunu niyə aldın? Axı mən dərzilik bacarmıram!

– Mən bacarıram, sən də yavaş-yavaş öyrənərsən. İki uşağımız var. Tikiş maşını çox işə yarayar.

Cümə günləri Ləya mama və ya bacılarım bizə gələndə tikiş maşını evin ortasında olurdu, Əhməd ya cırılmış hərbi şalvarını tikirdi, ya gödəkcəsinin astarını, ya da başqa bir şeyi. Anam təəccüblə deyirdi:

– Sən dərziliyi bacarırsan, Əhməd ağa?

– Bəli... Nəyə ehtiyac varsa, gətirin tikim.

Ləya mama mənə gözəl bir çadralıq alıb gətirdi. Əhməd onu mənim ölçümə elə təmiz kəsib tikdi ki, görəndə anamın əli ağzında qaldı.

Əhməd Hacəri çox sevirdi. Onu tez-tez atıb-tutur, ona şeir oxuyur, deyirdi:

– Artıq mənim qızım var. Gərək onun gələcəyini düşünüm. Tikiş maşını aldım ki, sənətlə böyüsün.

Korpusdan gələn kimi qapının ağzında oturub deyirdi:

– Hacəri ver mənə.

– Əhməd, gəl içəri, sonra... – deyirdim.

– Yox, dözə bilmərəm, uşağı ver görüm.

Çəkmələrini ayaqlarından çıxarmamış Hacəri qucağına götürüb oxuyurdu:

Mənim qızımın nazı var,
Altı maşın cehizi var.
Hər adama vermərəm,
Heç kimə göstərmərəm.
Elə adama verərəm ki, adam olsun...

Bəlkə də, on beş dəqiqə o vəziyyətdə Hacərlə oynayır, sonra çəkmələrini çıxarırdı.

Hacər bizim həyatımıza yeni rəng qatmışdı. Əli bir yaş altı aylığında idi. Əhməd Hacərlə oynayanda o da Əhmədin yanında hərlənir, atılıb-düşürdü. Əhməd bir qolu ilə Hacəri, o biri qolu ilə də Əlini qucağına götürüb evdə gəzdirir, deyirdi:

– İlahi, bunlar mənim uşaqlarımdır?! Sən nə qədər mehribansan ki, mənə belə şirin və sağlam uşaqlar vermisən!

Hacər beşaylığına çatanda Əhməd dedi:

– Fəxri can, sən gərək korpusa işinə qayıdasan.

– Nə danışırsan, Əhməd?! İki balaca uşaqla?!

– Tənbəllik eləmə. Özüm sənə kömək edərəm. İşdə və cəmiyyətdə sənin üçün inkişaf var. Yalnız evdə oturub uşaq böyütməklə qane olmamalısan.

Ləya mamaya dedim:

– Əhməd deyir ki, gərək korpusa işinin başına qayıdasan. Sənin fikrin nədir?

– Bəzən Əhmədi niyə bu qədər sevdiyini yaxşı anlayıram, – başını yelləyib dedi. – O, çox insaflı adamdır. Mən elə pasdar tanıyıram ki, gündüzlər xanımlarını evdən bayıra çıxmağa qoymurlar; deyirlər ki, çörəyi də evdə bişirməlisən. Yaxud xanımlarını bayırda görəndə onlarla salamlaşmırlar. Bunlara görə fikirləşirdim ki, İlahi, qızım bir pasdarla ailə qurub bədbəxt oldu. Amma Əhməd onlar kimi deyil, özü deyir ki, sənə kömək edəcəyəm, qayıt işinə.

Ləya mama məni həvəsləndirib dedi ki, qayıt.

Dedim:

– Əhməd bir neçə günlüyə Tehrana ezamiyyətə gedib. Qayıtsın, bu barədə onunla ciddi şəkildə danışacağam.

Tək olanda əşyalarla danışmağa adət etmişdim. Məsələn, paltarları yığanda deyirdim: "Əhmədin şalvarı, sən yenə çirkləndin?" Yaxud stəkanları siniyə düzüb deyirdim: "Siz gərək mətbəxə, öz yerinizə qayıdasınız. Əlbəttə, bundan qabaq sizi yumaq lazımdır!"

Əhmədin gələcəyi gün günortaya yaxın Əli ilə Hacəri çimizdirdim. Əlinin Hacərlə arası yaxşı idi, paxıllıq etmirdi. Hər dəfə Hacəri qucağıma götürəndə tez gedib ədyalını gətirirdi, elə bilirdi ki, harasa gedirik.

Həmin gün oyuncaqlarını səliqə ilə yerlərinə qoydum. Hər bir oyuncaq üçün bir səs çıxarır, Əli ilə danışırdım. Əli bu oyunu sevirdi. Birdən həyətdən qapı səsi gəldi. Əhməd idi. Evə girən kimi çantasını yerə qoyub qollarını

açdı. Əli və Hacərlə birlikdə onun qollarının arasına girdik. Bir neçə dəqiqə hər üçümüzü qucaqlayıb dedi:

– Əhməd sizə qurban olsun!

Göz yaşlarımı silib dedim:

– Əhməd, bu bir həftə mənim üçün bir il qədər uzun çəkdi. Səndən ayrılmaq çətindir.

Saçımı tumarladı. Ayaqlarından bərk yapışmış Əlini öpdü, çantasından bir paket çıxarıb ona verdi. “Ku-ku siçan” nağılının səsli kitabı idi. Sonra Hacəri məndən alıb atıb-tutmağa başladı və dedi:

– Atanın nazlı qızı, vay-vay! Yağış yağır şırhaşır! Hacərin evinin arxasında! Hacərin toyu var! Xoruzunun quyruğu var!

– Əhməd, uşağı bu qədər yüksəyə atma, qorxur – dedim.

– Gəl onun ay kimi üzünə bax, gör qorxu əlaməti varmı? Gülür.

– Görürsən?! Gülməyi təzə öyrənib yaramaz!

Əli Əhmədə yaxınlaşıb "ata... ata" deyirdi. Əhməd Əlinin əlindən tutub dedi: "Can, oğul can! Sən atanın böyük oğlusan... Sən atanın gül oğlusan!"

Əli səsli kitabı Əhmədə verdi. Əhməd təzəlikcə bir qırmızı maqnitofon almışdı. Gedib onu gətirdi, musiqili kitab kasetini qoşdu. Şən musiqi səsi evi başına aldı.

Əli ağzıaçıq halda maqnitofonun qabağında oturmuşdu, sanki onu dondurmuşdular. Gözlərini maqnitofona dikib musiqi ilə nağıl söyləyən uşaq səsinə diqqət kəsilmişdi. Əlinin heyrətini görüb Əhmədlə gülməyə başladıq. Əhmədə dedim:

– Bundan sonra işimiz var da! Gərək səhərdən-axşama qədər maqnitofon işləsin.

– Bu, dayısının zövqüdür.

– Doğrudan?! Ələddin sizinlə idi?

– Hə, birlikdə idik.

– Bəh-bəh! Nə gözəl! Məncə, Ələddin dadaşı sən məndən çox görürsən. Ailə qurub Təhsil idarəsinin sədr müavini olandan bəri bizə baş çəkmir.

– Onu qınama, çox məşğuldur.

– Hə, hər dəfə Ləya mamadan soruşanda deyir ki, Ələddin başını Əhməddən də betər məşğul edib, mən də doyunca görə bilmirəm.

Nəğmə səsi bütün səsləri üstələmişdi. Əhmədlə bir-birimizi eşitməkdən ötrü bərkdən danışmağa məcbur olurduq.

Əhməd maqnitofona yaxınlaşıb səsini bir qədər azaltdı. Birdən Əli ağlamağa başladı. Əhməd dedi:

– Bəli, bəli... baş üstə, oğul, buyur, bu da əvvəlki kimi, – deyib düyməni yalandan fırlatdı.

Çayı Əhmədin önünə qoyub dedim:

– Əhməd, yadındadır, deyirdin ki, mən gərək işimə qayıdam?

– Bəli, əlbəttə, yadımdadır, – çayını nəlbəkiyə süzəndən sonra dedi.

Hacərin balaca yastığını ayağımın üstünə qoyub Əhmədə dedim:

– Hacəri ver mənə, rahat çayını iç.

Əhməd yastığı götürüb öz ayağının üstünə qoydu, Hacəri yavaşca yelləyə-yelləyə dedi:

– Bilmirsən bu qızdan ötrü necə darıxıram! Qoy atasının ayaqlarının üstündə yatsın.

– Mən qərarımı verdim, – təbəssümlə dedim. – İstəyirəm ki, korpusa qayıdıb işimə başlayım. Əlbəttə, özün dedin ki, uşaqları saxlamağa və ev işlərinə kömək edəcəksən.

Əhməd Hacərin balaca əlini tumarlayıb dedi:

– Təlim bölməsində sənin dərslərinə ehtiyac var. Bu qərarına görə sevinirəm. İstəmirəm ki, gecə-gündüz evdə qalıb yalnız uşaq saxlamaqla məşğul olasan. Korpus sənin kimi kadrlara düşüncə və praktik baxımdan sərmayə qoyub. Sən evdə oturmamalısan.

Əhmədin üzünə minnətdarlıqla gülümsəyib çayımı axıracan içdim. Əhməd Hacərin əlini yellədib oxumağa başladı:

*Mənim qızımın nazı var,*
*Altı maşın cehizi var.*
*Hər adama verməṙəm,*
*Heç kimə göstərmərəm...*

Hacər yatmaq üzrə idi, amma Əhmədin səsini eşidən kimi gülümsədi. Onun əlini Əhmədin əlindən çəkib dedim:

– Vay... uşaq yatırdı ha!

– Yatmağa vaxt çoxdur. Bir həftədir nazlı qızımı görmürəm, darıxmışam.

– Hacərə o qədər şeir oxuyursan ki, hamı bilir. Dünən qonşumuz xanım Bəhməni dedi ki, deyəsən, Əhməd ağa evdə yoxdur. Təəccüblə soruşdum ki, haradan bildin? Dedi ki, həyətdən balaca Hacər üçün şeir oxumaq səsi gəlmir.

– Doğrudan?! Vay-vay! – Əhməd ürəkdən gülüb dedi. – Deməli, qızımı necə sevdiyimi qonşular da bilirlər?!

Ertəsi gün Əhmədin dostlarından biri bizi şam yeməyinə dəvət etdi. O, evində Hacərlə çox oynadı, bir neçə dəfə atıb-tutdu. Uşaq da ürəkdən sevinirdi. Gecə evə qayıdanda isə hiss elədim ki, rəngi qaçıb, kəsik-kəsik nəfəs alır. Bunu Əhmədə söyləyəndə dedi:

– Bəlkə, soyuqlayıb?

– Onu Behişti xəstəxanasına aparaq. Orada gecələr də həkim olur.

– Çox həssas olmusan. Uşağın vəziyyəti o qədər pis deyil ki, gecə vaxtı xəstəxanaya aparaq. Saat 12-dir, maşınımız da yoxdur, necə gedək? Sabah apararaq.

İsrar etmək istəyəndə itlərin hürüşünü eşitdim. Şimali Sədi məhəlləsi çöllük idi, maşın tapılmırdı. Hacərə süd verdim, üstünü örtüb yatırtdım.

Səhər gözlərimi açanda gördüm ki, Əhməd geyinmiş halda Hacərin başı üstədir.

– Nə olub, Əhməd, niyə geyinmisən? – deyə soruşdum.

– Qonşuya gedirəm, üçümüz birlikdə Hacəri həkimə aparaq.

– Qonşu niyə; özümüz apararıq.

– Xanım Bəhməni də gəlsə, yaxşı olar.

Xanım Bəhməni ilə qızı gəldi. Qızı Əlinin yanında qaldı, üçümüz Hacəri Behişti xəstəxanasına apardıq. Uşaq bütün yolu yatdı. Heç bir hərəkət etmirdi. Xəstəxanada onu məndən alıb Təcili yardım şöbəsinə apardılar. Əhməd həyəcandan var-gəl edirdi. Mən də təşviş keçirirdim. Soruşdum ki, nə olub? Dedi:

– Bir şey deyil, təngnəfəsliyi var. İndi ona şok verirlər.

Bir saatdan sonra Əhməd qucağında Hacərlə gəldi. Ona tərəf qaçıb dedim:

– Ədyalı niyə uşağın üzünə çəkmisən; boğular.

Ədyalı Hacərin üzündən çəkdim. Üzü ağappaq idi, normal deyildi. Qorxdum. Heç bir söz demədən Əhmədin üzünə baxdım. Əhməd səssizcə ağlayırdı.

– Bitdi. Hacəri itirdik! – dedi.

Başqa bir şey xatırlamıram. Gözlərimi açanda anamgildə idik. Ləya mama ilə bacılarım məni dövrəyə

almışdılar, dayanmadan ağlayırdım. Dilim tutulmuşdu. Hamı ağlayırdı. Ləya mama üz-başıma əlini çəkib deyirdi:

– Ölərəm səninçün, nazlı qızım... Mənim əzabkeş qızım!

Həmin gecə səhərə qədər yağış yağdı. Bacım Zəri tibb bacısı idi, hər bir neçə saatdan bir mənə sakitləşdirici iynə vururdu ki, yatım. Bir qədər yatır, oyananda əllərimi sağ-soluma gəzdirir, Hacəri axtarırdım. Onu görməyəndə nə baş verdiyi yadıma düşürdü və yenə ağlayırdım.

Səhər tezdən Əhmədlə ikimiz yuyucuxanaya getdik. Bir xanım uşağı gözlərimiz önündə yudu. Əhməd məndən də çox ağlayırdı. Hiss edirdim ki, ağlamaqdan ürəyi dayanacaq.

Hacəri yuyan xanım təəccüb və məzəmmətlə Əhmədə baxıb dedi:

– Ağa Yusifi, siz altıaylıq bir qız üçün belə dözümsüzlük edirsiniz, özünüzü rəna gəncləri bu yuyucuxana daşının üstündə gözləri önündə yuyulan və məzarlıqda torpağa tapşırılan ata-anaların yerinə qoyun.

– Qəlbim sınıb, – Əhməd dedi.

Uşağı dəfn edib evə getdik. Bizdən öncə Ləya mama ilə bacılarım gedib Hacərin bütün əşyalarını yığışdırmış, aparmışdılar. Evə girən kimi Əli adəti üzrə yataqların yanından Hacərin ədyalını gətirməyə getdi. Onu görməyəndə isə Əhmədlə mənə baxdı. Hər ikimiz ağlamağa başladıq. Hər şeyi yığışdırmışdılar. Amma birdən komodun üstündəki süd şüşəsi gözlərimə sataşdı. Fikirləşdim ki, tez götürüm, Əhməd görməsin, amma o, məndən öncə tərpəndi, şüşəni götürüb ağladı. Hər ikimiz ağlayırdıq. Əhməd boş süd şüşəsini sinəsinə yapışdırıb hönkürtü ilə dedi:

– Mənim günahımdır! Sən dedin ki, aparaq həkimə, mən səhlənkarlıq etdim. Aparsaydıq, bəlkə də, belə olmazdı!

Əhmədin çiyinlərini sıxıb dedim:

– Bu fikri beynindən çıxar! Özünə qarşı belə rəhmsiz olmamalısan!

Bir neçə gün ötdü. Əhməd səhər erkəndən günbatana qədər işdə başını qarışdırırdı, bəlkə də, bu, acı hadisəni daha rahat unutmasına kömək edirdi. Mənimsə halım pis idi. Sanki dünyanın sonu gəlmişdi. Heç bir işə həvəsim yox idi. Səhərdən axşama qədər oturub fikrə dalırdım. Öz vəziyyətimi Əhməddən gizlətməyə çalışırdım. Əli ilə məşğul olurdum, ev işlərini görürdüm, kitab və Əhmədin gətirdiyi gündəlik bülletenləri oxuyurdum. Bunları edirdim ki, Əhmədin, Ləya mamanın və digərlərinin mənimlə işləri olmasın; deməsinlər ki, sən Hacəri unutmamısan. Çünki mən itirdiyim qızımın matəminə qərq olmaq istəyirdim. Özümü tək hiss edirdim.

Əhmədə söz vermişdim ki, Hacərin balaca məzarının yanına getməyəcəyəm, amma elə birinci həftə oraya getdim. Mən anaydım, uşağa süd verirdim. Vücudumda analıq hissi coşurdu. Çox gəzib məzarı tapdım. Hava soyuq, məzarlıq da sakit və səssiz idi. Nəmli, soyuq torpağa yapışıb ağlamağa başladım. Birdən arxamda kiminsə olduğunu hiss etdim. Dönüb gördüm ki, Əhməddir. O da yavaşca ağlayırdı. Gəlib yanımda oturdu, əllərimdən tutdu. Əlləri isti idi. Dedi:

– Niyə gəlmisən?! Mən kədərlənməni başa düşürəm. Hacər şirin uşaq idi. Sən anasan, ona verdiyin süd hələ bədənində qalıb. Amma qəbul et ki, daha bitdi. O neməti bizə Allah vermişdi, Özü də aldı. Gərək onun iradəsinə təslim olaq. Altı ay qısa ömürdür. O, balaca bir quş idi,

bizim həyat budağımıza qondu, sonra da uçub getdi. Daha onunla işin olmasın!

Əhmədin əxlaqı belə idi. O, heç bir məsələni şişirtmirdi, heç bir müsibətdə ilişib qalmırdı. Qardaşı Rəhmanın və əziz dostlarının şəhadəti zamanı da belə edirdi.

Əlimi məzarın üzərinə çəkib öpdüm. Gözlərimin yaşı üzümdə qurumuşdu, dərimi yandırırdı. Əhməd qoluma girib məni qaldırdı:

– Söz ver... söz ver ki, bir də buraya gəlməyəcəksən!

# Onuncu fəsil

*Salam mənim yeni qönçə açmış güllərimə! Ümidvaram vücud səmanız işıqlı ulduzlarla, həyata ümidlə və gözəlliklərə sevgi ilə doludur! Allah sevgi və məhəbbəti yaradıb insanların qəlbinə salmışdır. Burada, bəlkə də, elə bir an yoxdur ki, balaca evimi işıqlandırmış ayım və kiçik ulduzum barədə düşünməyim.*

*Gecə sizi yuxuda görmüşəm. Dayanmadan sənin üzündən, Əlinin yanaqlarından öpürdüm. Hər ikiniz çox gümrah idiniz. Bilirəm ki, məndən ayrılığın əzab-əziyyəti sənin kimi təqvalı bir insan üçün əhəmiyyətsizdir. Çünki bu əzabın məqsədə çatmaq üçün olduğunu bilirsən və sən məqsədli bir həyat seçmisən.*

*Tezliklə sizi görməyə gələcək, balaca və incə əllərini yaxından tutacağam; qəlbinin hərarəti minlərlə kilometr uzaqdan canımı isitdiyi və qəlbimi döyündürdüyü kimi, əllərinin hərarətini də duyacaq, onları öpəcəyəm.*

*Mən olmayanda Əlinin özünü tək hiss etməsinə qoyma. Onun "ata" səsi ürəyimdəki sevgi ulduzlarını bir-bir işıqlandırır.*

*Hamıya salam söylə. Məndən ötrü nigaran qalma. Əhvazdayam, Əli ibn Əbutalib diviziyasının təbliğat bölməsində. Seyid Ələddinə de, mənə məktub yazsın. Son söz budur ki, səni nə qədər sevirəm? Cavabını bilirsən. Amma yenə də demək istəyirəm: Səni varlığım qədər sevirəm, bütün qəlbim səninlə balaca Əlimindir. Hamımız da İslamı və imamı bütün vücudumuzla sevirik!*

Əhməd Yusifi

Əhmədin məktubunu qardaşım Ələddinə verib dedim: "Bir neçə gün öncə döyüş yerindən gələn pasdarlar gətirdilər".

Ələddin məktubu aldı, paketin üzərindəki döyüşçülərin şəklinə bir qədər baxandan sonra açıb dedi:

– Allaha şükür, məktub göndərib, ondan xəbərsiz deyilsən. Bu, çox əhəmiyyətlidir, xüsusən də telefonunuz olmadığına görə.

Əlimi çənəmin altına qoyub gözlərimi yuxuda gülən Əliyə dikdim. Ələddin dedi:

– Narahatsan?

– Yox.

– Fikirlisən.

– Hə.

– Fikir eləmə... Niyə fikir edirsən?

– Hiss edirəm ki, Əhməd məndən və Əlidən uzaqlaşır. Bizi görmür.

– Necə?.. Niyə belə hiss edirsən?

– Zəncanda, həqiqətən də, Əhmədə ehtiyac var. Korpus israr edir ki, cəbhəyə getməsin, o isə o qədər əlləşib-vuruşdu ki, axırda getdi.

Ələddin ayağa qalxdı, kitabxananın önündə dayanıb bir kitab götürdü, ortasını açıb dedi:

– Nə gözləyirdin? Əhməd Zəncanda qalan deyil. İndiyə qədər də onu qəfəsdəki kimi saxlamışdılar.

– Ələddin, onu necə də yaxşı tanıyırsan! Həqiqətən, mən də onu zorla qəfəsdə saxlamışam. Əmisi oğlu Əlirza Yusifinin, Rəhmanın, Əkbər Mənsurinin, Əsğər Məhəmmədianın və son olaraq Qamətin şəhadəti belini sındırıb. Qəhərlə mənə deyirdi ki, Fəxri, qorxuram qalam, bir gün şəhid övladları məni göstərib deyələr ki, bu, atamızın döyüş yoldaşı Əhməd Yusifidir; atamız şəhid olub, o isə hələ sağdır.

Ələddin dayandığı yerdə kitab oxuyurdu. Adəti beləydi, eyni zamanda iki işi görürdü. Başımı ona doğru əyib dedim:

– Sözlərimə qulaq asırsan?

Kitabı bağlayıb şkafa qoydu, Əlinin başı üstə oturub dedi:

– Fəxri, mən anlayıram ki, həyatının eşqi, uşağının atası olan Əhməd kimi əziz, böyük və sevimli bir insanın cəbhəyə güllə qabağına getməsinə razılıq vermən çox ağırdır. Gecə-gündüz, hər an ürəyin oddadır. Amma yadındadır, məktəbdə Milis qrupu tərəfindən döyülmüşdün, burnun sınmışdı, ağrıyırdı. Səni qanlı üzlə və toz-torpaqlı paltarla görəndə nə dedim?

– Nə dedin? – gözlərim yaşarmış halda soruşdum. Nə dediyini yaxşı xatırlayırdım, amma boğazımı qəhər tutmuşdu, danışa bilmirdim.

Ələddin Əlinin alnından öpüb dedi:

– Dedim ki, elə bilmə, inqilab oyun-oyuncaqdır və döyülmələr zarafatdır. Qısamüddətli coşqu və həvəs benzin kimi tez alışıb, tez də sönür. Əgər uzun müddət üçün əhd bağlayıb Allah yolunda möhkəm dayansan, geri çəkilməsən, peşman olmasan, ilahi sınaqdan başıuca

çıxarsan. Yadındadır, hansı şüarı söyləyirdik: "Biz İslamın fədakar qoruyucularıyıq! İmamın yüksək amallarının müdafiəçiləriyik!" Sənin Əhmədlə həyatın isə şüar deyil, gerçəkdir. Amalın və imamın üçün ən əziz adamının canından keçməyə hazırsan?

Özümü saxlaya bilməyib bərkdən ağlamağa başladım:

– Bir müddət öncə Rəhman yuxuma girmişdi. Mənə dedi ki, Fəxrüssadat xanım, sizdə bir əmanətim var, onu verin, aparım. Dedim ki, Rəhman can, xatırladığım qədərincə sənin məndə əmanətin yoxdur. İsrar etdi ki, var. Yuxumu Əhmədə danışanda dedi ki, o əmanət mənəm, Fəxri can!

Ələddin Əlini qucağına götürdü. Sanki mənim yuxumu eşitməmiş, göz yaşlarımı görməmişdi. Dedi:

– Mən bayıra çıxıram, sən də hazırlaş, gəl.

Ləya mamagilə gedəcəkdik. Əlinin iki yaşı tamam olurdu. Çox dedim ki, Əlinin hər şeyi var, ancaq anam dedi ki, gərək ona paltar alım.

Ələddin yolda dedi:

– Fəxri can, bilirsən ki, sən bacılarım arasında mənim üçün başqasan. Əhmədlə yaşamaq Allahın sənə özünü islah etmək üçün verdiyi bir fürsətdir; biləsən ki, Hüseyn məktəbi nə deyir; aşuraçıların ağrı və əzablarını öyrənəsən. Narahat olmaq və şivən qoparmaq yerinə bunun qədrini bil, öz tutumunu böyüt.

Qeysəriyyəyə getdik. Ləya mama Əliyə göy və yaşıl rəngdə iki dəst bahar paltarı aldı. Axşam hamımız bir yerə toplaşdıq, amma Əhməd bir an da yadımdan çıxmırdı. Sanki heç kimi görmürdüm, özümü tək-tənha hiss edirdim. Bacılarım Əlinin başına toplaşmışdılar, onunla oynayırdılar. Mən otağa girib kağız və qələm götürüb yazmağa başladım:

*Əziz və hörmətli Əhmədim!*

*Salam!*

*Əgər bizim halımızı bilmək istəsən, şükür Allaha, sağ-salamatıq. Səndən çox uzaqlarda olsam da, ruhum və canım o qanlı torpaqda, Xuzistandadır. Çünki mənim əzizim, Yusifim oradadır.*

*Əziz Əhmədim, Əli ilə mən səninçün çox darıxmışıq. Bu məktubu Əlinin ad günündə yazıram. Gözlərimiz yolda qalsa da, gedəndən bəri heç bir məktubun bizə çatmayıb. Halbuki səninlə birlikdə cəbhəyə getmiş digər pasdarların ailələri indiyədək bir neçə məktub almışlar və tez-tez telefonla danışırlar.*

*Siz orada müharibədən başqa heç bir şey haqda fikirləşməsəniz də, ailə-uşağınızı yaddan çıxarsanız da, bizim burada səni düşünməkdən başqa bir işimiz yoxdur. Məhəmməd Süleymani cəbhədən gələndə dedim ki, bəlkə səndən bir məktub gətirmiş olar. Ancaq dedi ki, Əhməd mənə məktub verməyib. Yəni Əli ilə mən sənin gözündə bu qədər dəyərsizik ki, bir məktubla bizi sevindirmək istəmirsən?*

*Mənim səndən heç bir şikayətim yoxdur, sadəcə olaraq, daxili narahatlığımı söylədim. Bir anlığa özünü mənim yerimə qoy və bu laqeydliyin sənə necə təsir elədiyini düşün. Ümidvaram Allah amanında olasan!*

*Bütün qohumlar – öz ata-anan, mənim ata-anam, bacı və qardaşlar sənə salam söyləyirlər, sənin üçün duaçıdırlar.*

*Allah amanında!*

Sənin Fəxrin

Ertəsi gün səhər çağı evə gələndə yerimdə quruyub qaldım. Mətbəxdə su borusu partlamış, gecəboyu su axıb

bütün mətbəxi, qonaq və yataq otaqlarını islatmışdı. Əli xalçaların üstünə qaçıb ayaqlarını möhkəm yerə vurdu, ətrafa su sıçradı və o, ürəkdən güldü. Mənsə bir qədər yerimdə hərəkətsiz qaldım. Çox narahat olmuşdum. Ev gölə dönmüşdü. Nə edəcəyimi bilmirdim. Yalnız atılıb-düşən Əliyə baxırdım. Əli mənə yaxınlaşdı, əlimdən tutub qaldırdı, otağın ortasına getdik. Mənimlə oynamaq istəyirdi. Əyilib xalçanı qapıya tərəf sürüdüm. Mətbəxin və yataq otaqlarının kovrolitlərini də bayıra apardım. Belim bərk ağrıyırdı, tövşüyürdüm, amma bir an da dayanmırdım.

Səhər saat 9-dan günorta saat 4-ə qədər həyətdə xalça və kovrolit yudum. İşimi bitirməyə az qalmış qapı döyüldü. Korpus komandirlərindən Hacı Əbutalib Bəhməni idi, Əhməddən məktub gətirmişdi. Gözü xalça və kovrolitlərə sataşanda soruşdu:

– Nə olub?

– Boru partlayıb, bütün evi su basıb.

Çox narahat olub dedi:

– Məgər biz ölmüşük?! Niyə mənə xəbər vermirsiniz, gəlib bunları yuyaq? Bu, sizin işiniz deyil. İslanmış xalça ağır olur.

– Qonşu kişilərin çoxu cəbhəyə gedib, sizin qayıtdığınızı bilmirdim. Xanımlara da əziyyət vermək istəmədim.

Xülasə, Hacı Əbutalibin köməyi ilə xalça və kovrolitləri divarların üstünə atdıq. Əli çox oynamış, sulu xalçaların üstündə sürüşmüş, elə həyətdə də yuxuya getmişdi. Şkafda balaca bir xalçam vardı. Onu çıxarıb otağın yerinə sərdim, Əlini qucağıma götürüb xalçanın üstünə qoydum. Bel ağrısından zarıyırdım. Özüm də

həmin balaca xalçanın üstündə büzüşdüm, əlimi Əlinin kiçik çiyinlərinə dolayıb yatmağa çalışdım.

Rütubət qoxusu otağın havasını ağırlaşdırmış, qızdırmışdı. Elə bilirdim ki, indicə nəfəsim dayanacaq. Qalxıb oturdum, Əlinin ağ üzündən öpdüm. Göz yaşlarım yanaqlarıma süzüldü. Başımı alnına qoyub səssizcə ağlamağa başladım.

Bel ağrısından bir neçə gün evdə yatdım. Axırda məcbur qalıb həkimə getdim. Müayinədən sonra həkim dedi ki, böyük ehtimalla belində yırtıq yaranıb.

Əbutalib Bəhməninin gətirdiyi məktubu dəfələrlə oxudum:

*Əziz həyat yoldaşım Fəxrüssadat Musəvi və balaca yaraşıqlı Əlim!*

*Salam!*

*Şəhidlərə salamdan, İslam döyüşçülərinə qələbə və ümmət imamına uzun ömür arzusu ilə*

*Əziz həyat yoldaşım! Mən sağ-salamatam və sizlər üçün dua edirəm. Eşitmişəm məndən şikayətlənmisən. Lakin mən son iyirmi gündə bir teleqram və iki məktub göndərmişəm. Bu, üçüncü məktubdur.*

*Bil ki, mənim ürəyim sizin üçün döyünür, sizi düşünürəm, tez-tez yuxuda görürəm. Lakin, Fəxri can, özün yaxşı bilirsən ki, ən həssas dövrdəyik. Biz İslam qarşısında məsuliyyət daşıyırıq, onu qorumalıyıq. Biz şəhidlərin qanı qarşısında məsuliyyət daşıyırıq. Əziz həyat yoldaşım, mənim bütün ürək sözlərim inqilabla bağlıdır, onu necə qorumağımız haqdadır.*

*Bəlkə də, gileylənirsən ki, niyə öz ailəmiz və ona aid məsələlər barədə bir şey yazmıram. Sən yaxşı bilirsən ki, mənim ailəm, yəni sən və Əli mənimçün İslamla və onu*

*qorumaqla bağlı məna tapırsınız. Məqsəd İslam və onun qələbəsidir. İnqilabdan ayrı bir ailə mənim üçün, əminəm ki, həm də sənin üçün mənasızdır.*

*Canımdan əziz həyat yoldaşıma şəriət vəzifələrinə diqqətlə əməl etməyi tövsiyə edirəm. Mənim tərəfimdən şəhidlərin məzarını ziyarət elə, şəhid yetimlərinə, onların ata-analarına baş çək. Əgər məzuniyyətə gəlsəm, inşallah, müqəddəs Məşhədə ziyarətə gedərik. Düzdür, deyəcəksən ki, hər dəfə belə söz verirsən. Amma yox, bu dəfə, inşallah, əməl edəcəyəm. İstəsən, qardaşım Kazimlə Tehrana get, bir neçə gün bacım Səkinəgildə və dayıgildə qal, havanı dəyiş. Mən bayramdan sonra Səkinəyə məktub yaza bilməmişəm.*

*Mütaliəni heç vaxt yaddan çıxarma. Əgər mümkün olsa, yayda orta məktəbin buraxılış imtahanlarında iştirak eləsən, çox yaxşı olar. Əli daha kişi olub, böyüyüb, səni az incidir. Əliyə de ki, daha maneji kənara qoysun. Bir tərəfdən, mənə məktub yazır ki, ata, mən arvad istəyirəm, tez gəl, məni evləndir, bir tərəfdən də, təkərlə gəzir! Çalış Əliyə şeir və nəğmə öyrət, oxusun. Bildiyin kimi, səni öz canım qədər sevirəm. Səninlə Əlinin şəklinə baxanda ürəyim açılır.*

*Əgər mənimlə telefonla danışmaq istəsəniz, Hacı Şəban Müntəcigilə gedin. Əlbəttə, qabaqcadan Məhəmməd Süleymaniyə de ki, mənə xəbər versin və saatları razılaşdırsın. Məndə telefon olmur ki, birbaşa zəng vurasan.*

*Hamıya salam söylə. Səni və Əlini öpürəm: "març".*

Əhməd Yusifi

Ramazan ayına az qalırdı, iyun və iyulun istisi hər yeri yandırırdı. Belağrım sağalmamışdı, xroniki ağrıya

çevrilmişdi, onunla yaşamağa çalışırdım. Ələddin mənə Əhmədin Zəncanda olduğu vaxtdan daha çox baş çəkirdi. Yeganə şəxs idi ki, ürəyimdə olanları onunla bölüşə bilirdim. Həmin gün gəlib məni həkimə aparacaqdı.

Qapının zəngi çalınanda Əli sevindiyindən atılıb-düşməyə başladı. Ələddinin əlində bir neçə sellofan torba vardı. O, birbaş mətbəxə gedib aldıqlarını oraya qoydu, sonra qayıdıb yanımda oturdu:

– Hazırsan? – deyə soruşdu.

– Yox!

– Nə üçün?

– Həkimə getməyin xeyri yoxdur. Yalnız ağrıkəsici verir. Gərək istirahət edim.

– Axı əllikiloluq bir qız su dolmuş bir xalçanı həyətə sürüyər?! – təəssüflə başını yelləyib dedi. – Yenə Allah rəhm eləyib. Niyə məni çağırmadın, niyə heç kimdən kömək istəmədin?

Gözlərinin içinə baxıb dedim:

– Həqiqətən, bunları mənə deyirsən? Sənlə mən öz ayaqlarımız üstə dayanmağı, heç kimdən kömək istəməməyi öyrənmişik. Bu, inqilabçı gənclərin ayrılmaz xüsusiyyətidir. Üç aydır Əhməd cəbhəyə gedib. O olmayanda yalnız özüm ailəmə baxmalıyam.

– Bunları başa düşürəm. Ancaq bu qədər yaş xalçanı bayıra çıxarıb yumaq sənin cüssən üçün ağır işdir!

Əli Ku-ku siçan kasetini gətirib Ələddinə verdi. Ələddin çox sevinib dedi:

– Ay səni! Bunu keçən il Əhmədlə Tehrana gedəndə almışdım.

Əlini öpüb kaseti maqnitofona qoydu, evə şən uşaq nəğməsinin səsi yayıldı, Əli atılıb-düşməyə başladı. Yaxşı öyrənmişdi, özü də onunla birlikdə oxuyurdu.

Başımı yelləyib dedim:

– Haqlısan. Amma inan ki, kimdənsə kömək istəmək heç ağlıma gəlmədi. Elə bilirəm ki, öz işlərimizdən ötrü digərlərindən kömək istəsəm, Əhmədi cəbhədə xəcalətli etmiş olaram. İstəmirəm heç kim, hətta atam, anam, yaxud bacılarım desinlər ki, Əhməd cəbhəyə gedir, ailə-uşağını burada tək qoyur.

– Mən bunu deməərəm. Əhmədin qardaşları da deməzlər.

– Sənin evin uzaqdır, ailə-uşaqların var. Kazim də həm ata-anası ilə məşğuldur, həm də özünün Malik Əjdər düşərgəsində vəzifəsi var, döyüşçülərə təlim keçir.

– Kazimin işlərini bilirəm. O, korpusda ixtisas müəllimidir, cəbhəyə göndərilən döyüşçülərə təlim işlərinə rəhbərlik edir.

– Yaralanandan sonra o da zəifləyib. Partlayış dalğası qulaqlarına xəsarət yetirib, qulaqlarında fit səsindən şikayətlənir. Ayaqlarında da bir neçə xırda qəlpə var, onu incidir.

Əlinin balaca əllərindən tutub siçan musiqisi ilə atılıb-düşən Ələddin onu buraxıb mənə dedi:

– Nə yaralanması? Harda yaralanıb?

– Bir dəfə Tarim dağlarına təlimə dəstə aparmışdı. Silahın lüləsinin üstündə köhnə bir qumbara partlamışdı; bir basici şəhid olmuş, Kazim də ağır yaralanmışdı. Onu Rəşt xəstəxanasına aparmışdılar. Bir neçə ay da evdə yatdı.

– Gör bu ailə inqilab üçün nə qədər maya qoyub, can verib. Rəhmanın cəsədi də tapılmayıb, Kazim də belə! – Sonra gülüb mənə işarə ilə dedi: – Bu da Əhməd: ailəsini və azyaşlı uşağını qoyub cəbhəyə gedib!

Mən gülüb dedim:

– Kazimin yaralandığını, Rəşt xəstəxanasında yatdığını bilən gün qayınatamgilə getdim. Əhməd qayınatamın qarşısında oturub dedi ki, Kazim şəhid olub. Qayınatamla qayınanam bir anlığa yerlərində quruyub qaldılar, hər ikisinin gözlərindən yaş axmağa başladı. Mən Əhmədin qulağını çəkdim, o da gülüb dedi ki, yox əşi, yaralanıb, Rəştdə xəstəxanadadır.

– Bu da Əhmədin fəndidir, – Ələddin başını yelləyib dedi. – Şəhid olduğunu deyir ki, sonra yaralandığını biləndə sevinsinlər.

*Əziz Əhmədimə və İslam döyüşçülərinə salamla, Böyük İmama uzun ömür arzusu ilə!*

*Salamdan sonra bizim halımızı soruşmaq istəsən, şükür Allaha, sağ-salamatıq. Əhməd can, bu gün mübarək ramazan ayından on iki gün ötür. Ayın ilk günlərində hava sərin idi, amma üç-dörd gündür çox qızıb. Lakin bu günədək bütün oruclarımı tutmuşam, bundan sonra da tutacağam. Əlinin dəcəllikləri, daim onunla oynamağımı, atılıb-düşməmi istəməsi məni yorsa, günortadan sonralar zəifləsəm, başım gicəllənsə də, Allaha təvəkkül edib dözməyə çalışıram.*

*Bütün ailə üzvlərimiz, dost və tanışlar salam söyləyirlər.*

*Əziz Əhməd, sənin üçün çox darıxmışam. Bir neçə gündür keçənilki ramazan ayının xatirələrini yadıma salıram, Hacərin doğulmasını xatırlayıram. Balaca gözəl üzü hələ yadımdan çıxmayıb. Ayın əvvəlində bir dəfə yuxuma girdi, sənin sözlərini xatırladım; pasdarlara deyirdin ki, boşuna qapıma gəlməyin, sizə qız verən deyiləm. Bu il ramazan ayında isə Hacər yoxdur, sən də cəbhədəsən. Ev sizsiz çox boşalıb.*

*Bağışla, səni narahat etmək istəmirdim, yalnız beynimi məşğul edən sözləri yazdım. Məndən və Əlidən nigaran qalma!*

*Görüş ümidi ilə!*

*Həmişə şən ol, üzün gülsün! Səni sevirəm.*

*Məktubla sənə Əlinin şəklini göndərirəm. Ümidvaram xoşun gələcək.*

*Əziz həyat yoldaşım Fəxrüssadat xanım və əziz oğlum balaca Əli!*

*Salam!*

*Əziz həyat yoldaşım! Bu gün bir neçə dəfə sənin məktubunu oxumuş, əlyazmana baxıb çox sevinmiş, məktubdan ətrini almışam.*

*Əziz həyat yoldaşım, mübarək ramazan ayı ilə bağlı sənə bir neçə məqamı xatırlatmaq istəyirəm:*

*1. Bu ay Quranın nazil olduğu aydır. Bu ayda çoxlu Quran oxu. Mən özüm gündə bir cüz oxuyuram.*

*2. Sənə çətin olsa da, mütləq oruclarını tut. Ümidvaram, Allah güc verər. Balaca Əliyə de ki, ata deyir, dəcəllik etmə.*

*3. İslam döyüşçüləri və əziz imamımız üçün dua etməkdən yorulmayın. İnşallah, ömür vəfa etsə, balaca Əlini, səni, atamı və anamı imamla görüşə aparacağam.*

*4. Bu ay yaxşılıq ayıdır, hamımız Allah qonaqlığındayıq. Bu ayda evimiz soyuq və səssiz olmamalıdır. Çalış evimizdə ehsan verilsin. Dəbdəbə istəmirəm, sadə bir iftar ver. Şəhid Əkbər Mənsurinin xanımı Zəhranı da dəvət elə. Digər dost-tanışlardan da istədiklərini çağır. Mən olmasam da, sənlə oğlum varsınız, gərək evimin qapısı açıq olsun.*

*Gecə yuxuda səni görmüşəm. Şən idin. Ümidvaram, həmişə gülərsən. Bir qədər öncə Məcnun adasında çəkdirdiyim iki şəkli sənə göndərirəm. Artıq azançının səsi gəlir, gərək gedib günorta namazına hazırlaşım. Özünün və mənim bütün ailə üzvlərimizə, dost və tanışlara salam söylə. Səni sevirəm.*

Sənin həyat yoldaşın Əhməd Yusifi

Əhmədin sözü mənə qanun idi, mütləq əməl etməli idim. Ertəsi gündən tədarük görməyə başladım, bir neçə dəfə alış-verişə getdim. Əli ilə çətin olurdu. Göyərti, toyuq, düyü və digər lazımi ərzağın hər dəfə bir neçəsini aldım. Alış-veriş tamamlanandan sonra işə başladım. İki ailənin bütün üzvlərini dəvət etdim. Bacılarım, Ləya mama, Ziya ata, qardaşım Ələddin, Əhmədin ata-anası və qardaşları ümumilikdə iyirmi nəfər oldular. Onlar gələndən sonra təklik hissim nəinki azalmadı, hətta çoxaldı da. Tez-tez kövrəlirdim. Əhməd yox idi, sanki heç kim yox idi.

Qonaqlar gedəndən sonra gecəyə qədər oyaq qaldım, rəhimsizcəsinə işlədim. Ev tərtəmiz oldu, sanki heç kim gəlib-getməmişdi. Əlini yatdığı yerdə öpüb həyətə çıxdım. Ramazan ayının təxminən ortası idi, bütün ay görünürdü. Həyətdə oturub aya tamaşa etməyə başladım. Hər gün, hər saat Əhməddən başqa bir şey haqda fikirləşməyə çalışırdım. Bunu özü istəmişdi. Tez-tez deyirdi ki, mənə yapışma, mən beyninin xorası olmayım, gərək fikrin azad olsun. Lakin beynimin Əhmədə doğru uçuşuna nəzarət edə bilmirdim. Özümdən asılı olmadan oxumağa başladım:

Bir aylı gecədə sənsiz yenə keçdim küçədən,
Bütün vücudum göz oldu, səni axtara-axtara qaldım...

Mən bütünlüklə baxışının tamaşasına qərq oluram.
Səma aydın, gecə sakit.
Xatırlayıram, mənə dedin:
"Bu eşqdən uzaq dur!
Məni unutmaq üçün bir müddət bu şəhərdən get!”
Sənə dedim: "Eşqdən uzaq durmaq?! Əsla!
Sənin yanından getmək?! Əsla!”
Yenə dedim ki, sən ovçusan, mən meşənin ceyranı,
Sənin yanından getmək?! Əsla!

Əhməd bu şeiri sevirdi. Saçımı tumarlayıb deyirdi ki, sən ceyransan, mən səni ovlamışam, istəsən də, istəməsən də, mənim əsirimsən. Mən də əlini öpüb deyirdim ki, mən ağıllı ceyranam, ovçumu öz ardımca çəkmişəm, özüm istəyərək tələsinə düşmüşəm.

Məsciddən azan səsi gəldi. Sübh azanı verilirdi, mənsə obaşdan yeməmişdim. Üçüncü gün idi ki, obaşdansız oruc tuturdum.

Ailə qonaqlığından iki gün sonra Əhmədlə işbirliyi olan dostlarımızı çağırdım. Səhərdən həyəcanlı idim. Kiçik Zəncan şəhərində kişilərin ailə üzərində xüsusi təəssübkeşliyi vardı, özləri evdə olmayanda heç kim onlara qonaq getməzdi. İftar süfrəsi sərildi, hamı gəlib Əhmədi soruşanda isə dedim: "Cəbhədədir. Üç aydır gedib, hələ məzuniyyətə gəlməyib".

Bir-birlərinə baxıb dedilər: "Bəs biz niyə gəlmişik?" Başımı aşağı salıb dedim: "Bunu Əhməd istəyib. Dedi ki, mən yoxam, ailəm ki var!"

Ortam ağırlaşdı. Hər şey Əhmədin olduğu zamandan fərqlənirdi. Əhməd olanda sanki adamlar daha yaxşı olur, daha yaxşı rəftar edirdilər. İftardan sonra Məhəmməd Məsud İsmaili Əhməddən bir məktub gətirdi. Məktub soyuq və süni qonaqlıq ab-havasına Əhmədin ətrini yaydı.

Axşam qonaqlar gedəndən sonra çox yorğunluğuma rəğmən, qələm götürüb cavab məktubu yazdım:

*Bəşər dünyasının xilaskarı həzrət Sahibəzzamana, haqq canişini İmam Xomeyniyə, İslam döyüşçülərinə, onların acı ayrılıq dadını İslam yolunda şirin fədakarlıq dadı ilə qarışdırmış həyat yoldaşlarına və analarına salam olsun!*

*Əziz həyat yoldaşı və mehriban ata olan Əhməd! Salam!*

*Əziz Əhməd, mən, Əli və bütün ailə yaxşıdır, sənin də sağ-salamat olmanı və İslam döyüşçülərinin qalib gəlməsini arzulayırıq.*

*Əhməd can, mənə demişdin ki, iftar qonaqlığı verim. Mən ramazanın on beşində bir iftar süfrəsi açıb atamı, anamı, bacılarımı, qardaşım Ələddini, sənin atanı, ananı və bütün qardaşlarını dəvət etdim. Yerin, həqiqətən, görünürdü, mən o qədər tanış arasında özümü tək və qərib hiss edirdim. Ramazanın on yeddisində də dostlarını ailələri birlikdə dəvət etdim. Əli İsmaili, Məhəmməd Süleymani, Zəhra xanım – ümumilikdə beş-altı ailə idilər. Amma özünün iştirak etdiyin qabaqkı qonaqlıqların yerini vermirdi. Ortam çox ağır idi. Hamı məndən soruşurdu ki, bəs Əhməd hanı? Deyirdim ki, cəbhədədir. Təəccüblə soruşurdular ki, bəs biz burada nə edirik? Deyirdim ki, Əhməd özü belə istəyib, deyib, mən yoxam, ailəm ki var.*

*Süfrə yığılan kimi qapının zəngi çalındı və bir pasdar sənin məktubunu gətirdi. Məktubunun gəlişi ilə sanki özün də qonaqlığa daxil oldun, qonaqların halı dəyişdi. İndiyədək ən azı iyirmi dəfə məktubunu oxumuş, qoxulamışam.*

*Bütün dost-tanışlar, mənim və sənin ailə üzvlərimiz yaxşıdırlar, sənə salam söyləyirlər. Daha deməyə sözüm yoxdur. Səni bütün vücudumuzla sevirik.*

Sənin Fəxrin və balaca Əlin

# On birinci fəsil

Axşam saat 9-da Tarim şəhərinə çatdıq. Dörd ailə idik, Əhmədin səmimi dostu olan pasdar Mahmud Abbasinin atasıgilə gedirdik. Mahmudun atası o qədər sevindi ki, ayaqlarımızın altında bir qoyun kəsdi. Gecə saat 12-də böyük həyətlərindəki zeytun bağında kabab yeyirdik. Havanın rütubəti, narınc ətri və qurbağaların səsi bütün əhvalımı dəyişdirmişdi. Əhməd ağacların arasında Əli ilə və digər uşaqlarla gizlənpaç oynayırdı. Hər şey gözəl və sakit idi. Qəribə hisslər keçirirdim. Ürəyim istəyirdi ki, zaman dayansın və Əhməd həmişə yanımızda qalsın.

Ertəsi gün səhər çağı dənizə gedib kənarında bir çimərlik kirayə etdik. Nisbətən böyük bir çimərlik idi. Xərcimizə qənaət etmək və iki çimərlik icarə etməmək üçün kişilər bir otağa girdilər, xanımlar bir otağa.

Xörək bişirib bir süfrə başında yedik. Dəniz sanki qəmkədərimi artırdı. Saatlarla orada oturub gözlərimi narahat dalğalara dikmək istəyirdim. Adamların içində olmağı çox da sevmirdim. Hiss edirdim ki, uzaqdan Əhmədin diqqəti

məndədir. İlk günbatan çağı hamı dənizin kənarında dövrə vurmuşdu. Əhməd mənə yaxınlaşdı, yanımda oturub dedi:

– Öz Fəxrüssadatımın əhvalı necədir? Necə keçir?

Gülümsəyib yerdən topladığım sədəfləri ovcuna tökdüm:

– Bəli... yaxşıdır! – dedim.

Əhməd ovcunu suda açdı, su sədəflərin üzərini örtdü, qumlarını yuyub apardı. Yuyulmuş sədəfləri köynəyinin cibinə töküb dedi:

– Amma mən kədərli olduğunu hiss edirəm.

Əhmədi öz təşvişlərimlə məşğul etmək istəmirdim. Bir dönəmdən sonra bu hissi ondan gizlətməyə çalışırdım, bunu zəiflik hesab etdiyini bilirdim. Mən onu itirmək barədə düşünəndə narahat olurdu. Bir müddət idi bunu nəzərə alaraq onunla rəftar edirdim, daxili ağrı və əzablarım barədə bir söz demirdim. Öz-özümə fikirləşirdim ki, yəni mən Əhməddən ayrılacağam? Bunu əsla istəmirdim. Çünki o zaman Əhmədi itirmək əzabına öldürücü bir təklik hissi də əlavə olunurdu.

Əlinin içi ilə belimi masaj edib dedi:

– Belinin ağrısı nə yerdədir?

– Eləmə, Əhməd... İndi dostlarımız nə fikirləşərlər?.. Bilirsən ki, bu davranışlar adam içində çox da yaxşı qarşılanmır.

– Yox, əşi... – Əhməd gülümsəyib dedi. – Niyə ki? Sən mənim xanımımsan, bu da mənim sənə sevgi hissimdir. Onu ifadə eləməyə niyə utanmalıyam?

Mən də güldüm. Əhməd həmişə haqlı idi.

Masajına davam edə-edə dedi:

– Kaş o qədər xalçanı yumayaydın! Kaş qoyaydın çürüyəydi! Əgər bel ağrıların yaxşılaşmasa, özümü bağışlaya bilmərəm. Sən cavansan, uzun illər yaşamalısan.

Gərək bədənin sağlam olsun. Özünə zərər yetirməni əsla istəmirəm.

Əlimdən tutdu, ikimiz də ayağa qalxıb sahildə gəzişməyə başladıq. Dostlarımızdan və qumları balaca vedrələrə dolduran uşaqlardan uzaqlaşdıq. Əhməd əlimi sıxıb dodaqlarına yapışdırdı. Ürəyimin döyüntüsünü eşidirdim. Əhməd yanımdaydı: böyük, ucaboy və sakit. Elə bilirdim, sahib olduqlarımı o qədər sevirəm ki, qəlbimi dözümsüz edib ağrıdır.

Günəş üfüqə enmiş, təxminən dənizin üzərində oturmuşdu. Əhməd yavaş-yavaş addımladığı yerdə dedi:

– Yaxşı, de görüm niyə qəmlisən, Fəxri can?

Bir an da gecikmədən danışmağa başladım. Özümü Əhməddən gizlətməli olduğumu hiss etmək istəmirdim:

– Gecə yuxuda Qaməti gördüm.

Qamətin adı çəkiləndə Əhməd gülümsəyirdi, amma gözlərində qəm-kədər də hiss olunurdu.

– Xoş halına... De görüm nə gördün?

– Mən, sən və Qamət yolüstü bir mehmanxanada dayanmışdıq. Hava soyuq idi. Sənlə mən içəridəydik, Qamət isə bayırda. Deyəsən, sən Qaməti görmürdün, mənsə buxarlı şüşədən onun getdiyini görürdüm. Öz-özümə fikirləşdim ki, Qamət niyə bizi burada qoyub gedir, axı üçümüz birlikdə gəlmişik. Mehmanxanadan çıxıb Qamətin ardınca qaçdım.

– Hara gedirsən, Qamət, dayan, biz də gələk, – dedim.

– Get Əhmədi çağır, gəlsin gedək.

Mən gəlib səni çağırdım. Dedim ki, Əhməd, Qamət gedir. Sən gedib Qaməti qucaqladın və ikiniz uzaqlaşdınız. Mən mehmanxananın buxarlı şüşəsinin arxasından sizin gedişinizə baxıb ağlayırdım. Siz getdiniz, mənsə mehmanxanada qaldım.

Başımı Əhmədin çiyninə qoyub hönkür-hönkür ağlamağa başladım. Əhmədin çiyinləri titrəyir, o da ağlayırdı. Mənə dedi:

– Ürəyitəmiz xanımım, sənin imanın var, Qamətin yolunun doğru olduğunu bilirsən. Bu yuxular doğru yuxulardır. Sən istəməyincə mən arzuladığım şəhadət məqamına nail ola bilməyəcəyəm.

Sahildə o qədər gəzdik ki, hava tamam qaraldı və mən Əhməd üçün ayrılıq şeiri oxudum.

Gecə yatmaq vaxtı Əhməd üç-dörd dəfə gəlib xanımların otağının qapısını döydü. Tez-tez məni çağırıb soruşurdu:

– Yerin necədir? Belin ağrımır?

Xanımlara dedi:

– Seyid xanımı yerdə yatırtmayın, əgər zəhmət deyilsə, qoyun çarpayıda yatsın.

Xanımlar mənə gülüb dedilər: "Vay, siz ikiniz nə qədər ərköyünsünüz. Gündüz dəniz kənarında birlikdə nə qədər gəzdiniz, gecəniz də belə!”

Ongünlük məzuniyyət fırtına kimi ötüb keçdi və Əhməd cəbhəyə qayıtdı. Gedəndə ağlamadım, çalışdım ki, narahatlığımı görməsin. Cəbhəyə getdiyinə görə narahat deyildim, bununla fəxr edirdim. Əslində, onun yanında ola bilmədiyimə görə narahat olurdum, qorxurdum ki, bir gün şəhid olar, mən qalaram.

Əziz xanımım Seyid Fəxrüssadat Musəvi və balaca Əlim!

Salam!

Əzizim Fəxri can, ümidvaram ki, sən də, gözəl balam balaca Əli də yaxşısınız. Bu gün mənim cəbhəyə

gəlişimdən on beş gün ötür. Məktubu ağa Məhəmmədiyə verirəm, o gətirəcək.

Əzizim Fəxri can, bir neçə tövsiyəm var, ümidvaram onlara əməl edəcəksən. Birincisi budur ki, həmişə Quran oxu və onun mənasına diqqət yetir. İkincisi budur ki, şəhidlərin məzarını ziyarət elə və ailələrinə baş çək; xüsusən də övladı qalmış şəhidlərin. Evdə olduğun zaman mütləq mütaliə elə və vaxtının hədər keçməsinə qoyma.

Maaş barədə də təkidlə tapşıraram ki, heç vaxt özün korpusa getmə. Pul lazım olsa, qardaşım Kazimə de, maaşımı alıb sənə gətirsin. Hətta Məhəmməd Süleymaniyə və Bisütuniyə də demə. Yaxşı olar ki, bu məsələlər ailə içində qalsın.

Gələndə balaca Əli ilə soyuq şəkildə sağollaşdım. Elə bilmə ki, onu sevmirəm; hamıdan çox onu sevirəm. Lakin cəbhəyə gələndə ən çox sevdiklərimdən də keçmək, hisslərə qapılmamaq, yalnız məqsədim və Allah barədə fikirləşmək istəyirəm. Əlbəttə, sizi hər an xatırlayıram. Sən də güclü ol. Bu yol nənən Fatimeyi-Zəhranın (ə) yoludur. Sən də onun övladlarındansan, gərək çətinliklər zamanı səbrin də çoxalsın.

Rəsul Mollayinin qardaşı itkin düşüb, imkan olsa, bir cümə günü ata-anamla birlikdə Kəzbər kəndinə gedib onun ata-anasına təskinlik verin, övladlarının ayrılığına səbir etsinlər. Çünki Allah səbir edənlərlədir və səbir edənləri sevir.

Sən mənim gözəl və başadüşən xanımımsan. Mən sənin zəhmətlərin qarşısında yalnız təşəkkür edə bilərəm. Fəxri can, bilirsən ki, mənim anam çətinlik və yoxsulluqla yeddi uşaq böyüdüb. O, şəhid anasıdır, həm də cəsədi tapılmayan şəhidin. Mən övladlıq vəzifəmi yerinə yetirə bilmədim. Sən onunla mehriban davran, ona daha çox baş

çək; hərçənd, sənin özünün də təsəlliyə ehtiyacın var. İnşallah, bu müharibə tezliklə İslamın xeyrinə bitər və Kərbəla azad olar.

Bəlkə, bir də zəng vura bilmədim. Buradan zəng vurmaq çox çətindir. Gərək yerimizi tərk edib Əhvaza gedək. Orada da çox adam olur, uzun növbə yaranır.

Telefonda dedin ki, Əlini keçəl etmisən. Nə qədər çalışdımsa, onu keçəl təsəvvür edə bilmədim. Hər halda, uzaqdan sən nazlını və keçəl Əlini öpürəm. İnşallah, gəlib birlikdə Məşhəd ziyarətinə gedərik.

Sonda türkcə yazılmış bu şeiri keçəl Əliyə oxuyuram:

Keçəl, keçəl bamiyə,
Mindi quleybaniyə,
Sürdü keçəlxaniyə.
Keçəlxana bağlıdı,
Keçəlin başı yağlıdı.

Sənin həyat yoldaşın Əhməd Yusifi

Əhməd olmayanda onun məktubları mənim həyat düsturum olurdu. Nə deyirdisə, tez tapşırıqlarını yazmaq istəyən əlaçı bir şagird kimi həvəslənirdim. Bu, məni sakitləşdirirdi; Əhməd sanki yanımdaydı.

Bir dəfə günbatan çağı Əlinin əlindən tutub qayınatamgilə getdim. Qayınatamla qayınanamın əlindən öpüb dedim:

– Gözləriniz aydın olsun! Əhməddən məktub gəlib.

Qayınanam da Əli ilə məni öpüb dedi:

– Sən mənim az gözləntili və ismətli gəlinimsən. Səni yeganə qızım Səkinə qədər sevirəm.

Sonra gedib Əhmədin onlara yazdığı məktubu gətirdi, mənə verib dedi:

– Biz bir neçə dəfə oxumuşuq, amma ürəyim istəyir ki, bir də sən bizim üçün oxuyasan.

Həvəslə məktubu açıb oxumağa başladım:

Hörmətli atama, anama və əziz qardaşlarıma salam!

Ümidvaram ki, Allahın köməyi ilə sağ-salamatsınız, canımdan əziz ata və anamın ağrı və xəstəlikləri aradan qalxmışdır. Ümidvaram, İslam döyüşçüləri sizin, İslam ümmətinin və əziz imamın xeyir-duaları sayəsində çox tezliklə tam qələbəyə nail olsunlar və hamılıqla Hüseyn Kərbəlasını ziyarət edək.

Əziz anamdan istəyirəm ki, mənim üçün əsla narahat olmasın. Mən düşərgədəyəm, döyüş yerinə az-az gedirəm. Digər tərəfdən, İslam cəbhəsində xidmət edən döyüşçülərin hamısının ata-anası, ailəsi var. Odur ki, səbirli olun, ümmət imamının buyruğunu həmişə yadda saxlayın: "Bizim hamımız İslama fəda olmalıyıq". İslam peyğəmbəri və bütün imamlar İslama fəda olmuşlar. Ümumiyyətlə, yaranışın səbəbi budur: əqidə uğrunda cihad; əlbəttə, hər əqidə deyil, tövhid əqidəsi uğrunda.

Mən düşünürəm ki, İslam Respublikasını müdafiə etmək hər bir müsəlmana namaz və oruc kimi vacibdir. Əgər ata-ana övladlarının namaz qılmasından, oruc tutmasından narahat olurlarsa, cəbhəyə getməsindən də narahat olmalıdırlar. Əlbəttə, mən indiyədək sizdə belə bir narahatlıq görməmişəm.

Ədəbsizlik etdiyim üçün bağışlayın. Nəsihət vermək və böyük danışmaq niyyətim yoxdur. Övladlarını zəhmətlə, halal çörəklə, məsum imamların xatirəsi ilə böyüdən siz ata və ana mənim ən böyük müəllimim olmusunuz və indi də beləsiniz.

Lakin üzr istəyərək əziz ata-anama bir tövsiyəm var: Mən olmayanda Fəxrüssadata daha çox baş çəkin. Elə bilməsin ki, yalnız mən Zəncanda olanda bizə gəlirsiniz, olmayanda ona əhəmiyyət vermirsiniz.

Fəxri seyiddir, bizə nisbətən daha həssas ruhu var: tez sevinir, tez kədərlənir. Əgər mən olmayanda ondan və övladımdan xəbər tutsanız, məni çox başıuca etmiş və sevindirmiş olarsınız. Əlbəttə, Fəxri bu barədə mənə heç bir şikayət etməyib, bu, öz ürəyimin istəyidir.

Məktubun bu yerinə çatanda qayınatam bərkdən güldü, dizi üstə oturmuş Əlinin keçəl başından öpüb dedi:

– Görürsən səni nə qədər sevir! Hər dəfə bizə məktub yazanda səni tapşırır.

– Bu, Əhmədin mehribanlığındandır – mən də gülüb dedim. – Hər şeyə fikir verir. O, mənə də sizə baş çəkməyi tövsiyə edir.

Qayınanam yaylığı ilə gözlərini silib dedi: "Allah saxlasın Əhməd canımı!"

Mən oxumağa davam etdim:

"Bütün qohumlara, dost-tanışlara, bacım Səkinəyə, qardaşlarım Kazim, Mustafa, Hüseyn və Abbasa məndən salam söyləyin. Mən dörd qardaşımdan gileyliyəm. Cəbhədə olduğum bu altı ayda mənə bir dəfə də məktub yazmayıblar. Mənim adımdan onlara deyin ki, yaxşı dərs oxusunlar, günlərini oynamaqla keçirməsinlər.

Əziz atam, sağollaşmaq vaxtıdır. Soruşmusunuz ki, cəbhədə işim nə vaxt bitəcək. Deməliyəm ki, Əhməd Yusifinin cəbhədəki işi o gün bitəcək ki, İran və İraq müharibəsi bitsin. Əlbəttə, İslam və küfr müharibəsi bitən deyil. Bu gün İraqdır, sabah Fələstin. Əgər Allahın lütfü

mənə şamil olsa, bu yolda əziz qardaşım Rəhmana qovuşacağam. Xülasə, vəzifə bitəsi deyil. Vəssalam.

Sizin kiçik övladınız Əhməd Yusifi"

Qayınatamgildən qayıdandan sonra Əhmədin məktubu barədə fikirləşməyə başladım. Demişdi ki, vəzifə bitməyəcək və o, qardaşı Rəhmana qovuşmaq arzusundadır. Qayınatamla qayınanamın halını təsəvvür etdim. Onlar bu sözlərə necə dözə bilərdilər?! Qayınatam çətinliklə, fəhləliklə, səyyar satıcılıqla bu oğlanları böyütmüşdü.

Əhməd hər bir yerdə bu sözü deyirdi: "İslam Respublikası sizin dünyanızı təmin etmək üçün deyil, imanını təmin etmək üçündür. Respublika gənclərə ilahi imtahandır; ana-atalara da, xanımlara da imtahandır ki, cənnət və cəhənnəm sakinləri bir-birindən ayrılsınlar. Bu imtahanın ən yaxşı vasitəsi də cəbhədir".

Gecə saat 12-də həyəcan siqnalı verildi. Əli yatmışdı. Onu qucağıma götürüb həyətə çıxdım. Hər yer qaranlıq idi. Həyəti işıqlandıran yeganə işıq göydəki aypara idi. Düşündüm ki, gərək lampa alım, gecələr ay çıxmayanda hər yer qaranlıq olur.

Qəribə hisslər keçirirdim. Sanki bir neçə il xərçəng xəstəliyi ilə mübarizə aparıb çabalamışam, indi isə mütləq şəkildə təsliməm. Narahat deyildim, özümü azad hiss edirdim. Gərək Əhmədi öz halına buraxaydım. Ağrı və ölüm həyəcanından qurtulub təslim mərhələsinə çatan bir xərçəng xəstəsinin vücudunda ləzzət tumurcuqlayır; bir gül budağına tamaşa etmək, bir stəkan sərin su içmək, mülayim bir ətri qoxulamaq ləzzəti. O, həmin anda hər bir kiçik nemətin qədrini bilir, sonranı düşünmədiyi üçün sevinə bilir, özüylə və ətraf aləmlə sülh içindədir.

Ay işığı altında Əlinin üzünə baxdım. Əhmədə elə bənzəyirdi ki, sanki bir almanı ikiyə bölmüsən və sanki onun dünyaya gəlməsində mənim heç bir rolum olmayıb. Barmağımın ucu ilə uzun sıx qaşlarını tumarladım. İpək kimi yumşaq idi. Yuxuda gülümsədi. Mən də gülümsəyib alnından öpdüm.

Qayınatamla qayınanamı düşündüm. Onlar İman Respublikasında könül ayırmağı öyrənirdilər; elə mən də! Qeyri-ixtiyari şəkildə özümdən soruşdum ki, əgər itirmək mütləqdirsə və mənim Əhmədlə Əli arasında seçim etmək imkanım olsaydı...

Əlini qucağıma sıxıb üzünü öpüşlərə qərq etdim. Qalxıb otağa keçdim. Əli gözlərini açdı. Yuxulu idi, gözləri qızarmışdı. Başını tumarlayıb mütəkkənin üstünə qoydum və: "Yat, mənim əziz və nazlı balam!" – dedim.

# On ikinci fəsil

Ləya mama bizi küçə qapısına qədər ötürdü, əyilib Əlinin üzündən öpdü, Əhmədə dedi:

– Fəxri altı aydır hamilədir, get-gedə ağırlaşır. Qarşıda qış var. Mənim bu arıq qızım gündə iki dəfə bakı boşalan neft sobaları ilə nə edəcək?

Əhməd başını aşağı salıb dedi:

– Orada mənə ehtiyac var, əmin olun ki, buradan olduqca çox. Yoxsa getməzdim. Mən pasdaram. Mənim əsas vəzifəm dini və inqilabı qorumaq, cəbhədə olmaqdır.

– O qədər pasdar tanıyıram ki, cəbhəyə getmir, – Ləya mama qane olmayıb dedi. – Vallah, sizə burda da ehtiyac var.

Əhmədin bu müqayisələrə necə nifrət etdiyini bilirdim. Üzü qızardı, dilxor halda dedi:

– Heç olmasa, siz belə deməyin. Axı öz əriniz zabitdir, tez-tez cəbhəyə gedir. "Filankəsin əri cəbhəyə getmir, biz də getməyək" düşüncəsi şeytan sözüdür. Mənim başqaları ilə işim yoxdur. İndi hər bir müsəlmanın dini borcu

cəbhədə iştirak etməkdir. Kimsə bəhanə gətirib vəzifəsinə əməl etmirsə, özü bilər, Allahı bilər.

Sübh erkəndən getməli idi. Hamiləliyə görə həssas və kövrək olmuşdum. Gecə yuxuda gördüm ki, cəbhədəyəm. Var-gücümlə qaçırdım. Başıma güllə yağırdı. Yerdə çoxlu cəsəd vardı, onların üzərindən qaçırdım. Bu zaman birdən Əhmədin səsini eşitdim: "Fəxri... Fəxri..." Səsə tərəf gedib qana bələşmiş başsız bir bədənin yanında oturdum. Hiss edirdim ki, Əhmədin cəsədidir. Çiyinlərindən tutub silkələdim, ağlaya-ağlaya çağırdım: "Əhməd... Əhməd... Əhməd can!" Öz səsimə yuxudan oyandım. Əhməd qollarını boynuma dolayıb dedi:

– Fəxri can, pis yuxu görürdün?

– Yuxuda gördüm ki, cəbhədəyəm, – gözlərimi silib dedim. – Sənin cəsədin başsız idi.

Soyuqqanlı şəkildə gülüb dedi:

– Vay-vay! Mənim şəhadətim üçün yuxuda belə ağlayırsan, oyaq olanda necə dözərsən?!

Əhməd həmin gün getdi, mənsə oturaq sinir ağrısı ilə qaldım. Hamilə olduğuma görə ağrı ayaqlarıma vururdu, dördyaşlı balaca Əli isə dəcəllik edir, həmişə onunla oynamağımı istəyirdi.

Hava soyuq idi. Həmin illərdə Zəncanda qış qarlı və ağır keçirdi. Neft talonla satılırdı, asanlıqla tapmaq olmurdu. Bir həftədə bəzən üç gün sobamız yanmırdı.

Xörək bişirmək üçün qaz balonu tapmağın, onu doldurmağın da öz çətinlikləri vardı. Mətbəxin tavanı yağ rəngində idi. Çünki mətbəx soyuq idi, yemək bişirəndə buxar əmələ gəlir, tavandan yerə su damırdı.

Pəncərənin metal çərçivəsi çürümüşdü, taxçaya həmişə paslı dəmir qırığı tökülürdü.

Yaxşı yadımdadır, bir gün çox qar yağmış, hava soyumuşdu. Səhərdən arpa şorbası asmışdım, hər bir-iki saatdan bir mətbəxə gedib baxırdım. Axırıncı dəfə süfrəni gətirməyə gedəndə Əli arxamca qaçdı. Dedim ki, mətbəx soyuqdur, sən burda qal. Mətbəxə girdim, qazanı ocağın üstündən götürüb yerə qoyan kimi metal pəncərə güclü səslə yerindən qopub mətbəxin ortasına düşdü. Qaçmağa macal yox idi, iki əlimi qarnıma qoydum ki, çərçivə kəsməsin. Metal çərçivə sol çiynimi yardı, qan axdı. Şüşələr əllərimi kəsdi. Əli mənim qışqırtımdan qorxub ağlamağa başladı.

Şüşə qırıntıları dolmuş yerdən birtəhər qonaq otağına tərəf sürünüb Əlini qucaqladım. Qonşu qadın mənim qışqırtımı və Əlinin ağladığını eşidib əri ilə birlikdə gəldi. Onların köməyi ilə pəncərəni dəsmalla çərçivəyə bağladıq, şüşə qırıntılarını süpürdük.

Ertəsi gün poliklinikaya getdim. Şüşə qırıntılarını qollarımdan çıxardılar, qollarımı və çiynimi yodla yuyub bağladılar.

*Gözümün işığı, əzizim Əhməd ağa Yusifiyə salam!*

*Əhməd can, bu gün korpusdan gəlib dedilər ki, məktubun varsa, ver. Mən də sevinib tez yazmağa başladım. Allaha şükür, biz sağ-salamatıq, səndən ayrılıqdan başqa bir çətinliyimiz yoxdur. Əli yaxşıdır, narahatlığı yoxdur. Ancaq bəzən ürəyi səni istəyir, gündə on dəfə məndən soruşur ki, ata cəbhədən nə vaxt gələcək?*

*Mən yaxşıyam. Yalnız ayaqlarım ağrıyır. O da sinirdəndir. Rahat yeriyə bilmirəm, hiss edirəm ki, ağırlaşmışam. Arabir bütün vücudumu güclü ağrı sarır,Ləya mama deyir ki, hamiləliyin son aylarına görədir. Ağrıya dözə bilirəm.*

*Dünən korpusdan bir neft çəni gətirib qoşdular. On talonluq nefti və əlavə üç kanistri də içinə tökdülər. İnşallah, bundan sonra soba az sönər. Çəndə kran olduğuna görə ondan rahat şəkildə neft götürə bilirəm. İstədiyin sənədləri ağa Səqətçiyə verdim. Dostun Mustafa da bizə bir lampa alıb gətirdi. Bundan sonra həyəcan siqnalı veriləndə qaranlıqda qalmırıq, lampa ilə hər şey çox yaxşı olur. Bizdən ötrü narahat olma. Bütün dostlar, tanışlar və qohumlar sənə salam söyləyirlər.*

*Əli ilə mən sənin üçün darıxmışıq. İndiyədək özümüzü bu qədər tək, kimsəsiz hiss etməmişdik. Sənin gedişinlə sanki bütün şəhər boşalıb, Əli ilə birlikdə ucqar bir adaya düşmüşük. Ancaq bu güclü təklik hissinə baxmayaraq, sənin kimi cəsur və vəzifəsini bilən həyat yoldaşı və ata ilə fəxr edirik, səni hədsiz dərəcədə sevirik; indiyədək heç kimə qarşı olmayan və bütün cismimizə, canımıza qarışmış sevgi ilə.*

*Axşamüstüdür. Balaca Əli otaqda oynayır. Sənin ay üzünü uzaqdan öpürəm. Daha sözüm yoxdur. Bizdən ötrü narahat olma. Görüşmək ümidi ilə! Səni sevirəm.*

Fəxri və Əli

*Əziz həyat yoldaşım Fəxri və əziz oğlum Əli!*

*Salam! Ümidvaram əhvalınız yaxşıdır.*

*Əziz və mehriban həyat yoldaşım! Sənin üçün çox darıxmışam. Bilirəm ki, bu günlərdə tək qalmaq sənə çox çətindir. Bir tərəfdən, qışın soyuğu, bir tərəfdən, balaca Əlimin dəcəllikləri, daha əhəmiyyətlisi, bel ağrısı, bədəninin ağırlığı və əziz körpənin gəlişinin yaxınlaşması vəziyyətini çətinləşdirmişdir. Sənin bütün çətinliklərini qəlbimlə, ruhumla hiss edirəm. Mən bu şəraitdə sənin yanında olmalı, sənə kömək etməli idim. Lakin Fav*

*əməliyyatı baş tutdu və mən getməyə məcbur oldum. Məncə, bu, ağır şəraitdə bütün yükləri təkbaşına çəkmənə məcbur qaldığın üçün sənə ilahi bir imtahandır.*

*Şübhən olmasın ki, sənin savabın ön cəbhədə vəzifəsini yerinə yetirən döyüşçüdən çox artıqdır. Nə vaxt kədərlənsən, özünü tək hiss eləsən, mütləq Qurana sığın, Quran oxu və onun mənalarına diqqət yetir. Əminəm ki, qəlbin sakitləşəcək.*

*Sənə cəbhədən danışmağımı istəyirsənsə, bil ki, bura nur və mənəviyyat ocağıdır. Dünyanın aldadıcı zəncirlərindən xilas olmuş insanlar buraya toplaşmışlar. Bura salavat dünyasıdır, hər şey salavatla başlayır, salavatla da bitir: vuruşmaq, namaz qılmaq, yatmaq, yemək, saç qırxdırmaq...*

*Burada dünyanın heç bir bər-bəzəyi yoxdur, hər şey olduqca sadə və zəruri həddədir. İslam cəbhəsi bu şanlı ayənin real nümunəsidir: "Onlar orada (cənnətdə) nə boş söz, nə də günaha bais olan bir şey eşidəcəklər. Eşitdikləri söz ancaq "salam" olacaqdır". Cənnətdə hərislikdən, tamahkarlıqdan, kindən, paxıllıqdan, qorxudan və digər qəbahətlərdən heç bir əsər-əlamət yoxdur, hamı bir-biri ilə mehriban şəkildə və gülərüz davranır.*

*Bu gün İslam ölkəmiz inqilabı davam etdirmək üçün övladlarının fədakarlığına daha çox ehtiyaclıdır. Yəqin ki, prezident Höccətül-İslam Xameneinin Afrika ölkələrinə, Hindistan və Pakistana səfərindən xəbərin var, onun bu ölkələrin xalqları və hökumətləri tərəfindən hansı coşqu ilə qarşılandığını, İran İslam Respublikası quruluşunun necə dəstəkləndiyini bilirsən. Əgər mən və sən Allah yolundakı bu cihadda, Böyük İmamın rəhbərliyi altındakı böyük ilahi hərəkatdə səbir və dözümlə kiçik bir rol da*

*oynaya bilsək, bu böyük nemətin şükrünü yerinə yetirə bilərik.*

*Ümidvaram ki, Allah-taala səni və bu aciz bəndəni hidayət olunmuşlar, müqəddəs İslam dininin dəstəkçiləri və Allah yolunun mücahidləri sırasına daxil etsin! Allah amanında!*

Əhməd Yusifi

Körpəmin dünyaya gəlməsinə bir həftə qalmış Əhməd Zəncana gəldi. Halımın yaxşı olmadığını eşitmişdi. O gələndə çiynim və bazum hələ də göyərmiş idi, qolumun cızıqları sağalmamışdı. Əllərimdən öpdü, gözləri yaşardı və dedi: "Biz sizi buradakılara ümidlə qoyub gedirik, sizsə tək qalırsınız və heç kim köməyə gəlmir".

Əhmədin kədərlənməsinə dözə bilmirdim. Razıydım ki, özüm çətinliyə dözüm, amma o, xəcalət çəkməsin və kədərlənməsin.

Barmağımla gözünün yaşını silib dedim:

– Mənim xarakterimi bilirsən. Mən ən pis şəraitdə də heç kimdən kömək istəmirəm, heç kimi çağırmıram, elə bilirəm ki, özüm problemlərin öhdəsindən gələcəyəm. Yaxşı xarakter deyil, amma nə edim?!..

– Sən düz olanı edirsən, amma digərləri... Mənim yaxınlarım oturub sənin kömək istəməyini gözləməməlidirlər, – sözümü kəsib dedi, yaralı əllərimi tutub əlavə etdi: – Onda belə olar. Əgər pəncərə qarnının üstünə düşsəydi, indi uşağın ölmüşdü.

– Allaha şükür, yaxşı keçdi.

Möhsün 1 fevral 1986-cı ildə Zəncanın Hiydəci xəstəxanasında dünyaya gəldi. Əhməd qulağına azan oxudu. Fatimiyyə günləri idi. Möhsün adını özü seçdi.

Zəncanda on gün qaldı, heç kimi mənim paltarlarıma və uşağın əskilərinə əl vurmağa qoymadı. Səhərdən axşama qədər işləyirdi. Hər gün toyuq şorbası bişirir, qoyun sümüyü qaynadır, özü qaşıqla ağzıma qoyurdu.

Mən gülüb deyirdim:

– Əhməd, ver özüm yeyim, niyə mənimlə ikiyaşlı uşaq kimi davranırsan?

– İndi burdayam, istəyirəm ki, xörəyi özüm sənə yedizdirim. Sənin üçün nə etsəm, çəkdiyin əziyyətlərin, tənhalığın əvəzini verə bilmərəm.

Hər gün səhər saat 10-da soruşurdu:

– Bu gün günorta yeməyinə nə istəyirsən?

– Dünənki yeməkdən qalıb, onu yeyəcəyəm, – deyirdim.

– O, mənim yeməyimdir, sən nə yeyəcəksən?

– Omlet.

– Omlet nə vaxtdan yemək olub?!

Məncə, Əhmədin ətplov və toyuqplovlarının təsirindən on günə yaxşılaşdım və dördümüz birliklə 11 fevral yürüşündə iştirak etdik. Möhsünü ədyala bərk bükmüşdüm, hərdən ədyalı üzündən çəkirdim ki, boğulmasın. Qar yağırdı, hava soyuq idi. Ongünlük uşağı yürüşə aparmağımız hamıya təəccüblü gəlirdi.

Yürüşün ertəsi günü Əhməd dedi:

– Səndən xəcalətliyəm. Gərək gedim. Fav əməliyyatı hələ davam edir və mənim diviziyanın qərargahında vəzifəm var.

– Sən azadsan, Əhməd, – gülümsəyib dedim. – Bilirsən ki, mən getməyinə mane olmayacağam. Amma daha çox qalsaydın, həqiqətən, sevinərdim.

Əgər özümdə inqilabi düşüncələr olmasaydı, heç şübhəsiz, inqilaba və cəbhəyə düşmən olardım. Çünki

eşqimi məndən ayırmışdı. Əhmədin dünyasının məndən və uşaqlardan hər gün daha da uzaqlaşdığını, hətta Möhsünün dünyaya gəlməsinin də onun cəbhə sevgisini azaltmadığını bütün vücudumla hiss edirdim.

Bilirdim ki, mən yataqda olanda heç kimin mənim əziyyətimi çəkməsini istəməməsi ilə bağlı qüruru Möhsün dünyaya gələndən bir gün sonra cəbhəyə qayıtmasına imkan verməmişdi.

# On üçüncü fəsil

Gözümün nuru, əzizim Əhməd!

Ümidvaram, Allah-taalanın pənahında bütün təhlükə və bəlalardan uzaq olasan! Artıq iyirmi gündür getmisən. Bilirəm ki, zəng vurmaq sənə çətindir; dəfələrlə demisən ki, bundan ötrü Əhvaza getməli və çoxlu çətinliklər çəkməlisən.

Mənə məktub da gəlməyib. Bilirəm ki, oradasan. Həyatda inandığın, uğrunda canını verməyə hazır olduğun əsas missiya və məqsədinə o qədər yaxınsan ki, məni və uşaqları unudursan. Lakin mənim bir saatım da səni xatırlamadan keçmir. Bilirəm, yaxşı öyrətmisən ki, sənə yapışmamalı, özümü azad etməli, təslim olmalıyam. Ancaq Əhməd, mənim ürəyim sənə bağlıdır. Özün deyirsən ki, sənin ürəyin Allaha bağlıdır. Onda sənə vurğun olduğum üçün məni məzəmmət etmə. Çünki bununla mənim ürəyim də Allah eşqinə bağlanır.

Balaca Əli yaxşıdır. Ürəyi tez-tez səni istəyir. Möhsün can dünyaya gələndən sonra Əlinin daha çox diqqətə ehtiyacı var. Mən bacardığım qədər çalışıram ki, ona sevgi

göstərim, həssas olmasın. Möhsün də yaxşıdır. Narahat uşaqdır, çox ağlayır. İki dəfə Ləya mama ilə onu həkimə aparmışıq. Həkim deyir ki, hər şeyi normaldır, sağlamdır. Ancaq çox ağlayır, az yatır. Ləya mama deyir ki, Əliyə hamilə olanda sən yanımda olmusan deyə o, sakit uşaq olub, Möhsünə hamilə qalanda isə tək olmuşam, təklik və təşviş Möhsünü qərarsız edib.

Əli İsmaili bayaq gəlib dedi ki, yarım saat vaxtın var; məktub yaz, cəbhəyə aparım. Buna görə qısa yazmağa məcburam.

Balaca Əli ilə mən sənə çox darıxmışıq. İndiyədək özümü səndən bu qədər uzaq və ayrı hiss etməmişəm, bu həddə sənin eşqinə qərq olmamışam. Sən demiş, bəlkə, bu da bir ilahi imtahandır ki, özümü sənin eşqindən xilas edə bilmirəm, sən də hər gün mənə xatırladırsan ki, yol üstəsən və məni tərk edib gedəcəksən. Bu sevgi mənim cismimə və canıma qarışıb.

Balaca Əli Möhsünü nəvaziş edir. Uzaqdan sənin əlindən öpür. Bizə görə narahat olma. Sənin xatirənlə bu şeiri oxumaq istəyirəm:

Sənə doğru,
Sənin üzünün həvəsi ilə,
Sənin məkanına doğru
Dan yeri ağaranda gələrəm, səni axtararam...
De, hardasan?
Sənin ünvanını
Gah yerdə, gah göydə axtararam.
Gör necə qorxmadan sənin yolunla gedirəm...
De, hardasan?
Bir an da xəyalımdan
Çıxmayırsan, ey canan.
Heç soruşma halımdan.

Nə qədər ki varam, sənin küçənin əsiriyəm,
Səni arzulayıram.
Əgər səni tapsam,
Ürək sözümü deyəcəyəm.
De, hardasan?
Sənə verdim pərişan qəlbimi,
Daha nə istəyirsən?!
Əldən düşmüşəm.
De ki, canımdan
Daha nə istəyirsən?![1]

Səni sevirik.

Fəxri, Əli və Möhsün

Əhməd bu məktubun cavabında yazdı: "Belə şeir və yazılarla qəlbimə od vurma. Bu dünyada səndən və iki övladımdan da mənə əziz bir kəs yoxdur. Ancaq haqq yoluna qədəm qoydunsa, gərək ən çox sevdiyindən də keçə biləsən!"

1986-cı ildə sentyabrın əvvəlində məzuniyyətə gəlib dedi:

– Fəxri, ürəyim Məşhəd ziyarətini istəyir. Nə olursa-olsun, gərək gedək.

– İki uşaqla?! Yay tətilinin sonunda Məşhəddə adam əlindən yer olmur.

Elə bir haldaydım ki, Əhməd nə deyirdisə, şəhadətinin yaxınlaşdığına bir əlamət sayırdım. Hiss edirdim ki, qəlbini dərin qəm-kədər bürüyüb. Heç nəyi büruzə vermirdi, amma mən Əhmədi tanıyırdım. O, Zəncanda olanda işdən gəlib köks ötürür, deyirdi: "Burda heç kim qalmayıb, Fəxri! Bütün dostlarım gediblər!" Sonra

---

[1] Şeir Abdullah Fatiminindir.

yavaşca əlavə edirdi: "İlahi, mənə Öz yolunda şəhadət səadəti nəsib elə!"

Məşhədə getməzdən öncə Ləya mama dedi: "Əhməd ağa, bir neçə ildir bizə kürəkən olmusan, mən sənin əynində kostyum görməmişəm. Gərək bazara gedək". Zorla və çətinliklə onu razı salıb Bərg mağazasına apardıq. Əhməd kostyum almağa razılıq verməyib dedi: "Bahadır; həm də mən kostyum geymirəm".

Bir köynəklə dama-dama pencək götürdü. Geyib gözümün önündə dayananda onu nə qədər sevdiyimi bir daha hiss etdim. Qucağımdakı Möhsünün başını tez-tez öpüb qəhərimi udmağa çalışdım. Öz-özümə dedim ki, İlahi, Sənə şükür ki, Əhmədin kölgəsi hələ başımız üstədir. Stolun üzərindəki dolçadan karton stəkana su töküb başıma çəkdim. Əhməd üzünü Ləya mama ilə mənə tutub şəstlə, sakitcə və vüqarla dedi: "Mama, mənə bu paltarlardan alma, kürəkənini oğurlayarlar!"

Ləya mama satıcıya dedi ki, seçdiyi ətri hədiyyə kağızına büksün. Sonra özünəməxsus soyuqqanlılıqla və etinasızlıqla başını Əhmədə çevirib: "Sən yaxşı geyin, oğurlasalar da, eybi yoxdur, mən Fəxrinin cavabını verərəm", - dedi, hər üçümüz gülüşdük.

Sentyabrın ortalarında qatarla Məşhədə getdik. Üç gündən artıq qalmadıq. Axırıncı gün Əhməd hərəmdə ziyarətnaməni ayaq üstə oxuyurdu. Əlinin əlindən tutmuşdu. Möhsün narahat idi, qucağımda qalmaq istəmirdi. Dedim: "Əhməd, ziyarətnaməni oturub oxuyaq, ayaq üstə mənə çətin olur".

Möhsünü qucağımdan alıb dedi:

– Yox... Məlum deyil bir də bu yerlərə gələ biləcəyəmmi, İmam Rzanın ziyarəti mənə qismət olacaqmı?

Bu cümləni deyəndə qəlbim qırıldı, iztirab, həyəcan və ürək döyüntüsü başladı. Elə orada, hərəmdəcə Əhmədi itirdiyimi hiss etdim. Əhməd tez-tez, amma astadan deyirdi: "İlahi! Mənə Öz yolunda şəhadət səadəti nəsib elə!"

Gecə oteldə hər ikimiz bir uşağın ağlamaq səsinə yuxudan oyandıq. Uşaq dayanmadan on beş dəqiqə ağladı. Əhməd dedi:

– Yəqin, ata-anası onu yatırdıb hərəmə gedib, indi də oyanıb qorxub.

Gedib otelin işçisinə xəbər verdi. Ehtiyat açarını gətirib qapını açdılar. Uşaq tək idi. Əhməd uşağı qucağına götürüb pilləkəndə oturdu, mənə dedi ki, Möhsünün butulkasında ona isti bir şərbət düzəldim. Şərbəti gətirib ona verəndə dedim: "Gözlərin qızarıb. Uşağı ver mənə, sən get yat”.

– Yox... sən get Möhsünlə Əlinin yanına. Mən buradayam. İndi ata-anası gələr.

Uşağa şərbət verdi, onu qucağında gəzdirib yatırtdı. Bir saatdan sonra ata-anası gəlib onu aldı və bizdən çox üzr istədi.

Həmin Məşhəd səfəri ömrümün ən qəmli səfəri oldu. Yadımdadır, cümə axşamı günü gecə Zəncana çatdıq. Mənə dedi: "Fəxri, Əlinin pasdar geyimini çıxar, sabah onu özümlə cümə namazına aparacağam".

Əli Əhmədin hərbi formasını və çəkmələrini o qədər sevirdi ki, Əhməd bir gün yaşıl parça alıb Əlini dərziyə aparmış, ona bir dəst pasdar geyimi tikdirmişdi.

Ata-oğul cümə namazından qayıdanda nahar süfrəsini sərdim. Gördüm ki, Əli xörək yemir. Soruşdum ki, nə üçün yemirsən? Dedi: "Ata məni kababçıya apardı, kabab yedim".

Əhmədə baxıb şikayətləndim: "Bəli, ata-oğul cümə günü mənsiz gəzməyə gedirsiz!"

Əhməd güldü, plov buludunu və sevdiyi qiymə-badımcan xuruşunu yaxına çəkib dedi:

– Mən yox... inan ki, mən dadına da baxmadım. Əli isə kabab yeyib. Namaza gedəndə dedi ki, acmışam. Gördüm ki, uşağı acqarına namaza apara bilmərəm. Yaxınlıqdakı kababçıya getdik. Bir şiş kabab alıb Əlini orada oturtdum. Ələddin də bizi görüb oraya gəldi...

– O da kabab yeməyə gəldi? – təəccüblə soruşdum.

– Yox, əşi... Sən niyə kababa ilişmisən? Seyid Ələddin gəlib mənimlə salamlaşdı. Əli üçün tikə hazırlayırdım. Gülüb zarafata dedi: "İndi ki oğluna kabab almısan, bizə də al, ikilikdə yeyək. Çoxdandır birlikdə xörək yemirik". Ona dedim: "Yox, biz cümə namazı niyyəti ilə gəlmişik, kabab yemək üçün yox. Əli uşaqdır, dözə bilmir, ac qalmamalıdır, yoxsa namazdan yorular". Ələddin kürəyimdən vurub dedi: "Əlbəttə ki, doğru deyirsən". Birlikdə namaza getdik, namazdan sonra da nə qədər israr etdim ki, nahara bizə gəlsin, razılaşmadı. Evdə onu gözləyirmişlər. Sənə də çoxlu salam söylədi.

– Aha. Onda əhvalat belə olub.

– Bəli, əziz seyid xanım.

İştaha ilə, tələsmədən yediyi yerdə ona baxırdım. Ona baxmaqdan heç vaxt doymurdum. Dedi:

– Mənim çantamı hazırla, sabah gedirəm.

– Hansı tərəfə?

– Banəyə. Zəncanlı uşaqlarLəri dərələrinə yerləşmişlər. Mühəndislik problemləri var. Hacı Kamal Cannisarla onlara kömək etməyə gedəcəyik.

Bir neçə ədəd düyünü əzib qucağımda çabalayan Möhsünün ağzına qoydum.

– Bizi də apar, xidmət etdiyin yerə ən yaxın şəhərə qoy. Vallah, sənin yanında olsam, daha rahat olaram, nəinki bu təhlükəsiz şəhərdə. Mənim təhlükəsizliyim sənin yanındadır, hətta döyüşün ortasında olsa belə!

Əhməd mənim baxışımdan, gözlərimi ona dikməyimdən, həmişə təriflədiyi, eşqlə baxdığı açıq rəngli gözlərdən qaçırdı. Hiss edirdim ki, məndən qaçır, baxışları qısa və keçici olub. Bir müddət idi məni qucağına götürüb gülə-gülə otaqda gəzdirmirdi.

Əlini əlimin üstünə qoydu, yalnız bir neçə saniyə saxladı, tez çəkib dedi:

– Özüm də belə düşünürəm. Banəyə gedib-qayıdım, altı aylığa cənuba getməliyəm. İnşallah, sizi də Əhvaza apararam. Orada Möhsün və Əli ilə birlikdə idarə evlərində qalarsan. Əhvazda olsan, sizin yanınıza daha çox gələ bilərəm. İki balaca uşaqla şəraitin, həqiqətən də, çətinləşib.

Sübh tezdən oyanmışdı. Mən oyananda artıq çay dəmləmiş, çörək, pendir və üzüm almışdı. Gedib əl-üzümü yudum, ikimiz süfrə başında oturduq. Çox sevdiyi sarımtıl yataq paltarı əynimdəydi. Onun klyoş qollu xalatını geyib saçımı bağlamaq istəyəndə gülümsədi, rezini məndən aldı.

Səhər yeməyini sükut içində yedik. İkinci çayımı süzmək istəyəndə dedi:

– Mən artıq getməliyəm.

– Qoy uşaqları oyadım.

– Yox... Mən gedəndən sonra səni incidərlər.

Əli ilə Möhsünə yaxınlaşıb ikisini də yavaşca öpdü, sonra mənim yanıma gəldi, saçımı tumarlayıb dedi:

– Mənim səbirli və gözəl xanımım! Bu qara tellər və yaşıl gözlər mənimçün gözəlliyin son həddidir.

Mənim danışmağımı gözləmədi, heç məni qucaqlamadı da. Qapıya doğru getdi, mən də ardınca. Çəkmələrini geydi. Ayaq üstə dayanmağa taqətim qalmamışdı. Qapının çərçivəsinə söykəndim. Maşına doğru getdi. Maşını işə saldı, sonra bir ayağı maşında, bir ayağı yerdə mənə sarı boylanıb dedi:

– Gir içəri.

Otağa keçib pərdəni çəkdim, oradan baxmağa başladım. Həyət qapısını açıb maşını bayıra çıxardı. Maşından enib həyətin qapısını örtdü və getdi.

Evdə var-gəl etməyə başladım. Süfrə yerdəydi. Gözlərim Əhmədin oturduğu yerə dikilib qaldı. Əhmədsiz ev mənim üçün çarəsiz qalaraq sığındığım xarabalıq kimi idi. Göz yaşlarım aman vermirdi. Möhsünün ağlamaq səsi gəldi. Əlimin arxası ilə gözlərimi silib onu qucağıma götürdüm.

Bazar günü idi. Əhməd gedəndən, yəni şənbə günündən bəri heç nə yeməmişdim. Ürəyim bərk döyünürdü. Daimi bir təşviş məni incidirdi. Axşam uşaqları götürüb qayınatamgilə getdim. Sakit və kövrək idim, danışsaydım, ağlayacaqdım. Qayınanam qara üzüm yudu, önümə qoyub dedi: "İndi ki şam yemirsən, onda üzüm ye".

Eşitmişdim ki, qara üzüm qəm-kədəri aparır. Tez-tez yeməyə başladım. Ancaq həyəcanım daha da çoxaldı. Hər an fikirləşirdim ki, Əhməd daha bu dünyada deyil.

Gecə Əlinin qızdırması qalxdı. Bədəni o qədər isti idi ki, qıc olacağından qorxurdum. Səhərə qədər başı üstə oturdum, tez-tez dəsmal isladıb alnına və ayaqlarına qoydum. Asetaminofen şərbəti verdim, bir qədər sakitləşdi. Səhərə yaxın məni yuxu tutdu. Yuxuda gördüm ki, qara çadralı qadınlar dəstə-dəstə qayınatamgilə gəlirlər.

Səhər yuxudan ayılandan sonra sədəqə ayırıb dedim ki, İlahi, özün xeyrə cala!

Səhər yeməyindən sonra Möhsünü qucağıma götürdüm və heç bir səbəb olmadan ağlamağa başladım. Əlinin əlindən tutub dedim ki, evə getmək istəyirəm. Qayınanam nə qədər israr etsə də, evdən çıxdım. Küçəyə çıxanda isə, bəlkə də, iyirmi avtomobilin bir-birinin ardınca qayınanamgilə gəldiyini gördüm.

Elə oradaca, qapının önündə yerə oturdum. Özümü idarə edə bilmirdim, bədənimin iflic olduğunu hiss edirdim. Ələddin birinci maşından düşdü. Əynində qara köynək vardı. Gözlərim qaraldı. Səsləri eşitmirdim. Ələddin mənə yaxınlaşdı, qollarımdan tutub ayağa qaldırdı. Möhsünlə Əlini görmürdüm. Heç kəsi görmürdüm. Yalnız Ələddinin səsini eşidirdim: "Fəxri can, bacı, qorxma, danış".

Çətinliklə dedim: "Əhməd şəhid olub?"

Gözlərinin yaşını əlinin arxası ilə sildi. Dedim: "Həmişə deyirdin ki, inqilab uşaq oyuncağı deyil, bədəl istəyir... Budur, bu da bədəl!"

Başını çiynimə qoyub ağlamağa başladı. Mənsə ağlamırdım. Ev adamla dolmuşdu. Hamı ağlayırdı. İnana bilmirdim. Əhməd iki gün öncə getmişdi. Çətinliklə ayağa qalxıb evə yola düşdüm. Heç kim mənə fikir vermirdi. Hay-küy, ağlaşma və şivən səsi getdikcə uzaqlaşırdı. Evə qədər piyada getdim. Açarı salıb qapını açdım. İçəri girdim. Əhmədin pencəyi asılqandan asılmışdı. Yaxınlaşıb əlimi cibinə saldım. Cibində Məşhəddəki otelin qəbzi vardı. Onu yerə atdım. Evin içində gəzişməyə başladım. Hamama doğru getdim. Əhmədin köynəyi və maykası çirkli paltar səbətindəydi. Onları götürüb üzümə yapışdırdım, dərin nəfəs almağa başladım. Əhmədin ətri

bütün vücuduma doldu. O anda qəhərim açıldı və bərkdən ağlamağa başladım. Dedim: "Mənim Əhmədim, sənsiz uşaqları necə böyüdəcəyəm?! Yəni daha Əlinin "ata" sözünü eşitməyəcəyəm?! Möhsün "ata" sözünü öyrənməyəcək?!"

Paltarları orada qoyub evdən çıxdım. Həyət qapısını kilidləyib-kilidləmədiyimi xatırlamıram. Ordu hospitalının morquna getdim. Şəhid olduğuna inanmaq üçün onu görməli idim. Şəhidləri kəfənləyən Məşhədi Əli əmini uzaqdan gördüm, ona yaxınlaşıb dedim: "Əhmədi görməyə gəlmişəm".

Məşhədi Əli əmi başını aşağı salıb kövrək səslə dedi: "Qızım, niyə tək gəlmisən? Əgər halın pisləşsə, mən nə edərəm?" Dedim: "Sən Allah, əmi, icazə ver, Əhmədi görüm".

Üzümdə nə gördüsə, bir söz demədən morqa getdi. Mən də ardınca yola düşdüm. Bir qapıcığa yaxınlaşıb açdı, cəsədi bayıra çıxardı, kəfəni açıb getdi. Kəfən qana bulaşmışdı. İki qolu kəsilmiş, yalnız dəridən asılı qalmışdı. Gözləri yarıaçıq vəziyyətdə idi, eynilə yatanda olduğu kimi. Bir neçə dəfə onu çağırdım, cavab vermədi. Əlimlə silkələdim. Heyrətlə baxırdım. Xırda qəlpələr üzündə ulduz kimi parıldayırdı. Onun rahat olduğunu duydum və bütün vücudumla ona qibtə etdim.

Əllərimi dizlərimə qoyub qalxmaq istədim, amma yapışqan bir bataqlığa batmış adam kimi bacarmadım. Hərəkət edə bilmirdim. Özümü xilas etmək üçün əl-qol atırdım. Bu eşqin zəncirindən xilas olmağa heç bir yol görmürdüm. Ağlamağa başladım, Əhmədin yarıaçıq gözlərinə baxıb oxudum:

Gülşən cismində xəncər yarası gül-gül açıb,
Ox o gül-gül yaralar üstündə xoş sünbül açıb,
Şərhi-hal etmək üçün hər yara yüz min dil açıb,
Olmusan başdan-ayağa gülşən, xudahafiz, Hüseyn!

Eşq bir iynədə əxgər, mən sipəndəm, neylərəm?
Eşq zəncirində möhkəm paybəndəm, neylərəm?
Nə həbibəm, nə təbibəm, dərdiməndəm, neylərəm?
Eylərəm səhər-axşam şivən, xudahafiz, Hüseyn![1]

[1] Şeir Mirzə Rza Sərraf Təbrizinindir.

Mündəricat


Giriş ......................................................................3
Birinci fəsil ..............................................................5
İkinci fəsil...............................................................21
Üçüncü fəsil.............................................................34
Dördüncü fəsil..........................................................44
Beşinci fəsil .............................................................62
Altıncı fəsil...............................................................86
Yeddinci fəsil..........................................................101
Səkkizinci fəsil.........................................................121
Doqquzuncu fəsil.....................................................134
Onuncu fəsil ...........................................................146
On birinci fəsil.........................................................162
On ikinci fəsil..........................................................172
On üçüncü fəsil .......................................................180